2-ci hissə



# AZƏRBAYCAN DİLİ

DƏRSLİK

(tədris dili)

7





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Layihə



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Layihə

2-ci hissə

Rafiq İsmayılov
Ülkər Nurullayeva
Dilrüba Cəfərova
Aysel Xanalıyeva

# Azərbaycan dili

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün
Azərbaycan dili (tədris dili) fənni üzrə
dərslik (2-ci hissə)

7

Layihə

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# İÇİNDƏKİLƏR

## bölmə 5 Beynimizi işlədək


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | İnsan beyni | Morfemlər və onların semantikası | 6-13 |
| Fəsil 2 | Oxuyub-anlama və oxu sürəti | Hal şəkilçiləri qəbul etmiş sözlərin deyilişi və yazılışı | 14-21 |
| Fəsil 3 | Yaddaş texnikaları | Yer zərfinin semantik xüsusiyyətləri və orfoqrafiyası | 22-28 |
| | Ümumiləşdirici təkrar | | 29 |


## bölmə 6 Niyə belə deyirik?


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Deyimlər | Məsdərin qrammatik xüsusiyyətləri | 30-37 |
| Fəsil 2 | Eponimlər | Sadə və mürəkkəb söz birləşmələri | 38-43 |
| Fəsil 3 | Pollianna | Feili birləşmələr cümlə üzvü kimi | 44-50 |
| | Ümumiləşdirici təkrar | | 51 |


## bölmə 7 Məktublar


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Vanka | Feili xəbər və ismi xəbər | 52-59 |
| Fəsil 2 | Avraam Linkolnun oğlunun müəlliminə məktubu | Mübtəda və xitabın fərqləndirilməsi | 60-65 |
| Fəsil 3 | Çarli Çaplinin qızı Ceraldinaya məktubu | Həmcins cümlə üzvləri | 66-70 |
| | Ümumiləşdirici təkrar | | 71 |


## bölmə 8 Təbiətsevərlər


| | Mövzu | Dil qaydaları | |
|---|---|---|---|
| Fəsil 1 | Düşərgələr | Köməkçi nitq hissələri (təkrar) | 72-78 |
| Fəsil 2 | İki il ağacda yaşayan qadın: Culiya Hillin fədakarlığı | Əsas nitq hissələri (təkrar) | 79-85 |
| Fəsil 3 | Plastik materialın ixtirası, inkişafı, bu günü | | 86-91 |
| | Ümumiləşdirici təkrar | | 92-93 |
| | İzahlı sözlük | | 94-95 |


Layihə

# KİTABINIZLA TANIŞ OLUN

Dərsliyin müxtəlif bölmələrində təkrar olunan başlıqlarla – rubrikalarla qarşılaşacaqsınız.

**Söz boğçası** – Oxuduğunuz mətnlərdə işlənmiş yeni söz və ifadələr

**Yadda saxla** – Dil qaydaları ilə bağlı nəzəri bilgilər

**Diqqət et** – Nitq bacarıqları üzrə müxtəlif məlumat və tövsiyələr

**Xatırla** – Əvvəlki siniflərdə və ya dərslərdə keçilmiş biliklər

**Qlossari** – Müxtəlif sahələrə aid akademik söz və terminlərin izahı

**Orfoqrafiya** – Deyilişi və yazılışı fərqlənən sözlərin orfoqrafik normalara uyğun yazılışı

## Söz ehtiyatı

Mətndə rast gəlinən yeni söz və ifadələrlə bağlı tapşırıqlar

## Nə anladın?

Mətndəki fakt və hadisələrlə bağlı suallar

## Düşün və cavab ver

Şərh, təhlil, münasibət xarakterli tapşırıqlar

## Dinləmə 01

Dinlədiyiniz mətnlə bağlı sual və tapşırıqlar

## Yazı

Oxuduğunuz və ya dinlədiyiniz mətnin mövzusu ilə bağlı yazı tapşırıqları

## Araşdırma/Təqdimat

Mövzu ilə bağlı araşdırma və təqdimat

Layihə

bölmə 5

# Beynimizi işlədək

1-ci fəsil

**1 a** **Bölmənin adına diqqət yetirin. “Beynini işlətmək” frazeoloji birləşməsinin mənasını izah edin. Sizcə, bu ifadə həqiqi mənada da işlənə bilərmi?**

**b** **Təbiət fənnindən sinir sistemi haqqında öyrəndiklərinizi xatırlayın. İnsan orqanizmində beyinin rolu nədən ibarətdir?**

**c** **Mətnin giriş hissəsini oxuyun və sualları cavablandırın.**

## İNSAN BEYNİ

Cəmi 1,4 kq ağırlığındadır, lakin bəşəriyyətə məlum olan təbiət qanunlarının kəşfinə, istifadə etdiyimiz cihaz və qurğuların ixtirasına görə ona borcluyuq. O olmasaydı, Leonardo da Vinçinin “Mona Liza”sı, Üzeyir Hacıbəylinin “Leyli və Məcnun”u yaranmazdı. Bir sözlə, irili-xırdalı bütün ideyalar onun məhsuludur.

Bəli, söhbət insan beynindən gedir – əqli, duyğusal və fiziki fəaliyyətimizi idarə edən orqandan. Onu bəzən kompüterin mərkəzi prosessoru ilə müqayisə edirlər. Belə ki, milyardlarla hüceyrədən – neyrondan ibarət beyin duyğu orqanları vasitəsilə qəbul edilən informasiyanı yaddaşına köçürür, təhlil edir və adekvat reaksiya verir.




Əgər beyin həyatımız üçün bu qədər vacibdirsə, deməli, biz onu yaxından tanımalıyıq. Tanımalıyıq ki, nəyə qadir olduğumuzu bilək, yəni potensialımıza bələd olaq.

**Qlossari**

**Adekvat** – müəyyən bir hərəkətlə ona qarşı reaksiyanın uyğunluğu.

**ç** **Şəkillərdən istifadə etməklə altından xətt çəkilmiş cümləni genişləndirin, prosessorla beyin arasındakı oxşar və fərqli cəhətlər haqqında danışın.**






Layihə

**d** **Üç qrupa bölünün. Təlimata uyğun olaraq mətnin bir hissəsini oxuyun və onun məzmununu sinfə təqdim edin.**

**Təlimat**

**MƏNİMSƏMƏ**

1. **Oxuyub-anlama.** Oxuduğunuz hissə ilə bağlı sual və tapşırıqları yerinə yetirin. Mətndəki məlumatları tam olaraq mənimsədiyinizə əmin olun.
2. **Təhlil.** Mətni yazmaqda müəllifin məqsədini, onun çatdırmaq istədiyi əsas fikirləri müəyyən edin.
3. **Qeydlər.** Təqdimat zamanı istifadə etmək üçün qeydlər götürün, yaddaş vərəqi hazırlayın.

**TƏQDİMAT**

4. **Mövzu.** Oxuduğunuz hissənin mövzusunu açıqlayın. Mövzudan çıxış edərək hissəni məzmuna uyğun yarımbaşlıqla adlandırın.
5. **Tezis və arqumentlər.** Mətndəki əsas tezis(lər)i səsləndirin və hər bir tezisi əsaslandırmaq üçün müəllifin gətirdiyi arqumentlər haqqında danışın.
6. **Rabitəli nitq.** Məzmun haqqında məlumat verərkən ara sözlər işlətməklə müəllifə istinad edin ("müəllifin fikrincə", "daha sonra müəllif bildirir ki" və s.).
7. **Münasibət.** Müəllifin fikirləri və onların əsaslandırılması sizi qane etdimi? Bununla bağlı mövqeyinizi bildirin.

**I qrup** Son vaxtlara qədər geniş yayılmış bir fikir var idi: insan öz beyninin yalnız 10%-dən istifadə edir. Qalan 90% isə daim **"mürgüləyir".** Bu fikri irəli sürənlər sanki beyinin möhtəşəmliyini sübut etmiş olurdular: "Baxın, 10%-lə təbiətə meydan oxuyan insan bu həddi aşa bilsə, nələr edə bilər". Hətta deyirdilər ki, 10% həddini aşa bilən hind yoqları havada uça, suyun üzündə gəzə bilirlər.

Bəs bu əfsanə necə yaranıb?



XIX əsrin sonları – XX əsrin əvvəllərində alimlər beyinin ayrı-ayrı şöbələrinin funksiyalarını başa düşməyəndə belə qənaətə gəldilər ki, həmin orqanlar **"yuxudadır".** Məşhur amerikalı psixoloq Uilyam Ceyms 1906-cı ildə qələmə aldığı "Kişi enerjisi" məqaləsində yazırdı: "Biz yarıyuxulu vəziyyətdəyik... Mümkün əqli və fiziki imkanlarımızın yalnız kiçik hissəsindən istifadə edə bilirik". Bu sitat sonralar (1936-cı ildə) Deyl Karneginin "Dostları necə qazanmalı və insanlara necə təsir etməli" kitabına yazılmış girişdə belə xatırlandı: "Harvard Universitetinin professoru Uilyam Ceyms bildirirdi ki, adi insan özünün əqli imkanlarının yalnız 10 faizindən istifadə edir". Karneginin kitabı az bir zamanda böyük populyarlıq qazandı və, beləliklə, Ceymsdən gətirilən sitat da bütün dünyada məşhurlaşdı.

Layihə

Lakin müasir elm 10% haqqında əfsanəni puç hesab edərək beyinin hər bir hissəsinin öz funksiyası olduğunu sübuta yetirib, yəni beyində **"bikar"** hissə tapmayıb. Alimlər müasir tibbi cihazlar vasitəsilə apardıqları tədqiqatlar nəticəsində bu qənaətə gəliblər ki, insan beyninin bütün şöbələri daim fəaldır. Kanadalı alim Barri Beyerşteyn isə "Ağıl haqqında miflər" (1999) əsərində bunu təsdiq edən elmi dəlillər gətirir:

"Əvvəla, əgər beyinin cəmi 10%-dən istifadə edilirsə, yerdə qalan **"yararsız"** zonaların zədələnməsi onun fəaliyyətinə təsir göstərməli deyil. Lakin beyin zədələrini araşdırarkən məlum olub ki, təsirsiz ötüşən zədə yoxdur. İkincisi, insan beyni vahid kütlə şəklində deyil; o, ayrıca funksiyaları olan şöbələrə bölünür. Bu şöbələrin öyrənilməsinə onilliklər sərf edilib və indiyədək funksiyası olmayan sahə müəyyən edilməyib".




**e** **Oxuduğunuz hissənin 1-ci abzasında müəllif hansı tezisi açıqlayır? Müəllifin bu tezisə münasibəti necədir? Hansı ifadələr müəllifin bu tezislə bağlı mövqeyini göstərir?**

**ə** **İnsan beyninin 90%-nin passiv olması ilə bağlı fikir necə yaranıb? Aşağıdakı cədvəli tamamlamaqla yaddaş vərəqi hazırlayın və təqdimat zamanı qeydlərinizdən istifadə edin.**

| Müəllif | Əsər | Tarix |
|---|---|---|
| *Uilyam Ceyms* | | |
| | | *1936* |
| | | |

**f** **Müəllif mətnin əvvəlində açıqladığı tezisi təkzib etmək üçün hansı arqumentdən istifadə edir?**

**g** **Aşağıdakı fikri tamamlamaqla müəllifin arqumentini müəyyənləşdir.**

*Beyinin istənilən hissəsi zədələnəndə insanın əqli və fiziki fəaliyyətində pozulma baş verir. Deməli, ...*

Layihə

**II qrup** Belə düşünmək olar ki, beyni daha böyük və ağır olan canlının əqli imkanları da böyükdür. Bu mifi ilk dəfə Aristotel dağıdıb. O bildirib ki, canlının intellekt səviyyəsi onun beyninin böyüklüyü ilə deyil, beyin çəkisinin həmin canlının ümumi ağırlığına nisbəti ilə ölçülür. Doğrudan da, dünyada ən böyük canlılardan olan balinanın 7,8 kiloqram çəkisi olan beyninin hər qramı bədənin 5 kiloqram ağırlığında hissəsini idarə edir. İnsan beyninin 1 qramı isə bədənin cəmi 50 qramına **"cavabdehdir".**

Lakin Aristotel bir səhvə yol verib. Eramızdan əvvəl 350-ci ildə qələmə aldığı "Heyvanların hissələri haqqında" əsərində o yazırdı: "Bütün canlıların arasında öz çəkisi ilə müqayisədə ən böyük beyin insan beynidir". Aristotelin vaxtında kiçik heyvanların və həşəratların beynini tədqiq etmək üçün xüsusi avadanlıq yox idi. Əgər olsa idi, böyük alim bu göstəriciyə görə birinciliyi qarışqaya verərdi. Təsəvvür edin: insanın təxminən 1500 qramlıq beyni onun bədən çəkisinin 2%-ni təşkil edir, qarışqanın 3 milliqramlıq beyni isə bu həşəratın çəkisinin 6%-ni təşkil edir.

Lakin canlının əqli səviyyəsini ölçmək üçün iki vacib göstərici də var. Bunlardan biri beyindəki neyronların sayıdır. Tədqiqatlar göstərir ki, insan beynindəki qırışlar çox mürəkkəb bir kompleksdir. Bu kompleks on milyardlarla neyrondan ibarət olub bütün bədəni idarə edən bir mərkəzdir.

İkinci amil isə bu neyronlar arasında olan əlaqələrdir. Beyin ölçülərindən asılı olmayaraq, neyronlar arasındakı əlaqə intellektin inkişafına xidmət edir. Beyinə nə qədər çox informasiya daxil olursa, neyronlar arasındakı əlaqə də bir o qədər artır. Bu əlaqə zəiflədikcə intellekt də məhdudlaşır.




**ğ** **Təqdimat zamanı lövhədə aşağıdakı sxemi çəkin və onun əsasında oxuduğunuz hissənin məzmununu şərh edin.**

**Qlossari**

**Təkamül** – kamilliyə doğru tədricən dəyişmə, inkişaf.

**Beyin və intellektin bağlılığı haqqında**
**FİKİRLƏRİN TƏKAMÜLÜ**

↓

Böyük beyin – güclü ağıl

↓

Beyin çəkisi ilə bədən ağırlığının nisbəti

↓

Neyronların sayı

↓

Neyronlar arasında əlaqənin səviyyəsi

Layihə



**III qrup** İnsan beyni iki yarımkürədən ibarətdir. Bəzi alimlərin fikrincə, onların funksiyaları xeyli dərəcədə fərqlənir: sol yarımkürə məntiqi və analitik düşünmə sistemini idarə edir, sağ yarımkürə isə daha çox bədii təxəyyül və yaradıcı təfəkkürlə əlaqəlidir. Beyninin sol yarımkürəsi güclü inkişaf etmiş insanlar mürəkkəb layihələr planlaşdıra, dəqiq elmi hesablamalar apara bilirlər. Rəssam, yazıçı və musiqiçilərdə isə daha çox sağ yarımkürə inkişaf etmiş olur. Onlar obrazlı düşünür və daha emosional olurlar.

Lakin bu geniş yayılmış fikri qəbul etməyənlər də var. Məsələn, ABŞ-nin Yuta ştatından olan neyrobioloq Cefri Anderson yazır: "Əlbəttə, bəzi insanlar daha çox məntiqi düşünür, digərləri isə öz fikirlərində intuisiyaya, təxəyyülə üstünlük verirlər. Lakin bu heç də beyinin sağ və sol yarımkürələri ilə bağlı deyil" ("İndependent" jurnalı, 27 fevral 2016-cı il). Alimin fikrincə, beyində gedən əqli prosesləri sağa və sola ayıraraq bu cür bəsit şəkildə məntiq və fantaziyaya aid etmək olmaz.

Rus alimi Aleksey İvanitski öz amerikalı həmkarının fikri ilə qismən razılaşır. O bildirir ki, beyinin sağ və sol yarımkürələrinin funksiyaları arasındakı fərqi inkar etmək olmaz. Fikrini əsaslandırmaq üçün prof. İvanitski beyində nitq mərkəzinin bütövlükdə sol yarımkürədə yerləşdiyini bildirir. Alimin fikrincə, nitq fəaliyyəti məntiqi və analitik düşüncə ilə sıx bağlıdır. Bununla yanaşı, Aleksey İvanitski amerikalı kolleqasının fikrinə haqq qazandıraraq deyir ki, beyinin yarımkürələrini funksional baxımdan bir-birindən kəskin şəkildə ayırmaq doğru deyil. Tarixin yaddaşında dahi kimi qalan insanların əksəriyyətində həm məntiqi, həm də yaradıcı təfəkkür güclü inkişaf etmişdi.

**h Oxuduğunuz hissədə müəllif hansı problemi qaldırır?**
- **Mətndə problemlə bağlı hansı fikirlər öz əksini tapır?**
- **Müəllif problemlə bağlı öz mövqeyini ifadə edirmi? Fikrinizi əsaslandırın.**

**Diqqət et**

Bəzi mətnlərdə müəllif qaldırdığı problemə aydınlıq gətirmək üçün bir-birinə zidd müxtəlif tezislər və arqumentlər irəli sürür. Lakin arqumentativ mətndən fərqli olaraq, öz qəti mövqeyini bildirmir, oxucunu hansısa fikrə inandırmağa çalışmır, fikirlərdən nəticə çıxarmağı oxucunun öz öhdəsinə buraxır. Belə mətnlər polemik mətn adlanır.

**x Mətnin giriş hissəsində verilmiş "neyron" sözünün izahından çıxış edərək "neyrobioloq", "neyrocərrah", "neyrodinamika" sözlərini izah edin.**

**Qlossari**

**Polemika** – müəyyən bir məsələ barədə elmi əsaslara söykənən fikir mübadiləsi; mübahisə, müzakirə.

Layihə

**2 a** **Təqdimatlarda səsləndirilmiş fikirləri tezislər şəklində ümumiləşdirin. Aşağıdakı suallara cavab hazırlayın.**

- Müəllif hansı suala aydınlıq gətirməyə çalışır?
- Qaldırılan məsələ ilə bağlı hansı tezislər irəli sürülür?
- Müəllif hansı tezisi müdafiə edir?
- Müəllifin fikri ilə razısınızmı? Fikrinizi əsaslandırın.

**b** **“Diqqət et” rubrikasında verilmiş məlumatla tanış olun. “İnsan beyni” mətninin elmi mətn olduğunu əsaslandırın.**
**• Mətndən 8–10 termin (məsələn, “neyron”) və akademik ifadə (məsələn, “əqli proses”) seçin.**
**• Mətndə istinad edilən alimlərin və onların əsərlərinin siyahısını tutun. Siyahını “İstifadə olunmuş ədəbiyyat” başlığı ilə adlandırın.**

**Diqqət et**

Qeyri-bədii mətnin növlərindən biri olan elmi mətnlərdə hər hansı varlıq və ya hadisə elmi cəhətdən araşdırılır, müəyyən suala aydınlıq gətirilir. Bu cür mətnlər aşağıdakı xüsusiyyətlərə malikdir:
- fikirlərin elmi məntiqə əsaslanması;
- terminlərdən və akademik ifadələrdən geniş istifadə;
- mötəbər elmi mənbələrə istinad.

Bununla yanaşı, elmi mətnlərdə müəllif bəzən bədii təsvir və ifadə vasitələrindən istifadə edə bilər ki, bu da mətnin üslubuna müəyyən emosionallıq gətirir.

**c** **Mətnin giriş hissəsində işlənmiş təkriri müəyyən edin.**

*Əgər beyin həyatımız üçün bu qədər vacibdirsə, deməli, biz onu yaxından tanımalıyıq. Tanımalıyıq ki, nəyə qadir olduğumuzu bilək, yəni potensialımıza bələd olaq.*

**• Onu verilmiş nümunədəki təkrirlə müqayisə edin.**

*Heç bundan da ağır günah olarmı, de,*
*Çəkişmələr səngiməyir o zamandan.*
*O zamandan başər olub doğma, ögey,*
*Bir-birinin ətin yeyir o zamandan...*
*(Cabir Novruz)*

**Qlossari**

**Təkrir** – nitqin emosionallığını artırmaq məqsədilə mətndə eyni sözün, yaxud ifadənin təkrar olunması.

**Metafor** – müəyyən əşya və ya hadisəyə xas olan əlamətin digər əşya və ya hadisə üzərinə köçürülməsi.

**ç** **Mətndə tünd rənglə fərqləndirilmiş bir neçə söz dırnaq içərisində yazılmışdır. Onların metafor olduğunu əsaslandırın.**

**d** **Göy rənglə verilmiş “yararsız” sözü məcazın hansı növünə aiddir: metafor, yoxsa kinayə? Seçiminizi əsaslandırın.**

**Xatırla**

**Kinayə** – əks mənada başa düşülən söz və ya ifadə; istehza, ironiya.

Layihə

# Morfemlər və onların semantikası

**3 a Sözləri kök və şəkilçiyə ayırın.**
**Şəkilçilərin sözdəki funksiyasını müəyyən edin.**

**Qlossari**

**Morfem** – sözün tərkib hissəsi: kök, şəkilçi və ya bitişdirici hissəcik.
**Morfologiya** – nitq hissələrindən, sözlərin tərkibindən və dəyişmə qaydalarından bəhs edən dilçilik bölməsi.

**1.** ***çəkməçi*** **2.** ***alaçı***

**a.** Keyfiyyət bildirən sifətə qoşularaq şəxs anlayışı ifadə edən isim yaradıb.
**b.** İsmə qoşularaq peşə bildirən söz yaradıb.

**1.** ***yaxşılıq*** **2.** ***həftəlik***

**a.** Sifətə qoşularaq mücərrəd isim yaradıb.
**b.** İsmə qoşularaq zaman anlayışı bildirən sifət yaradıb.

**1.** ***ağıllı*** **2.** ***kəndli***

**a.** Yer bildirən ismə qoşularaq şəxs bildirən isim yaradıb.
**b.** İsmə qoşularaq keyfiyyət bildirən sifət yaradıb.

**Yadda saxla** Morfemlərin semantik funksiyası

Dildə olan bütün morfemlərin – əsas və köməkçi nitq hissələrinin, leksik və qrammatik şəkilçilərin və s.-nin **semantik funksiyası** var. Hər bir morfemin semantikası kontekstdə daşıdığı məna çalarına görə müəyyən olunur.
Şəkilçinin qrammatik mənası ilə semantik funksiyası arasında müəyyən fərqlər var.
Məsələn:
***-sız***$^4$ şəkilçisinin qrammatik mənası: leksik şəkilçidir, dörd cür yazılır, sifət yaradır;
***-sız***$^4$ şəkilçisinin semantik funksiyası: söz kökünün ifadə etdiyi varlığın olmadığını bildirir; susuz – su olmayan.

**b Uyğunlaşdırma aparmaqla verilmiş ifadələrdə "açıq" sözünün semantik funksiyasını müəyyənləşdirin.**

**1.** açıq-aydın
**2.** açıq-qırmızı
**3.** açıq qapı günü

**a.** Rəng bildirən sözə qoşularaq həmin rəngin azlığını bildirir.
**b.** Frazeoloji ifadənin tərkibində məcazi mənada işlənib.
**c.** "Aşkar, bariz" mənasında mürəkkəb sözün komponenti kimi işlənib.

**c Sözlərdəki leksik şəkilçiləri və onların semantik funksiyasını müəyyənləşdirin.**

| | | | | |
|---|---|---|---|---|
| quşcuğaz | meydança | dayımgil | badamı | evdəki |
| qızcığaz | döşəkçə | Vüqargil | şabalıdı | ağacdakı |

Layihə

**4 a Dörd sözdən birinin tərkibində alınma şəkilçi var:**

| | | | |
|---|---|---|---|
| **a.** gülünc | **b.** dünənki | **c.** cəfakeş | **d.** qırğın |
| **a.** xəstəxana | **b.** çalışqan | **c.** qulaqcıq | **d.** qumluq |
| **a.** uçqun | **b.** gəmirici | **c.** qırıntı | **d.** peşəkar |

• **Seçiminizi əsaslandırın.**

**Yadda saxla** **Alınma morfemlər**

Dilimizdə ayrılıqda işlənə bilməyən bir çox morfemlər başqa dillərdən alınıb. Sözdəki yerinə görə alınma morfemləri iki qrupa bölmək olar:
- sözsonu morfemlər: *sülh**pərvər**, bürokrat**izm**, leksiko**logiya***
- sözönü morfemlər: ***ba**məzə, **na**xoş, **anti**faşist, **a**normal*

Mənşəyinə görə də alınma morfemləri iki qrupa ayırmaq olar:
- ərəb-fars mənşəli morfemlər: *nişan**gah**, **la**məkan, **na**dinc*
- yunan-latın mənşəli morfemlər: ***aqro**təsərrüfat, **audio**fayl, film**oteka**, **veb**-səhifə*

Bir çox yunan-latın mənşəli morfemlərin semantik funksiyası daha qabarıqdır, çünki bu morfemlər mənsub olduğu dildə leksik mənası olan sözlərdir. Məsələn:

yun. *anthropos* – insan
yun. *logos* – söz, təlim
→ **antropologiya** – insanın yaranması, inkişafı, fiziologiyası və s. haqqında elm.

**b Uyğunluğu müəyyən edin.**

**1.** Ayrılıqda işlənməyən iki alınma morfemin birləşməsindən yaranmışdır.
**2.** Leksik mənalı sözlə sözönü morfemin birləşməsindən yaranmışdır.
**3.** Leksik mənalı sözlə sözsonu morfemin birləşməsindən yaranmışdır.
**4.** Söz tək morfemdən ibarətdir.

| | |
|---|---|
| **a.** misgər | **d.** əlcək |
| **b.** dülgər | **e.** pencək |
| **c.** mikrodalğa | **ə.** ekologiya |
| **ç.** mikroskop | **f.** ekosistem |

**c Sözlərin izahından istifadə edərək tərkibindəki ayrı-ayrı morfemlərin semantik funksiyasını müəyyənləşdirin.**

**Nümunə** *Neo – qoşulduğu sözə "yeni, təzə" mənası gətirən alınma morfem.*

**Neologizm** (yun. *neo + logos + izm*) – dilin lüğət tərkibinə daxil olan yeni söz və ifadələr.
**Monoteizm** (yun. *monos + theos + izm*) – Allahın tək olması ideyasına əsaslanan dini təlim.
**Politeizm** (yun. *poly + theos + izm*) – çoxsaylı tanrılara sitayiş.
**Poliqlot** (yun. *poly + glotta*) – çox dil bilən adam.



Layihə

**1 a** **Bəzi şagirdlər müzakirə zamanı fikirlərini açıq söyləməkdən çəkinirlər. Sizcə, bunun səbəbi nədir?**

## Dinləmə 10

**Qlossari**

**Metod** – bir şeyi dərk etmək, nəyə isə nail olmaq üçün tətbiq edilən üsul, atılan addımlar.

**b** **"Beyin fırtınası" mətnini dinləyin.**
- **Aşağıdakı sxemə uyğun yaddaş xəritəsi tərtib edin və mətndəki əsas fikirləri xəritənin müvafiq hissələrində qeyd edin.**

*Yaradıcısı* — *Yaradılma səbəbi*

**Beyin fırtınası**

*Əsas qaydaları* — *Mərhələləri*

**c** **Cütlərlə iş. Bir-birinizin yaddaş xəritəsinə nəzər salın və münasibət bildirin.**
- **Qeydlər anlaşıqlıdırmı?**
- **Məzmuna uyğundurmu?**

**ç** **İngilis dilində "breynstorminq" termini iki sözün birləşməsindən yaranmış mürəkkəb sözdür:**

ing. *brain* – beyin
ing. *storm* – 1. Fırtına, qasırğa. 2. Hücum etmək, həmlə etmək

**Azərbaycan dilində bu üsulu iki cür adlandırırlar: "beyin fırtınası" və "beyin həmləsi". Sizcə, bu ifadələrdən hansı breynstorminq metodunun mahiyyətini daha düzgün əks etdirir?**

**d** **Oxu bacarığınızın səviyyəsi haqqında düşünmüsünüzmü? Mətnləri oxuyarkən nə dərəcədə dərindən qavrayırsınız? Oxu sürətiniz sizi qane edirmi?**

**e** **"Oxu bacarığını inkişaf etdirmək üçün nə etmək lazımdır?" sualı ilə bağlı "beyin fırtınası" təşkil edin. Dinlədiyiniz mətndən əldə etdiyiniz bilikləri tətbiq edin.**

Layihə

**2 a** **Beynimiz ətraf aləm haqqında informasiyanı hansı duyğu orqanları vasitəsilə qəbul edir?**

- **Hansı duyğular vasitəsilə verbal (sözlə ifadə olunan) informasiyanı qəbul edirik?**
- **Sizcə, görmə qabiliyyətini itirmiş insanlar hansı duyğunun köməyi ilə oxuyurlar? (Aşağı siniflərdə Brayl əlifbası haqqında oxuduqlarınızı xatırlayın.)**

**b** **“Oxuyub-anlama və oxu sürəti” mətnini oxumağa hazırlaşın.**

- **Epiqrafı oxuyun, fikri şərh edin.**
- **Girişi oxuyun. Mətnin məzmununu təxmin edin.**
- **Yarımbaşlıqlarda qoyulmuş suallar haqqında düşünün. Bu haqda nə bilirsiniz?**
- **Saniyəölçəni qoşun və mətni oxumağa başlayın. Bitirdikdən sonra oxu sürətinizi müəyyənləşdirin.**

## Oxuyub-anlama və oxu sürəti

*Oxucuları iki qrupa ayırıram: xatırlamaq üçün oxuyanlar və unutmaq üçün oxuyanlar. (V.Filips)*



Oxuyub-anlama öyrənmənin əsasını təşkil edir. Təhsil prosesində informasiyanın böyük hissəsini oxumaqla əldə edirik. Oxuduqlarımızı dərindən qavraya bilirikmi? Təhsildə uğurlarımız çox zaman bundan asılı olur. Ona görə də oxu prosesinin mahiyyətini anlamalı, üstün və zəif cəhətlərimizi aşkar etməliyik.

**I hissə** **Oxu zamanı beynimizdə nə baş verir?**

Hər bir mətn cümlələrdən, cümlələr sözlərdən, sözlər isə hərflərdən ibarətdir. Hərflər səsləri işarə edən xüsusi simvollardır. Bu işarələrdən ibarət olan sözlər anlayışları, cümlələr isə fikirləri ifadə edir. Beləliklə, oxu zamanı beyində simvollarla anlayışların eyniləşdirilməsi, yəni mücərrəd işarələrin mənalandırılması prosesi gedir.




Layihə



Bütün bunlar beyinin sol yarımkürəsində, “verbal mərkəz” deyilən hissədə baş verir. Bu çox mürəkkəb prosesdir. Məhz buna görə də kiçikyaşlı uşaqlar üçün kitablarda mətnləri müşayiət edən şəkillər verilir.

Oxuyub-anlama üçün ayrı-ayrı cümləni başa düşmək kifayət deyil, onları əlaqələndirib nəticə çıxarmaq, mətni ümumi məzmun səviyyəsində anlamaq lazım gəlir. Qavrama prosesinin mahiyyəti də məhz bundan ibarətdir.

### II hissə Oxuyanda diqqətimiz niyə yayınır?

Yəqin ki, dəfələrlə belə bir vəziyyətlə qarşılaşmısınız: mətndəki müəyyən cümləni və ya abzası oxuyursunuz, amma sona çatanda həmin hissədə nədən danışıldığını xatırlamırsınız. Səbəbi sadədir: oxu zamanı beyin başqa işlə məşğul olub, oxuyub-anlama üçün vacib olan mənalandırma funksiyasını yerinə yetirməyib. Yəni fikriniz yayınıb.

Diqqətin yayınması oxu zamanı qavramanı zəiflədən əsas səbəblərdən biridir. Ona görə də oxumağa başlamazdan əvvəl mətnə köklənmək, oxunun məqsədini, mövzu ilə bağlı sualları müəyyənləşdirmək lazımdır. Siz bütün başqa fikirləri kənara atmalı, oxumaq üçün özünüzə elə şərait yaratmalısınız ki, ətrafda diqqətinizi yayındıracaq heç bir şey olmasın.

Oxunun məqsədini müəyyənləşdirmək motivasiya yaradır. Məsələn:
“Mən bu mətni dərindən mənimsəməliyəm, çünki...
1) bu mövzu məni çoxdan maraqlandırır;
2) bu mənə həyatda lazım olacaq;
3) müəllim mənə sual verə bilər;
4) özümə sübut etməliyəm ki, oxuyub-qavrama bacarığım yüksəkdir”.

### III hissə İstənilən mətni oxuyub anlaya bilərikmi?

Siz bu mətni 5-6 il əvvəl oxusaydınız, başa düşərdinizmi? Yəqin ki, yox. Hər bir mətn müəyyən intellektual hazırlıq: söz ehtiyatı, dünyagörüşü, idraki bacarıq və s. tələb edir. Elə götürək yuxarıda göy rənglə verilmiş cümləni. Onu başa düşmək üçün əvvəlki fəsildə verilmiş “İnsan beyni” mətnindəki məlumatları mənimsəmək lazımdır.

Sinifdən sinfə keçdikcə sizin müxtəlif fənlər üzrə bilikləriniz artır, təhlil bacarığınız inkişaf edir, intellektiniz dərinləşir. Bütün bunlar daha mürəkkəb mətnləri oxuyub-qavramağa imkan verir.

Zəngin söz ehtiyatına malik olmadan səmərəli oxuya nail olmaq mümkün deyil. Əgər cümlədə bir söz sizə tanış deyilsə, kontekstdən çıxış edərək onun mənasını müəyyənləşdirmək olar. Lakin bu sözlərin sayı iki, üç və daha çoxdursa, siz nə cümlədəki fikri, nə də həmin sözlərin mənasını başa düşəcəksiniz.

Söz ehtiyatını artırmaq üçün çox mütaliə etmək və bu zaman tanış olmayan hər bir

Layihə

sözün mənasını araşdırmaq lazımdır. Mütaliə üçün seçdiyiniz kitab yaş səviyyənizə uyğun olmalıdır, əks halda, həmin kitab əqli inkişafa heç bir fayda verməyəcək və ya onu oxuyub başa düşə bilməyəcəksiniz.

## IV hissə Oxu sürətimizi necə artıraq?

Oxu sürəti insanın bir dəqiqə ərzində oxuduğu mətndəki sözlərin sayı ilə ölçülür. Bu zaman yalnız oxumaq yox, həm də oxuduğunu anlamaq tələb olunur.

Hərfləri yeni öyrənib oxumağa başlayan uşaqlarda oxu sürəti çox aşağı olur, çünki onların beyni hərflə səsi eyniləşdirməklə məşğul olur. Müəyyən vaxt keçdikdən sonra hərflərin tanınması mexaniki prosesə çevrilir. Gözlər artıq sözü bütöv şəkildə görür və vahid işarə kimi beyinə ötürür. Beləliklə, oxu prosesi sürətlənir. İndi təsəvvür edin, cümləni, abzası bir vahid kimi ani olaraq qavraya bilsəniz, oxu sürətiniz nə qədər arta bilər.

Mütəxəssislərin fikrincə, oxu vərdişi formalaşmış insanın orta oxu sürəti dəqiqədə 180–220 sözdür. Lakin elə adamlar da var ki, xüsusi məşqlər hesabına bu sürəti xeyli dərəcədə yüksəldə bilirlər. Sürətli oxu üzrə Ginnesin rekordlar kitabına düşmüş ilk adam amerikalı Evelin Vud olmuşdur. O, bir dəqiqə ərzində 2700 söz oxumuş və oxuduğu mətn üzrə bütün suallara doğru cavab vermişdir. Hazırda dünyanın bir çox yerlərində oxu sürəti üzrə kurslar fəaliyyət göstərir. Bu haqda xeyli kitab yazılmış, müxtəlif metodlar, hətta proqram təminatları işlənib-hazırlanmışdır.


*Evelin Vud (1909–1995)*

Bəzi mütəxəssislərin fikrincə, oxu sürətinin artması oxuyub-anlama səviyyəsini aşağı salmır. Sürətli oxu üzrə bir çox dünya rekordçularının nəticələri bu fikri təsdiq edir.


*Olav Şeve*

Lakin “Super öyrənci” kitabının müəllifi Olav Şevenin fikrincə, sürətli oxu metodlarının heç bir faydası yoxdur. Bu metodlarla oxu sürətinin artırılması oxuyub-anlamanın səmərəliliyini aşağı salır. O.Şeve hesab edir ki, oxu sürəti üzrə fantastik nəticələr göstərmiş rekordsmenlər, sadəcə, **fitri** istedada malik **fenomenlərdir.** Bununla belə, müəllif istisna etmir ki, anlama səviyyəsini aşağı salmadan müəyyən üsullarla oxu sürətini bir qədər artırmaq olar; məsələn, mətni oxuyarkən köməkçi sözlərə fikir verməmək, diqqəti yalnız açar sözlər üzərində cəmləmək və s.

Beləliklə, oxu bacarığının inkişafı insanın həyatı boyu baş verən prosesdir. Təhsildə uğur qazanmaq üçün bunun böyük əhəmiyyəti var.

**Söz boğçası**
- fitri
- fenomen

**C** **Saniyəölçəni dayandırın və 710 sözdən ibarət olan bu mətni oxumağa sərf etdiyiniz vaxtı qeyd edin.**

Layihə

## Nə anladın?

**Ç** **İndi isə növbəti 10 dəqiqə ərzində aşağıdakı 10 sualı cavablandırın. Cavablarınızı vərəqdə qeyd edib sonda müəllimə təhvil verin.**

**1. Mətnə əsasən uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| 1) hərf | a) fikir |
| 2) söz | b) səs |
| 3) cümlə | c) anlayış |

**2. Bəndlərdən biri mətnin məzmununa uyğun deyil:**

Yuxarı siniflərə keçdikcə daha çətin mətnləri oxuyub qavraya bilirik, çünki...

a) söz ehtiyatımız zənginləşir.
b) təhlil qabiliyyətimiz inkişaf edir.
c) daha mürəkkəb dil qaydalarını mənimsəyirik.
d) dünyagörüşümüz genişlənir.

**3. 16-cı səhifənin əvvəlindəki ilk cümlə fərqli rənglə verilib, çünki...**

a) mətndəki əsas fikri ifadə edir.
b) mətnin 3-cü hissəsində bu fikrə istinad var.
c) mətnin sonrakı hissələrində bu fikir təkzib olunur.
d) tapşırıqlarda bu cümləyə istinad var.

**4. Cümləni tamamlayın.**

Verbal mərkəz beyinin ... yarımkürəsində yerləşir.

**5. Mətnə əsasən doğru fikri seçin.**

a) Evelin Vud 2002-ci ildə oxu sürəti üzrə rekorda imza atmışdır.
b) Cümlədə tanış olmayan bir neçə söz olsa belə, biz kontekstdən çıxış edərək onları izah edə bilərik.
c) Olav Şeve öz kitabında oxu sürətini artırma metodlarını tövsiyə edir.
d) Mətn üzərində fikri cəmləməyin ən yaxşı yolu oxuya motivasiya yaratmaqdır.

**6. Oxu bacarığının ilkin mərhələsi nədir?**

a) oxuduğu sözləri şəkillərlə eyniləşdirmək
b) sözləri hecalara bölmək
c) hərfləri tanımaq və onları səslərlə eyniləşdirmək
d) sözlərin düzgün yazılışını bilmək

Layihə

7. **Mətnin hansı hissəsində qoyulmuş sualla bağlı polemik xarakterli abzas var?**
a) 1-ci  b) 2-ci  c) 3-cü  d) 4-cü

8. **Kontekstdən çıxış edərək "fenomen" sözünün mənasını müəyyən edin.**
a) məşhur şəxsiyyət
b) istedadlı insan
c) çalışqan adam
d) nadir şəxsiyyət

9. **Mətnin sonluğuna uyğun gələn cümləni müəyyən edin.**
a) Belə ki, oxuyub-anlama bütün fənlərə aid olan vacib bacarıqdır.
b) Unutmaq olmaz ki, uzanaraq oxumaq görmə qabiliyyətini azalda bilər.
c) Beləliklə, mütaliə edərkən daim oxu sürətimizi nəzarətdə saxlamalıyıq.
d) Təbii ki, oxuyarkən bəzən fasilə verməli, beynimizi çox yükləməməliyik.

10. **Mətndə müəllif bu məsələ ilə bağlı fikir bildirmir:**
a) oxuyub-anlamanın mahiyyəti
b) oxuyub-anlamanın inkişafı üçün vacib olan şərtlər
c) oxuyub-anlama bacarığını qiymətləndirmək üçün üsullar
d) oxuyub-anlama prosesinə maneə yaradan amillər

**d** **İndi isə aşağıdakı düsturlardan istifadə etməklə oxuyub-anlama sürətinizi müəyyən edin.**

**OS** – *oxu sürəti*
**AF** – *anlama faizi*
**OAS** – *oxuyub-anlama sürəti*

**Nümunə**

$$OS = \frac{\text{mətndəki sözlərin sayı}}{\text{oxuya sərf edilmiş vaxt}}$$

$$OS = \frac{710 \text{ söz}}{6{,}5 \text{ dəq.}} \approx 109 \text{ söz/dəq.}$$

$$AF = \frac{\text{düzgün cavabların sayı}}{\text{sualların ümumi sayı}}$$

$$AF = \frac{8 \text{ cavab}}{10 \text{ sual}} = 80\%$$

$$OAS = OS \times AF$$

$$OAS = 109 \times 0{,}8 \approx 87 \text{ söz/dəq.}$$

**e** **Mətndə altından xətt çəkilmiş cümlələrdən çıxış edərək Evelin Vudun oxuyub-anlama sürətini müəyyən edin.**



Layihə

**3 a** **Aforizm nədir? O, atalar sözündən nə ilə fərqlənir?**

**b** **Oxuduğunuz mətnin epiqrafını onun şərhi ilə müqayisə edin.**

**Aforizm:** *Oxucuları iki qrupa ayırıram: xatırlamaq üçün oxuyanlar və unutmaq üçün oxuyanlar. (V.Filips)*

**Şərh:** *Elə oxucular var ki, mətndəki fikirlərin fərqinə varmırlar. Beləlləri oxuduqlarını tez bir zamanda unudurlar. Elələri də var ki, mətni təhlil edir, ona tənqidi yanaşırlar, ona görə də oxuduqlarını uzun müddət yadda saxlayırlar.*

**• Hansı variantda fikrin ifadəsi daha cəlbedici və yaddaqalandır? Sizcə, bunun səbəbi nədir?**

**Diqqət et**

Aforizm və atalar sözlərinin bədii təsir gücü məcazlarla yanaşı, həm də müəyyən **üslubi fiqurlar** – təkrir, antiteza, lakonizm və s. hesabına yaranır. Məsələn:

*Öz iradənin ağası, öz vicdanının köləsi ol. (M.Ebner-Eşenbax)*

Bu aforizmdə "öz" əvəzliyi təkrarlanaraq təkrir yaratmışdır.
"Ağa" və "kölə" sözləri isə məcazi mənada işlənməklə yanaşı, qarşılaşdırılaraq antiteza yaratmışdır.

**Qlossari**

**Antiteza** – anlayışların və fikirlərin qarşılaşdırılması.
**Lakonizm** – fikrin yığcam ifadəsi.

**c** **Atalar sözü və aforizmlərdəki məcazları və üslubi fiqurları müəyyən edin. Kəlamlarda ifadə olunan fikirləri şərh edin.**

**1.** Əyri oturaq, düz danışaq. *(Atalar sözü)*
**2.** Mübarizə aparan məğlub ola bilər, aparmayan isə artıq məğlubdur. *(B.Brext)*
**3.** Yalnız ümidlə yaşamaq olmaz, amma ümidsiz də yaşamaq olmaz. *(Y.Lents)*
**4.** Bir təbəssüm bütün qapıları açmağa qadirdir. *(A.Bek)*
**5.** Öz qədrini bilməyən özgə qədrini heç bilməz. *(Atalar sözü)*
**6.** Həqiqət heç zaman küncə qısılmaz. *(Atalar sözü)*

**ç** **Aşağıdakı mətni oxuyun. Hansı cümlələri aforizm kimi işlətmək olar? Seçiminizi əsaslandırın.**

*Uğur qazanmağın vacib şərtlərindən biri də intizamdır. Bəzən insan "Bunu istəyirəm, amma bunu etməliyəm" dilemması ilə qarşılaşır. İntizamlı adam ötəri istəklərini vacib olanlara qurban verir. Bu mənada, intizam – çox istədiyin məqsədə nail olmaq üçün heç istəmədiyin işlərlə məşğul olmaqdır. Gündəlik rejimə əməl etmək, işləri planlamaq və addım-addım həyata keçirmək, pis vərdişlərdən imtina etmək və s. intizamlı həyatın əsas şərtləridir. İnsanın gündəlik həyatda gördüyü bir çox "əhəmiyyətsiz" işlər böyük məqsədə doğru aparan kiçik addımlardır.*

Layihə

# Hal şəkilçiləri qəbul etmiş sözlərin deyilişi və yazılışı

**4 a Cümlələrdə fərqləndirilmiş sözləri kök və şəkilçiyə ayırın. Nə üçün sözlərdən birinin kökündə ikinci sait ixtisar olunub?**

**1. Beyinin** hər bir hissəsinin öz funksiyası var.
**2.** İnsan **beyninin** 1 qramı bədənin 50 qramına "cavabdehdir".

**b Cümlədəki orfoqrafik səhvi müəyyən edin və fikrinizi əsaslandırın.**

*Oxuduqlarımızı dərindən qavrıya bilirikmi?*

**Yadda saxla** Yönlük və çıxışlıq halında sözlərin deyilişi və yazılışı

***A*** və ***ə*** saiti ilə bitən çoxhecalı sözlər yönlük halda işlənərkən onların tələffüzü ilə yazılışı fərqlənir: bu açıq saitlər qapalı sait kimi tələffüz olunur. Məsələn: *balt**a**ya [baltıya], dəv**ə**yə [dəviyə], yumurt**a**ya [yumurtuya], kölg**ə**yə [kölgüyə]*

Bu sözlərin düzgün yazılışını müəyyənləşdirmək üçün onları adlıq halda işlətmək lazımdır: *balt**a** [balta], dəv**ə** [dəvə], yumurt**a** [yumurta], kölg**ə** [kölgə]*

***M*** və ***n*** samitləri ilə bitən sözlərə artırılan *-dan*$^2$ çıxışlıq hal şəkilçisi *[-nan*$^2$*]* kimi tələffüz olunur: *vaqon**dan** [vaqon**nan**], qələm**dən** [qələm**nən**]*

**c Hansı cümlədə fərqləndirilmiş söz səhv yazılıb?**

**1.** Biz **körpüyə** yaxınlaşanda qarşıda polis göründü.
**2.** Ana beşiyi yelləyərək **körpüyə** layla deyirdi.

**ç Hansı atalar sözündə orfoqrafik səhvə yol verilib?**

**a.** Gəmiyə minib gəmiçi ilə dalaşma.
**b.** Doğruya zaval yoxdur, çəksələr min divana.
**c.** Oğlan dayıya çəkər, qız – xalıya.
**d.** Sürüyə qurd gələndə köpəyi yuxu tutar.

**d Transkripsiyada verilmiş sözlərin morfoloji tərkibini müəyyən edin.**

**1.** O sənin [sözünnən] çıxmaz.
**2.** Qocadan demək, [cavannan] kömək.
**3.** Dünən [qardaşımnan] teatra getmişdim.
**4.** Müəllim Vüqarın [cavabınnan] razı qaldı.

**a.** söz kökü + çıxışlıq hal şəkilçisi
**b.** söz kökü + mənsubiyyət şəkilçisi + bitişdirici samit + çıxışlıq hal şəkilçisi
**c.** söz kökü + mənsubiyyət şəkilçisi + çıxışlıq hal şəkilçisi
**ç.** söz kökü + mənsubiyyət şəkilçisi + "ilə" qoşmasının ixtisarı

Layihə

**1 a Uşaqlara göy qurşağının rənglərini öyrətmək üçün, adətən, aşağıdakı cümləni əzbərlətdirirlər:**

***Qarı nənə səksən yaşında,*** **(qırmızı, narıncı, sarı, yaşıl)**
***Muncuq gəzdirir başında.*** **(mavi, göy, bənövşəyi)**
**Sizcə, nə üçün bu cümlə rəng adlarını və onların ardıcıllığını daha yaxşı yadda saxlamağa kömək edir?**

## YADDAŞ TEXNİKALARI




Yaddaş texnikaları informasiyanın yadda saxlanmasını asanlaşdıran və yaddaş həcmini artıran üsullardır. Bir çox üsulların əsasında obraz və obyektlər arasında xəyali və ya vizual əlaqənin yaradılması durur. Məsələn, məktəbə hazırlaşan uşağa hər hansı hərfi öyrədərkən adı həmin hərflə başlayan varlığın şəklindən istifadə olunur. Beləliklə, abstrakt işarə ilə (hərflə) konkret varlıq arasında əlaqə yaradılır və uşaq həmin hərfin ifadə etdiyi səsi daha yaxşı yadında saxlayır.

Başqa bir üsul isə qafiyəli söz və misralardan istifadədir. Hər hansı informasiyanı qafiyəli misralar şəklində ifadə etdikdə uzun müddət yaddan çıxmır. Məsələn, ABŞ-də müəllimlər şagirdlərə Amerikanın kəşfi haqqında danışarkən bu misraları səsləndirirlər:

*Kolumb min dörd yüz doxsan ikidə*
*Açdı yelkənini mavi dənizdə.*

Bir çox geniş yayılmış yaddaş texnikaları olsa da, hərə informasiyanı yadda saxlamaq üçün özünəməxsus üsuldan istifadə edir. Əsas məsələ yeni informasiya ilə əvvəl bildiyin arasında assosiativ əlaqə qurmaqdır. Məsələn, mobil telefon və ya kompüterdə giriş kodunu təyin edərkən onu yadda saxlamaq üçün kimi anadan olduğu tarixi, kimi öz adının tərs oxunuşunu qeyd edir.



*Deyilənə görə, Albert Eynşteynin iştirak etdiyi məclisdə gənc bir alim ona yaxınlaşaraq yaxından tanış olmaq istədiyini bildirir və telefonunu deyir:*

*– 36361144. Yaddaqalan nömrədir, elə deyimi? İki dənə 36, iki dənə 1, iki dənə 4.*

*– Bəli, yaddaqalandır, – deyə dünya şöhrətli alim cavab verir. – 6-nın kvadratı, 19-un kvadratı, 12-nin kvadratı.*

Hər il müxtəlif ölkələrdə yaddaş üzrə dünya çempionatları keçirilir. Yaddaş texnikalarına dərindən yiyələnmiş beyin atletləri bu sahədə inanılmaz nəticələr göstərirlər.

**b Haşiyədə verilmiş məlumat mətndəki hansı fikri təsdiq edir?**
**Gənc alimin və Albert Eynşteynin tətbiq etdikləri yaddaş texnikaları arasındakı fərqi izah edin.**

Layihə

**c** **Aşağıda “0” və “1” rəqəmləri qarışıq şəkildə 20 dəfə təkrar olunmuşdur. Bir dəqiqə ərzində bu rəqəmlərin ardıcıllığını yadda saxlayıb səsləndirməyə çalışın.**

10011101100001001110

- **Neçə rəqəm ardıcıllığını yadda saxlaya bildiniz?**
- **İndi isə həmin rəqəmlərin ardıcıllığını aşağıdakı şəkildə yadda saxlayın.**

1001 1101 1000 0100 1110

- **Hansı fərqi hiss etdiniz? Bu yaddaş texnikasını izah edin.**

Tanış olun,
yaddaş üzrə dünya çempionu
**Orxan İbadov**

Orxan İbadov 2023-cü ildə Hindistanda keçirilən dünya yaddaş çempionatında bir saat ərzində ***3412*** rəqəmin ardıcıllığını yadda saxlayaraq yeni dünya rekorduna imza atmışdır.

Gəlin həmyerlimizi yaxından tanıyaq.



## Dinləmə 11

**ç** **Qeyd götürməklə Orxan İbadovun avtobioqrafiyasını dinləyin və sualları cavablandırın.**

**d** **Morfemlərin etimologiyasından çıxış edərək “avtobioqrafiya” sözünü izah edin.**

**avto:** yun. *auto* – özüm
**bio:** yun. *bios* – həyat
**qrafiya:** yun. *grapho* – yazıram

- **Bu morfemlərin iştirak etdiyi sözlər deyin.**

**e** **Sizcə, Orxan İbadovun qalib gəldiyi “Üzlər və adlar” kateqoriyası üzrə yarışma necə keçirilir?**

**ə** **Mətndən çıxış edərək Orxan İbadovun xarakteri haqqında fikir yürüdün və münasibət bildirin.**

**f** **Təsəvvür edin ki, məktəbinizdə Orxan İbadovla görüş təşkil olunub. Siz ona hansı sualları verərdiniz?**

- **İnternet vasitəsilə yaddaş çempionumuz haqqında araşdırma aparın.**
- **Cütlərlə işləyərək suallar tərtib edin.**
- **Ən yaxşı 5 sualı müəyyənləşdirin.**

Layihə

**2 a** **Müsahibə mətninə nəzər salın. Sualları oxuyun və onları keçən dərsdə hazırladığınız suallarla müqayisə edin.**

**b** **Orxan İbadovun sonuncu suala cavabını oxuyun. Onun tövsiyələrinə əməl etməklə mətni oxuyun.**

## YADDAŞ PROBLEM DEYİL
### (Orxan İbadovla müsahibə)

**Sual: Orxan müəllim, 5 yaşında məktəbə getmisiniz, 15 yaşında universitetə daxil olmusunuz. Sonradan yaddaş üzrə dünya çempionatlarında yüksək nəticələr göstərmisiniz. Bütün bunlar anadangəlmə qabiliyyətin nəticəsidir, yoxsa xüsusi texnika və məşqlərin?**



– 5 yaşında məktəbə getməyimin səbəbi 7 yaşlı bacımla birlikdə dərslərə qatılmaq istəyim idi. Müəllimlər valideynlərimə dedilər ki, mən digər uşaqlardan geri qalmıram və məktəbdə oxumağa hazıram. Beləliklə, mən erkən yaşda məktəb təhsilinə başladım.

Yaddaşa gəlincə, bu, anadangəlmə qabiliyyət deyil. Yaddaş xüsusi texnika və məşqlərlə inkişaf etdirilir. Mən müxtəlif ölkələrdə onlarla yarışa qatılmışam və yüzlərlə beyin atletləri ilə tanış olmuşam. Heç vaxt qeyri-adi doğal yaddaşı ilə fərqlənən insana rast gəlməmişəm. Yeri gəlmişkən, yaddaş üzrə ilk dünya çempionu Dominik O'Brayenin məktəbdə oxuyarkən disleksiyası var idi. 16 yaşında ikən o, müəllimlərin təkidi ilə təhsilini dayandırmalı olmuşdu. Bir sözlə, güclü yaddaş anadangəlmə deyil, qazanılan bacarıqdır və hər kəs məşqlər hesabına ona nail ola bilər.

> **Qlossari**
> **Disleksiya** – müəyyən səbəblərdən insanın oxu və yazı bacarıqlarından qismən və ya tamamilə məhrum olması.

**Sual: Siz bir saat ərzində minlərlə rəqəmin ardıcıllığını yadda saxlaya bilirsiniz. Bəs uşaq vaxtı əzbərlədiyiniz hər hansı şeiri və ya tarix üzrə rəqəm və adları indi xatırlayırsınızmı?**

– Uşaq vaxtı öyrəndiyim məlumatların çoxunu indi xatırlamıram, çünki onları yanlış üsullarla öyrənmişdim. Beynimiz düzgün üsullarla öyrəndiyimiz məlumatları daha yaxşı yadda saxlayır. Əgər məlumatı maraqlı və mənalı şəkildə öyrənib onu müəyyən aralıqlarla təkrarlasaq, yaddaş problemdən zövqə çevrilər. Beləliklə, hər bir şagird düzgün metodlarla uzunmüddətli yaddaşa sahib ola bilər.

**Sual: "Düzgün metod" dedikdə nəyi nəzərdə tutursunuz?**

– Baxın, beynimiz gün ərzində çoxlu informasiya qəbul edir. Biz bu informasiya axınında tam və natamam məlumatları fərqləndirməliyik. "Kolumb Amerikanı kəşf edib" – tam məlumatdır; onu yadda saxlamaq beyin üçün problem yaratmır. Amma "Mən də Amerikaya səyahət etmək istəyirəm" – yarımçıq, yəni reallaşmamış məlumatdır. Bu cür

Lay-ihə

natamam məlumatlar ("Axşam evə çay almalıyam", "Şənbə günü Zərinənin ad gününə getməliyəm" və s.) tam reallaşmayınca beyində yer tutur, insanı narahat edir və öyrənmək istədiyimiz məzmunu tam mənimsəməyə və yadda saxlamağa mane olur.



Bunun qarşısını almaq üçün həmin məlumatları beynimizdən kənarda, etibarlı bir yerdə saxlamaq lazımdır. Məsələn, ev tapşırıqlarını və planlarınızı bir dəftərə yaza bilərsiniz. Mən buna "ikinci beyin" sistemi deyirəm. Belə etdikdə beynimizin daha az yükləndiyini və daha yaxşı işlədiyini görərik. Bir sözlə, yaddaşı möhkəmləndirməyə doğru ilk addım "ikinci beyin" yaratmaqdır.

**Sual: Çıxışlarınızda dinləyiciləri həyatda ən yüksək hədəflər qurmağa dəvət edirsiniz. Sizcə, belə bir həyat kredosu kifayət qədər potensialı olmayan insanlarda xəyal qırıqlığı yaratmazmı?**

– Hamının potensialı eynidir, yetər ki, insan öz potensialını aşkar etməyi, yəni özünü tanımağı bacarsın. Mən hesab edirəm ki, asan hədəflərə çatmaq daha çətindir, çünki bu yolda rəqabət böyükdür. Asan hədəf insanı tez ruhdan salır, arxasınca getməyə heç həvəs də olmur. Böyük hədəflər isə tam əksinə. Böyük hədəflərə çatmamaq da gözəldir. Brüs Li demişkən, böyük məqsədlər uğrunda uduzmaq belə şərəfdir.

Böyük hədəfə çatmayanda yenə də asan hədəfdən yuxarıda dayanmış olursan. Bu proses insana çox şeyi öyrədir. Bununla bağlı Mikelancelonun bir fikri çox xoşuma gəlir: "Əksəriyyətimiz üçün ən böyük təhlükə o deyil ki, böyük hədəflər qururuq və ona çatmırıq. Ən böyük təhlükə odur ki, kiçik hədəflər qururuq və ona çatırıq".

**Sual: İnsanın fiziki sağlamlığı ilə yaddaşı arasında bir əlaqə varmı? Həkimlər yaddaşı gücləndirmək üçün xüsusi qidalar (məsələn, balıq yağı) və vitaminlər tövsiyə edirlər. Sizcə, bunların yaddaşa xeyri varmı?**

– Bəli, fiziki sağlamlıq və yaddaş arasında güclü əlaqə var. Yaddaşın güclü olması üçün düzgün qidalanma, fiziki aktivlik, sosial əlaqələr və yaddaş texnikalarından istifadə vacibdir.

Balıq yağı və vitaminlər düzgün mənbələrdən əldə edildikdə faydalı ola bilər. Amma mən təbii qidalara üstünlük verməyi tövsiyə edirəm: təbii yağlar (nehrə yağı və s.), süd məhsulları, balıq əti, giləmeyvələr, tərəvəzlər və s. Eyni zamanda, şəkər, fastfud yeməkləri, xəmir məhsullarından uzaq durmağı məsləhət görərdim.

Beyinin səmərəli işləməsi üçün yuxunun da böyük əhəmiyyəti var. Gecə yuxusu orta hesabla 7.5-8 saat olmalıdır. Əsas olan isə yuxunun keyfiyyətidir. Rahat yatmaq üçün yuxudan bilavasitə əvvəl və sonra zehni fəaliyyətdən çox fiziki aktivliyə üstünlük verin.

Layihə

**<u>Sual</u>: Nəhayət, sonuncu sual: necə oxuyaq ki, öyrəndiklərimizi uzun müddət yaddaşımızda saxlaya bilək?**

– Bunun üçün, ilk növbədə, effektiv oxu strategiyalarından istifadə etməliyik. Bu baxımdan oxu prosesini üç mərhələyə bölmək olar. Hər bir mərhələdə tətbiq olunan texnikaların informasiyanı yadda saxlamağa təsiri var.

OXUDAN ƏVVƏL:

1. Mətni sürətlə <u>gözdən keçirin</u>. Başlıqlara, vizual materiallara nəzər salın. Mətnin mövzusu və məzmunu ilə bağlı beyninizdə aydın təsəvvür yaratmağa çalışın.

2. <u>Oxunun məqsədini</u> müəyyən edin. Aydın məqsəd diqqəti vacib məlumatlara yönəldir, öyrənmə prosesini daha maraqlı və cəlbedici edir. Məqsədsiz oxumaq isə diqqəti yayındırır və təsirsiz olur.

3. Mövzu ilə bağlı <u>suallar yaradın</u>. Bildiklərinizi xatırlayın, bilmədiklərinizi beyninizdə sual şəklində ifadə edin. Bu sualları vərəqdə qeyd edə bilərsiniz.

OXU ZAMANI:

4. <u>İstiqamətləndirilmiş oxu</u> texnikasından istifadə edin. Oxudan əvvəl qeyd etdiyiniz suallara cavab tapmağa çalışın. Bu, beyninizi aktiv saxlayar və məlumatın daha asan mənimsənilməsinə kömək edər.

5. <u>Qeydlər aparın</u>. Oxu zamanı vacib məqamları ayrıca vərəqdə qeyd edin. Oxu sürətini azaltmamaq üçün qeydlərinizdə yalnız açar sözlərdən və ixtisarlardan istifadə edin.

6. Müntəzəm olaraq <u>fasilələr verin</u>. Böyük mətnləri oxuyarkən diqqətinizin yayındığını hiss edirsinizsə, 5–10 dəqiqəlik fasilələr edin. Bu vaxt ərzində gəzinti və ya sadə fiziki hərəkətlər edin.

OXUDAN SONRA:

7. <u>Oxuduqlarınızı öyrətməyə çalışın</u>. Əldə etdiyiniz bilgiləri başqa birisinə öyrətdiyinizi təsəvvür edin. Bu üsul bilikləri möhkəmləndirir və zəif cəhətləri üzə çıxarır. Hətta tək olsanız belə, bunu xəyalınızda edə bilərsiniz.

8. <u>Qeydlərinizi vizuallaşdırın</u>. Oxu zamanı götürdüyünüz qeydləri sistemləşdirin və verbal-qrafik formaya salmağa çalışın. Bu, sadə cədvəllər, diaqramlar, yaddaş xəritələri ola bilər. Vizuallaşdırma informasiyanın əyaniliyini artırır, məlumatı yadda saxlamağı asanlaşdırır. Beləliklə, “ikinci beyin” qurmuş olarsınız. Bir müddət sonra (məsələn, imtahan ərəfəsində) mövzunu xatırlamaq lazım gələrsə, bu qeydlərə baxmaq kifayət edər.

## Düşün və cavab ver

**c** **Hansı suallar müsahibə alanın mövzuya və Orxan İbadovun həyat və fəaliyyətinə bələd olduğunu göstərir?**

**ç** **Müsahibəni oxuduqdan sonra həyat tərzinizdə hansı dəyişiklikləri etməyi düşünürsünüz?**

Layihə

**d** **Orxan İbadovun "ikinci beyin" haqqında fikirlərini öz sözlərinizlə şərh edin. Tam və natamam informasiyaya misallar gətirin.**

**e** **Aşağıdakı aforizm Orxan İbadovun hansı fikrini təsdiq edir?**

*İnsanlar mənim nə qədər işlədiyimi görsəydilər, istedadıma həsəd aparmazdılar.*
*(Mikelancelo)*

**ə** **Mətni oxumağa başlayanda hansı məqsədi müəyyənləşdirdiniz? Bu, mətn üzərində diqqətinizi cəmləməyə kömək etdimi? Cavabınızı nümunələrlə şərh edin.**

**f** **Cütlərlə iş. Mətni oxuyarkən aldığınız qeydləri müqayisə edin. Birlikdə işləyərək onları verbal-qrafik formaya salın.**

## Danışma

**3 a** **Aşağıdakı mövzular üzrə müzakirə keçirin.**

**1.** İnternet vasitəsilə məşhur vunderkindlər haqqında araşdırma aparın. Orxan İbadovun "Hamının potensialı eynidir" fikrinə münasibət bildirin.

**2.** Şagirdlər, adətən, imtahan ərəfəsində çox həyəcanlanırlar. Bu isə onlara biliklərini xatırlamağa və tam şəkildə nümayiş etdirməyə mane olur. Belə hallarda "ikinci beyin" sistemindən istifadə etmək fayda verə bilərmi?

**Qlossari**

**Vunderkind** – qeyri-adi qabiliyyəti, fövqəladə istedadı olan uşaq.

**b** **Müsahibə. Oxu strategiyaları üzrə Orxan İbadovun 7-ci tövsiyəsinə əməl etmək üçün cütlərə bölünün və müsahibəni auditoriyaya təqdim edin.**

**Təlimat**

- Təsəvvür edin ki, siz bu mətndən əldə etdiyiniz məlumatları başqa bir auditoriyaya çatdırmaq istəyirsiniz.
- Fikirləri öz sözlərinizlə ifadə edin, lakin onların mahiyyətini təhrif etməyin.
- Həm müsahibə alan, həm də müsahibə verən dialoq zamanı improvizasiyalar edə bilər. Məsələn, fikirləri əsaslandıran aforizmlərə və ya şəxsi həyat nümunələrinə istinad etmək olar.
- Müsahibə zamanı yalnız oxuduğunuz mətndən deyil, həm də Orxan İbadov haqqında dinlədiyiniz və araşdırdığınız məlumatlardan da istifadə edə bilərsiniz.



**Qlossari**

**İmprovizasiya** – çıxış zamanı əvvəlcədən nəzərdə tutulmayan gedişlər, mətndə gözlənilməz dəyişikliklər.

layihə

# Yer zərfinin semantik xüsusiyyətləri və orfoqrafiyası

**4 a Cümlələrdə *haraya? harada? haradan?* suallarına cavab verən sözləri seçin. Onların zərf, yoxsa isim olduğunu əsaslandırın.**

**1.** Burda mənəm, Bağdadda kor xəlifə.
**2.** İki gün sonra nümayəndə heyəti növbəti rayona yola düşdü.
**3.** Yeni texnologiyalardan istifadə edə bilməsək, irəli gedə bilmərik.
**4.** Biz təyyarə ilə Tbilisiyə, oradan isə maşınla Trabzona getdik.

**Yadda saxla** Yer zərflərinin məkan bildirən isimlərdən fərqləndirilməsi

Konkret bir məkanı bildirən isimlərdən fərqli olaraq, yer zərflərinin mənasında nisbilik var. Məsələn, "yamac" sözü isimdir və dağın zirvəsi ilə ətəyi arasında olan sahəni bildirir. Lakin dağın zirvəsində duran adam yamaca "aşağı", ətəkdə duran isə "yuxarı" deyir.

**b Hansı cümlələrdə yer zərfi *haraya?* sualına cavab versə də, yönlük hal şəkilçisi qəbul etməyib?**

**1.** Çamadanları yuxarıya – çardağa qaldır.
**2.** Bir həftədən sonra çaparlar geri döndülər.
**3.** Həyətdə səs-küy eşidib eyvandan aşağı boylandım.
**4.** Otağın işığı azaldı və içəri alaqaranlıq oldu.

**Yadda saxla** Yer zərflərinin yazılışı

Bəzi yer zərfləri (*aşağı, geri, ora, bura, bəri* və s.) hərəkətin yönünü, istiqamətini bildirir. Bu sözlər, adətən, yönlük hal şəkilçisiz işlənir: *irəli* (haraya?) *atılmaq, içəri* (haraya?) *keçmək, yuxarı* (haraya?) *qalxmaq* və s.
Lakin bəzi hallarda bu zərflər yönlük hal şəkilçisi qəbul edə bilər:
• *O, pəncərədən boylanıb <u>içəriyə</u> nəzər saldı.*
*Ora, bura* zərfləri yerlik və çıxışlıq halda işlənərkən söz kökündəki son sait düşə bilər:
• *<u>Ordan</u> quşların səsi gəlir.*
• *<u>Burada</u> əvvəllər kitabxana olub.*

**c Uyğunluğu müəyyənləşdirin.**

**1.** Səsdüşümü baş verib.
**2.** Sifətin sualına cavab verir.
**3.** Yönlük halın sualına cavab verir.

**a.** Qadın qapını açıb uşağı içəri buraxdı.
**b.** O, cibində qurdalanıb ordan əl boyda göy bir kitabça çıxartdı. *(İ.Şıxlı)*
**c.** Aşağı məhəlləyə su çəkdilər.

Layihə

# Ümumiləşdirici təkrar

**1** **Cümlələrdə "a" morfeminin işləndiyi sözləri seçin. Bu morfemin semantik funksiyasını müəyyənləşdirin.**

1. Cəmiyyətdə belə bir davranış anormal hesab olunur.
2. Konstruksiyasında müəyyən asimmetriya olsa da, bina möhtəşəm görünürdü.

**• Hansı sözdə fərqləndirilmiş morfemin "a" morfemi ilə qrammatik sinonimliyi yoxdur?**

a. ***qeyri***-adi  b. ***na***layiq  c. ***anti***faşist  d. dəyər***siz***

**2** **Sözlərin izahından çıxış edərək alınma morfemlərin sinonimliyini əsaslandırın.**

• xəstəxana – müalicə olunmaq üçün xəstələrin yatdığı ev; klinika.
• kartoteka – müxtəlif məlumatların qeyd olunduğu kiçik vərəqlərin saxlandığı yer.
• ataşgah – həmişə od yanan yer.

**3** **Sözlərdə "metr" morfeminin semantik funksiyasını müəyyən edin.**

1. kilometr
2. ampermetr
3. metrologiya

a. "Ölçü cihazı" mənasını əmələ gətirən morfem
b. Ölçü vahidləri haqqında elm sahəsini bildirən sözün əsas komponenti
c. Uzunluq ölçü vahidi bildirən bir çox sözlərin əsas komponenti

**4** **Cümlələrdə səhv yazılmış sözləri seçib qaydalara əsasən izah edin.**

1. Qapıdan çıxanda bir oğlannan rastlaşdı.
2. Mənim bu adamnan heç gözüm su içmir.
3. Ağa ağ deyiblər, qarıya qara.
4. Çayın kənarı ilə xeyli gedib bir dəriyə endi.

**5** **"Yuxarı" sözünün qrammatik xüsusiyyətlərinə görə uyğunluğu müəyyən edin.**

1. Mürəkkəb zərfin komponentidir.
2. Frazeoloji birləşmənin tərkib hissəsidir.
3. Sifətin sualına cavab verir.

a. Altdan-yuxarı qardaşının üzünə baxdı.
b. Vəzifəyə keçəndən bəri adamlara yuxarıdan aşağı baxırdı.
c. Yuxarı siniflər başqalarına nümunə olmalıdırlar.

Layihə

bölmə 6

# Niyə belə deyirik?

1-ci fəsil

**1 a** **“Molla Nəsrəddin” jurnalı haqqında verilmiş fikirləri müqayisə edin. Sizcə, hansı fikir daha təsirli, canlı, obrazlı ifadə edilmişdir?**

**1.** “Molla Nəsrəddin” jurnalı dövrünün nöqsanlarını kəskin tənqid edən satirik jurnal idi.

**2.** “Molla Nəsrəddin” jurnalı zülmət səltənətinin məzar sükutuna Homer gülüşü ilə qəhqəhə çəkirdi”.
*(Səməd ağa Ağamalıoğlu)*



**b** Qruplarla iş. **İfadələrin mənası, yaranma tarixi haqqında məlumatlarla tanış olun və S.Ağamalıoğlunun “Molla Nəsrəddin” jurnalı haqqında fikrini şərh edin.**

**“Zülmət səltənəti”** rus tənqidçisi Nikolay Dobrolyubovun məqaləsindən götürülmüş obrazlı ifadədir. Tənqidçi **cəhalətin** hökm sürdüyü mühit haqqında “zülmət səltənəti”, bu cəmiyyətdəki **mütərəqqi** insanlar və hadisələr haqqında isə “zülmət səltənətində işıq” ifadəsini işlətmişdir. İfadə çağdaş publisistikamızda tez-tez işlədilir.

**“Məzar sükutu”** ifadəsi həddindən artıq səssizliyin hökm sürdüyü, cınqırtı çıxmayan, hənirti gəlməyən yerə və, ümumiyyətlə, susqunluğa işarə edən obrazlı ifadədir. Bu ifadəyə ilk dəfə alman dramaturqu Fridrix Şillerin “Don Karlos” əsərində rast gəlinir. Müəllif epizodlardan birində yaranan qəribə və dərin səssizliyi “məzar sükutu” ifadəsi ilə səciyyələndirmişdir.
Sonralar bu ifadə dünyanın bir sıra dillərinə yayılmışdır. Azərbaycan yazıçılarının əsərlərində və publisistik yazılarda da bu ifadəyə rast gəlinir.

**Qlossari**

**Publisistika** – müasir ictimai-siyasi prosesləri və aktual problemləri əks etdirən yaradıcılıq növü.

**Söz boğçası**

• cəhalət • mütərəqqi • şaqraq

**“Homer gülüşü”** qəhqəhəli gülüş mənasında işlədilir. Miladdan öncə VIII əsrdə yaşamış qədim yunan şairi Homerin əsərlərində təsvir olunmuş gülüşlə bağlıdır.
Homer öz poemalarında Olimp dağında yaşayan ilahların həyatını təsvir edir. İlahlar ölməzdirlər və insanlardan qat-qat qüdrətlidirlər, lakin onlar da insanlar kimi gülür, ağlayır, hirslənir, təəccüblənirlər. Onların ilahi qəhqəhəsindən yer titrəyir, hətta zəlzələ baş verir. Homer öz poemalarında bu gülüşü elə canlı, parlaq təsvir etmişdir ki, indiyəcən güclü **şaqraq** gülüşü “Homer gülüşü” və ya “homerik qəhqəhə” adlandırırlar.

**c** **“Sardonik gülüş” ifadəsinin yaranma tarixi ilə tanış olun və işlənmə yerinə görə “Homer gülüşü” ifadəsi ilə müqayisə edin.**

**“Sardonik gülüş”** ifadəsinə ilk dəfə Homerin “Odisseya” poemasında rast gəlinir. Yunan qəhrəmanı Odisseyin gəmisi Sardiniya adasına yan alır. Gəmidəkilər ac olduqları üçün adada bitən “Sardoniya herba” adlı zəhərli otdan yeyirlər. Zəhərin təsirindən onların üz əzələləri iflic olur, ağızları gülümsəyirmiş kimi yana əyilir, özləri isə gülüşə bənzər səs çıxarırlar. O vaxtdan acı, istehzalı gülüş, həmçinin nifrət və rişxəndlə dolu üz ifadələri “sardonik” adlandırılır.

**İzahı verilmiş sözlərdən hansı mənaca “sardonik gülüş” ifadəsinə daha yaxındır?**

***Satira*** – cəmiyyətdəki eybəcərlikləri kəskin şəkildə ifşa edən bədii gülüş.
***Yumor*** – nöqsanlara qarşı təəssüf hissi ifadə edən yumşaq gülüş.
***Sarkazm*** – kinayənin daha sərt forması, öldürücü gülüş.

**Diqqət et**

Bəzən nitqdə tarixin yaddaşında qalmış məşhur ifadələrdən, şəxs adlarından istifadə edilir. Bu, fikrin təsir gücünü artıran üslubi fiqurlardan biridir.

**ç** **“Bermud üçbucağı” ifadəsinin etimoloji izahı:**

Bermud üçbucağı Atlantik okeanında, Şimali və Cənubi Amerikanın sərhədinə yaxın ərazidə yerləşən üçbucaq formalı bir sahədir. Belə deyirlər ki, guya bu ərazidən keçən gəmilər, təyyarələr heç bir iz qoymadan sirli şəkildə yoxa çıxır. Hətta rəqəmlər göstərir ki, son bir əsrdə məhz bu ərazidə 100-dən çox gəmi və təyyarə qeybə çəkilmişdir. Ona görə də planetimizin müəmmalarla dolu olan bu hissəsini “Atlantik qəbiristanlığı”, “şeytan üçbucağı” da adlandırırlar. Bir yerin gedər-gəlməz olduğunu, orada müəmmalı hadisələrin baş verdiyini bildirmək üçün nitqdə bu ifadədən geniş istifadə olunur.




**d** **Qruplarla iş. Cümlələrdə fərqləndirilmiş ifadələr haqqında araşdırma aparın. Onların etimologiyasının cümlədəki mənası ilə əlaqəsini şərh edin.**

**1.** Bakı–Tbilisi–Qars dəmir yolu Asiya üçün ***“Avropaya pəncərə”*****dir.**
**2.** Vallah, mən ***Tarixi-Nadiri yarısına kimi oxumuşam***, amma burada yazılanlardan heç nə başa düşmədim.
**3.** Ata uşaqların otağına girib dedi: ***“Kim yatmış, kim oyaq?”***
**4.** Ramiz kişi ev yiyəsini evdə görməyib bığaltı gülümsədi: “Lap ***Qurbanəli bəyin qonaqlığına*** döndü ki!”

Leyla

**2a** **Sizcə, atalar sözləri və məsəllərdən nitqimizdə hansı məqsədlə istifadə olunur?**

# Deyimlər

Bəzən müəyyən fikirləri qabartmaq, daha təsirli və emosional şəkildə oxucunun diqqətinə çatdırmaq üçün nitqdə müxtəlif deyimlərdən istifadə olunur. Bunların sırasında atalar sözləri, məsəllər, "qanadlı misralar" xüsusi rol oynayır.

Atalar sözləri xalqın həyat təcrübəsini, mənəvi dəyərlərini və hikmət dolu düşüncələrini əks etdirən kəlamlardır. Hər bir xalqın atalar sözləri onun milli-mənəvi dəyərləri, həyat tərzi və tarixi keçmişi ilə bağlı olur. Onlar insanları dürüstlüyə, vətənpərvərliyə, xeyirxahlığa səsləyir. Nitqdə atalar sözlərindən fikri əsaslandırmaq üçün arqument kimi də istifadə olunur, çünki onlar hamı tərəfindən inkaredilməz həqiqət kimi qəbul olunur.



Bəzi atalar sözlərində fikir **müstəqim,** yəni həqiqi mənada ifadə edilir. Məsələn, "El igidləri ilə tanınar" atalar sözündə məcaz yoxdur. Burada "Vətənin adını ucaldanlar onun qəhrəman övladlarıdır" fikri daha lakonik ifadə olunub. "Dəmiri isti-isti döyərlər" atalar sözündəki fikir isə həm müstəqim, həm də məcazi mənada işlədilə bilər. Həqiqətən, dəmirçi yalnız qızmış dəmiri döyüb istədiyi formaya sala bilər, soyumuş dəmiri döyməyin mənası yoxdur. Lakin bu atalar sözü, adətən, məcazi mənada işlədilir və bu zaman hər işi vaxtında görməyin, problemi yaranan kimi həll etməyin zəruriliyi vurğulanır.

Atalar sözlərindən fərqli olaraq, məsəllər müəyyən əhvalat, rəvayət, lətifə, xalqın tarixi, inancları ilə bağlı olur və situasiyaya uyğun işlədilərək nitqin təsir gücünü artırır.

**Söz boğçası**
- müstəqim
- təbir
- məzəmmət etmək

Bir çox məsəllər dildə geniş yayılaraq frazeoloji ifadə kimi işlədilir. Məsələn, "alnına yazılmaq" ifadəsi keçmişdə bəzi xalqlarda mövcud olmuş adətdən qaynaqlanır. Qədimdə oğurluq etmək, adam öldürmək kimi cinayətlərə görə insanlar amansızcasına cəzalandırılırdılar. Belə cinayətkarların alnına xüsusi damğa vururdular. Damğa həmin şəxsin oğru, yaxud cani olduğunu bildirirdi. Bu qəddar qanun bir çox ölkələrdə XIX əsrə qədər qüvvədə qalmışdır. İndi bəzən pis adamla ünsiyyət qurmuş insanı **məzəmmət etdikdə** o deyir: "Hardan biləydim, alnına yazılmayıb ki?!"

Məsəllərin yaranmasında xalq yaradıcılığının özünəməxsus yeri var. Bir çox lətifə və rəvayətlərdə əsas fikir son cümlədə açılır və bu cümlələr bəzən xalq arasında geniş yayılaraq məsələ çevrilir.

Layihə

Xalqımızın çoxəsrlik zəngin poeziyasında elə misralar var ki, yaddaşlarda həkk olunub və uyğun nitq situasiyalarında işlənərək fikrin təsir gücünü artırır. Xüsusilə mühakimə xarakterli mətnlərdə, esselərdə müəlliflər öz fikrini əsaslandırmaq üçün bu misralara tez-tez müraciət edirlər. Bu isə mətni daha emosional və inandırıcı edir. Belə misralar çox zaman "qanadlı misralar" adlanır. Məsələn, insan kamilliyi haqqında fikir yürüdən müəllif bildirmək istəyir ki, kamilliyin sonu yoxdur, ona görə də insan heç vaxt öz nailiyyətləri ilə öyünməməli, daha yüksək zirvələrə can atmalıdır. Bunun üçün müəllif görkəmli şair Bəxtiyar Vahabzadənin aşağıdakı misralarına müraciət edir:

*Bircə ondan razıyam ki,*
*Özümdən narazıyam.*

Qanadlı misralar dildən-dilə düşür, bəzən atalar sözü qədər ümumişlək ifadəyə çevrilir. Məsələn, "El bir olsa, dağ oynadar yerindən" ifadəsini bir çoxları atalar sözü kimi qəbul edir. Lakin Tufarqanlı Aşıq Abbasın yaradıcılığı ilə tanış olanlar bu misranın ona aid olduğunu yaxşı bilirlər:

*Abbas bu sözləri deyər sərindən,*
*Arxı vurun, suyu gəlsin dərindən.*
*El bir olsa, dağ oynadar yerindən,*
*Söz bir olsa, zərbi kərən sındırar.*

Nitqin ifadəliliyini, emosionallığını artırmaq məqsədilə məsəllər, atalar sözləri, qanadlı misralardan çox istifadə edilir. Bu zaman həmin ifadələrə keçid etmək üçün "atalar demişkən", "atalar yaxşı deyib", "burda deyiblər", "Molla Nəsrəddin demişkən", "şairin **təbiri** ilə desək" kimi ifadələr işlədilir.

Nitqdə deyimlərdən istifadə olunması müəllifin geniş dünyagörüşünə, zəngin söz ehtiyatına malik olduğunu göstərir. Məsəl və qanadlı misralardan düzgün istifadə etmək üçün onların etimologiyasını dəqiq bilmək, kontekstə uyğun işlətmək vacibdir.

## Söz ehtiyatı

**b** **"Qanadlı misralar" ifadəsində "qanadlı" sözünün həqiqi və məcazi mənaları arasındakı əlaqəni şərh edin.**

**c** **Mətnə və aşağıdakı cümləyə əsasən "təbir" sözünün mənasını izah edin, lüğət vasitəsilə dəqiqləşdirin.**

*Evin balaca qızı Ulduz isə, anasının təbirincə desək, od-alov idi. (Ə.Məmmədxanlı)*

## Düşün və cavab ver

**ç** **Mətni tərkib hissələrinə ayırın və yarımbaşlıqlarla adlandırın. Hər bir hissəyə aid suallar tərtib edin.**

**d** **Mətndə Bəxtiyar Vahabzadənin şeirindən verilmiş parçanı təhlil edin. Bu parçada hansı üslubi fiqurdan istifadə edilmişdir?**

Layihə

**e** **Hansı atalar sözləri məcazi mənada işlənmişdir? Həmin atalar sözlərini şərh edin, həqiqi və məcazi mənalar arasındakı bağlılığı izah edin.**

**1.** Dəyirman bildiyini eylər, çax-çax baş ağrıdar.
**2.** Sözün düzünü zarafatla deyərlər.
**3.** Ağacı qurd içindən yeyər.
**4.** Od olmasa, tüstü çıxmaz.
**5.** Meşə çaqqalsız olmaz.
**6.** Əvvəl düşün, sonra danış.

**ə** **Venn diaqramından istifadə etməklə aşağıdakı fikirlərin hansı deyimə aid olduğunu müəyyən edin.**




**1.** Bitkin fikir ifadə edən folklor nümunəsidir.
**2.** Konkret müəllifi olmur.
**3.** Nitqin emosionallığını, təsir gücünü artırır.
**4.** Mənşəcə müəyyən əhvalatla bağlı olur.
**5.** Yazılı ədəbiyyat nümunəsidir.

**3 a** **Cütlərlə iş. Lətifələri oxuyun və təlimata uyğun sinfə təqdim edin.**

**Təlimat**

Lətifəni danışarkən
- Obrazın nitqini onun xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirin.
- Məzmuna uyğun jest və mimikalardan istifadə edin.
- Səs tonundan istifadə edərək gülüş doğuran əsas fikri vurğulayın.

### DAVA YORĞAN DAVASI İMİŞ

Gecələrin birində Mollanın evinin qabağında hay-küy düşür. Molla səsə yuxudan oyanır, yorğanı çiyninə salıb küçəyə çıxır ki, görsün nə olub. Qarışıqlıqda kimsə yorğanı onun çiynindən çəkib götürür. Qaranlıq olduğu üçün Molla yorğanın hara aparıldığını görmür. Ora yorğan, bura yorğan, “gördüm” deyən olmur. Ara sakitləşir. Molla soyuqdan titrəyə-titrəyə evə qayıdır. Arvadı soruşur:

– A kişi, nə dava idi bayırda?

Molla soyuqqanlılıqla deyir:

– Heç, deyəsən, dava yorğan davası imiş. Yorğanı apardılar, dava da qurtardı.



Layihə

## O VAXTA YA XAN ÖLƏR, YA EŞŞƏK



Bir gün xana bir eşşək bağışlayırlar. Molla deyir ki, bu eşşəyə adam kimi danışmağı öyrədə bilər. Xan Mollaya xeyli qızıl, beş il də vaxt verir ki, eşşəyə danışmaq öyrətsin. Molla qızılları və eşşəyi götürüb evə gətirir. Məsələni arvadına açır və pulları ona verir ki, xərcləsin.

Arvad deyir:

– A kişi, başına at təpib?! Eşşək də danışar?

Molla deyir:

– Əlbəttə, eşşək danışmaz.

– Yaxşı, bəs beş ildən sonra xana nə cavab verəcəksən?

– Ay arvad, Allah kərimdir. O vaxta ya xan ölər, ya eşşək.

**b** **Cütlərlə iş.** **Aşağıdakı şeirləri oxuyun. Sizcə, hansı misraları "qanadlı misralar" hesab etmək olar? Həmin misraları şərh edin.**

***Oğlum Məhəmmədə nəsihət***

Oğul, sözlərimə yaxşı qulaq as!  
Ata nəsihəti faydasız olmaz.  
Ucalmaq istəsən, bir kamala çat,  
Kamala ehtiram göstərər həyat.  
Elə ki böyüdün, belədir qayda,  
Atanın adından sənə nə fayda?  
Səadət kamalla yetişir başa,  
Xalqa hörmət elə, ədəblə yaşa.  
Öz adına layiq işlər gör ki sən,  
Axırda utanma xəcalətindən.  
Bu əyri cizgilər cədvəlində sən  
Özünü şərh edib, özünü öyrən!  
Bir elmi öyrənmək istədikdə sən  
Çalış ki, hər şeyi kamil biləsən.  
Kamil bir palançı olsa da insan,  
Yaxşıdır yarımçıq papaqçılıqdan.  
Məndən söyləməkdir, səndən eşitmək,  
Bir insan əliboş gəzməsin gərək.

*Nizami Gəncəvi*

***Ömür***

Deyirlər, şirindir dadı dünyanın,  
Kaş iki olaydı ömrü insanın.  
Nola, çalışaydıq ömrün birində,  
Sonra əylənəydik biz digərində.

Hərə öz ömrünə bir cürə baxmış,  
Hərə bu dünyanı bir cürə anlar.  
Cahanda bəs nədən zövq alacaqmış  
Zəhmətin özündən zövq almayanlar?

Yaşamaq – yanmaqdır, yanasan gərək,  
Həyatın mənası yalnız ondadır.  
Şam əgər yanmırsa, yaşamır demək,  
Onun da həyatı yanmasındadır.

Ömrü az olsa da, qartal yenmədi,  
Dedi, səmalarda öz oylağım var.  
Ömrün azlığından gileylənmədi  
Ömrü insan kimi başa vuranlar.

*Bəxtiyar Vahabzadə*

Layihə

**c** **Aşağıdakı mətni oxuyun. Uyğun deyimlər seçərək burada əks olunmuş fikri lakonik və təsirli ifadə edin. Tərkibindəki bədii ifadə vasitələrini şərh edərək seçdiyiniz deyimin daha təsirli olduğunu sübut edin.**

*İnsan danışarkən hər sözünü götür-qoy etməli, yüz ölçüb bir biçməlidir. Hərdən ehtiyatsız, uğursuz deyilmiş söz böyük faciələrə, qan tökülməsinə səbəb olur. Dərindən düşünülmüş söz isə bəzən münaqişələrə son qoya, tərəfləri barışdıra bilər.*

**1.** Dilini saxlayan başını saxlar.
**2.** Söz var – gələr keçər, söz var – dələr keçər.
**3.** Dil var, bal gətirər, dil var – bəla.
**4.** Söz var, kəsdirər başı,
Söz var, kəsər savaşı... *(Şah İsmayıl Xətai)*
**5.** Ho var, dağa qaldırar, ho var, dağdan endirər. *(Məsəl)*
**6.** Dünyada ən acı və ən şirin şey dildir. *(Atalar sözü)*

## Yazı

**4 a** **Verilmiş atalar sözündəki bədii ifadə vasitələrini müəyyən edin və həyatdan nümunələr gətirməklə ifadə olunan fikrə münasibət bildirin.**

*Axşamın xeyrindən səhərin şəri yaxşıdır.*

- **İndi isə aşağıdakı atalar sözünü şərh edin.**

*Əldən qalan əlli il qalar.*

- **Atalar sözlərinin ifadə etdiyi fikirlər arasındakı ziddiyyətə münasibət bildirin.**

**Qlossari**

**Alliterasiya** – nitqdə ahəngdarlığı gücləndirmək məqsədilə eyni samit səslərin təkrarı.
**Assonans** – sözlərdə eyni və ya yaxın saitlərin təkrarı.

**b** **"Atalar sözləri nə qədər gözəl səslənsə də, onlara ehkam kimi yanaşmaq olmaz" fikrini dəstəkləyən esse yazın.**

**Essedə aşağıdakı atalar sözlərindən istifadə edə bilərsiniz.**

- Böyük olan yerdə kiçik danışmaz.
- Hər oxuyan Molla Pənah olmaz.
- Palaza bürün, elnən sürün.
- Sirrini dostuna demə, dostunun da dostu var.
- Kimin ki dostları var, onun dostu yoxdur.
- El üçün ağlayan gözsüz qalar.
- Yaz var, qış var, nə tələsik iş var?!

Layihə

## Məsdərin qrammatik xüsusiyyətləri

**5 a** **Aşağıdakı söz birləşmələrinin əsas tərəflərini müqayisə edin. Sizcə, bu birləşmələrin hər ikisini ismi birləşmə hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**

**a.** müğənninin ifası
**b.** müğənninin oxumağı

**Yadda saxla** Məsdər söz birləşməsinin komponenti kimi

Məsdər ismin xüsusiyyətlərinə malik olduğu üçün isim kimi hallanır və mənsubiyyətə görə dəyişir. Mənsubiyyət şəkilçisi qəbul etdikdə o, ismi birləşmə əmələ gətirir. III şəxsdə məsdər mənsubiyyətə görə dəyişərkən bəzən *-maq*$^2$ şəkilçisi *-ma*$^2$ kimi də işlənir. Məsələn, *quşların oxumağı – quşların oxuması.*

**b** **Hansı birləşmədə məsdər:**
**1. müəyyənlik bildirən ismi birləşmənin əsas tərəfi kimi çıxış edir?**
**2. müəyyənlik bildirən ismi birləşmənin asılı tərəfi kimi çıxış edir?**
**3. qeyri-müəyyənlik bildirən ismi birləşmənin asılı tərəfi kimi çıxış edir?**
**4. feili birləşmənin əsas tərəfi kimi çıxış edir?**

**a.** oxumaq həvəsi
**b.** oxumağın faydası
**c.** vətəni qorumaq
**ç.** şagirdin danışmağı

Feillərə artırılan **-ma**$^2$ şəkilçisi omonimlik səciyyəsi daşıyaraq fərqli vəzifələr yerinə yetirir:

| ***Şəkilçinin semantikası*** | ***Nümunə*** |
|---|---|
| feildən isim düzəldən leksik şəkilçi | *birinci bölmə* |
| feildən sifət düzəldən leksik şəkilçi | *asma körpü* |
| feillərdə inkarlıq şəkilçisi | *İpi tarım çəkmə.* |
| məsdər şəkilçisinin ixtisar forması | *qatarın gecikməsi* |

**c** **Cümlələrdə fərqləndirilmiş sözlərdəki *-ma*$^2$ şəkilçisinin funksiyasını müəyyən edin.**

**1.** Qış gələndə nənəm tez-tez **qovurma** bişirərdi.
**2.** Bir qadının **təhsil alması** bir nəslin **savadlı olması** deməkdir.
**3.** Abır istəsən, çox **demə,** sağlıq istəsən, çox **yemə.**
**4.** Bakıda qızlar üçün məktəbin **açılması** tarixi hadisə idi.
**5.** **Qoşma** janrı aşıq yaradıcılığında çox geniş yayılmışdır.

Layihə

**1 a** **“Qlossari” rubrikasında və aşağıdakı cədvəldə verilmiş məlumatlardan istifadə etməklə eponimin izahını genişləndirin.**

**Qlossari**

**Eponim** – hər hansı xüsusi isimdən (şəxs adı, coğrafi ad və s.-dən) törəmiş ümumi və ya xüsusi isim.

| Eponim | Sözün etimologiyası |
|---|---|
| ***dizel*** *(yanacaq növü)* | ***Rudolf Dizel*** *(mühəndis, ixtiraçı)* |
| ***Everest*** *(dünyanın ən hündür zirvəsi)* | ***Corc Everest*** *(coğrafiyaçı alim)* |

**b** Qruplarla iş. **Qeydlər götürməklə mətni oxuyun. Aşağıdakı nümunəyə uyğun yaddaş xəritəsi tərtib edin və qeydlərinizdən istifadə etməklə mətnin məzmununu danışın.**

***Sözün etimologiyası***

| *adın ilk daşıyıcısı* | *dövr, məkan* | *hadisə* | *müasir dövrdə mənası* |
|---|---|---|---|
| | | | |

**I qrup**

***BOYKOT***

İrlandiyanın olduqca faciəli tarixi var. IX əsrdə vikinqlərin quldur basqınları vaxtilə çiçəklənən dövləti xaraba qoydu. Sonra ingilislər gələrək bütün adanı tutdular. 1801-ci ildə İrlandiya müstəqilliyini tamamilə itirdi.

İrlandiyalı kəndlilər vətənlərində muzdlu işçi kimi ingilis mülkədarlarının torpaq ərazilərində işləyirdilər. Həmin torpaq sahibləri İngiltərədə yaşayır, İrlandiyadakı təsərrüfatlarını yerli **müvəkkillər** vasitəsilə idarə edirdilər. Müvəkkillərin əksəriyyəti isə ancaq öz iş yerlərini qorumaq barədə düşünür və buna görə də öz həmyerlilərini son **pennilərinə** qədər soyurdular.



**Söz boğçası**

• müvəkkil • penni • icarədar • ikrah

1879-cu ildə İrlandiya aclıq təhlükəsi ilə üz-üzə dayanmışdı. Vəziyyət o qədər ciddi idi ki, məsələ İngiltərə parlamentində müzakirəyə çıxarıldı. İrlandiyanın parlamentdəki baş nümayəndəsi icarə haqqını aşağı salmaq haqda çağırış etdi. Hamı bu çağırışa qulaq asır, razılıq əlaməti olaraq susurdu. Lakin bu zaman müvəkkillərdən biri bu təklifə qarşı çıxaraq bildirdi ki, vaxtında pulu ödəməyən **icarədarları** torpaqdan qovmaq lazımdır.

İrlandiyalı müvəkkilin bu çıxışı parlament üzvlərində ona qarşı **ikrah** hissi yaratdı. Onlar öz həmvətənlərinə qarşı çıxan bu adamı görməzliyə vurmağa başladılar. Hamı ona arxasını çevirir, heç kim söhbət etmirdi.

Öz sahibkarına "sədaqət" nümayiş etdirmək üçün həmvətənlərinə qarşı çıxan həmin müvəkkilin adı Çarlz Kanningem Boykot idi. O zamandan müəyyən şəxs və ya təşkilatla əlaqələri kəsmək və ya kiminsə çağırışına qoşulmamaq "boykot" adlanır.

## Söz ehtiyatı

**C** **"İkrah" və "nifrət" sözləri arasındakı fərqi izah edin. Nə üçün müəllif parlament üzvlərinin Boykota qarşı münasibətini məhz "ikrah" sözü ilə ifadə edir?**

### II qrup

***MESENAT***

Elm, təhsil və mədəniyyətə himayədarlıq edən və ona maliyyə dəstəyi verən xeyriyyəçiləri çox zaman "mesenat" adlandırırlar.



*Mesenatın bağçasında şeir məclisi*

"Mesenat" sözü Romanın rəssamlarına və şairlərinə himayədarlıq edən dövlət xadimi Qay Silnius Mesenatın adından götürülmüşdür. O, Roma imperatoru Oktavian Avqustun dostu və yaxın məsləhətçisi idi. İmperator Avqustun dövründə mədəniyyət naziri funksiyasını yerinə yetirən Mesenat elm, ədəbiyyat, incəsənət adamları üçün dövlətdən xeyli **imtiyazlar** aldı. Təsadüfi deyil ki, həmin dövr Roma tarixində sülh və firavanlıq dövrünün başlanğıcı hesab edilir.

Ölkədə mədəniyyətin inkişafında Mesenatın xidmətləri böyük idi. İncəsənətin **himayədarı** sayılan Mesenat gənc şairlərə dəstək olurdu. O, şəxsi mülklərində kitabxanalar yaradır, gənc yazarlar üçün yaradıcı mühit formalaşdırırdı. Bu səbəbdən Avqustun hakimiyyət illəri latın ədəbiyyatının qızıl dövrü kimi tanınır.

İllər keçdikcə "Mesenat" adı "səxavətli himayədar" ifadəsi ilə eyniləşdi və bir çox dillərdə məhz bu mənada işlənməyə başladı. Ölkənin elm, təhsil və mədəniyyətinin inkişafında böyük rolu olan xeyriyyəçiləri mesenat adlandırırlar.

**Söz boğçası**
- imtiyaz
- himayədar

**Ç** **Kontekstdən çıxış edərək "imtiyaz" sözünü izah edin. Sizcə, Mesenatın sənət adamları üçün dövlətdən aldığı imtiyazlar nədən ibarət ola bilərdi?**
**• Cəmiyyətimizdə kimlər dövlətdən geniş imtiyazlar almışlar?**

Layihə

### III qrup

Söz boğçası
- müflislik
- reformator

***SİLUET***

XVIII əsrdə Fransa **müflisliyin** astanasında dayanmışdı. Ölkə son vaxtlar elə hey müharibələr aparır, üstəlik, kral sarayının saxlanılması da baha başa gəlirdi. Saray əyanları külli miqdarda pul alır, amma vergi ödəmirdilər. Verginin bütün ağırlığı kəndlilərin boynuna düşürdü.



1759-cu ildə, XV Lüdovikin hakimiyyəti dövründə maliyyə nazirlərindən biri vergi sistemində islahat aparıb saray xərcləri və zadəganların təqaüdlərini azaldaraq qənaət etmək niyyətinə düşdü. Zadəgan sinfi bu **reformatoru** lağa qoyub xəsis adlandırmağa başladı (hərçənd o zamanlar Fransanın məhz belə islahata ehtiyacı vardı).

Yeri gəlmişkən, həmin maliyyə nazirinin hobbisi var idi. O, boş vaxtlarında kağızdan insan fiqurları kəsməyi xoşlayırdı. Dəbdəbəli və bahalı portretlərə alışmış zadəganlar istehza ilə bu işin əsl xəsislər üçün olduğunu söyləməyə başladılar.

O vaxtdan bu cür insan cizgiləri, əsasən də, insan sifətinin yandan görünüşü "siluet" adını qazandı, çünki həmin **islahatçı** nazirin adı Etyen de Siluet idi.

**d** **"Reformator" və "islahatçı" sözlərinin işləndiyi kontekstə istinad etməklə bu sözləri izah edin və sinonim olduğunu əsaslandırın.**

**e** **Sözlərin izahına əsasən "re" morfeminin semantik funksiyasını müəyyənləşdirin.**

***restavrasiya*** *– köhnəlmiş və ya zədələnmiş sənət əsərinin ilkin formasına uyğun olaraq yenilənməsi; bərpa.*
***regenerasiya*** *– orqanizmin itirilmiş, zədələnmiş orqan və toxumalarının bərpası.*
***reprint*** *– təkrar nəşr, yenidən çapetmə.*
***reabilitasiya*** *– xəstəlik keçirmiş şəxslərin sağlamlığının bərpasına yönəldilmiş tədbirlər kompleksi.*

### IV qrup

***ATLAS***

Qədim yunan mifologiyasında böyük gücə malik Atlant haqqında əsatirlərə rast gəlmək mümkündür. Bir əsatirdə deyilir ki, Zevsə qarşı çıxdığına görə Atlant ömrü boyu çiyinlərində göy **qübbəsini** saxlamağa məhkum olunmuşdu. Başqa bir əsatirdən öyrənirik ki, Zevsin oğlu Persey onu dağa çevirmişdi. Afrikanın şimal-qərbində bu dağ indi Atlas dağı adlanır. Herakl haqqında əsatirlərdə bu **titan** obrazına rast gəlmək olar.

"Atlant" adından başqa sözlər də yaranıb. Onlardan biri Atlantidadır. Bu ada ilk dəfə qədim yunan alimi Platonun əsərlərində rast gəlirik. Platonun verdiyi məlumatlara görə, Atlantida Atlantik okeanında Cəbəllüttariq boğazının bilavasitə arxasında, İspaniya və indiki Mərakeş sahillərinin yaxınlığında yerləşən **ada-dövlət** olub. Daşqınla müşayiət olunan zəlzələ zamanı bu ada, sakinləri ilə birgə bircə günün içində suya qərq olmuşdur.

Layihə

Sahəsinə görə Sakit okeandan sonra ikinci böyük okean olan Atlantik okeanı da əfsanəvi qəhrəman Atlantın adından yaranıb.

“Xəritələr toplusu” mənasını verən “atlas” sözünün də “Atlant” adından yarandığı güman edilir. Orta əsrlərdə nəşr olunan atlasların üz qabığında, adətən, çiyinlərində Yer kürəsini saxlayan Atlant təsvir olunurdu. Başqa bir versiyaya görə isə, bu söz Afrika ölkələrindən birinin əfsanəvi kralı Atlasın adı ilə bağlıdır. Əsatirə görə, ilk səma qlobusunu məhz o hazırlamışdır. Termin kimi bu söz ilk dəfə 1595-ci ildə flamandiyalı riyaziyyatçı və kartoqraf Gerard Merkator tərəfindən işlədilmişdir.




**Söz boğçası**

• titan • qübbə • ada-dövlət

**ə** **Mətndə “titan” sözü hansı mənada işlənib?**

**a.** Boz-gümüşü rəngli metal; kimyəvi element
**b.** Qədim yunan mifologiyasında Olimp ilahlarına qarşı döyüşən nəhəng məxluq
**c.** Ölçüsünə, gücünə və əhəmiyyətinə görə nəhəng, çox böyük olan bir şey; azman

**Orfoqrafiya**

**atláz** – üzü hamar, parlaq ipək parça növü.
**átlas** – müəyyən sistem üzrə toplanmış xəritələr toplusu.

## Düşün və cavab ver

**f** **Oxuduğunuz mətnləri məzmun və struktur baxımından müqayisə edin. Hansı mətndə polemik məqama rast gəlinir?**

## Yazı

**g** **Təsəvvür edin ki, bu mətnləri vahid başlıq altında birləşdirib bir mətn hazırlamalısınız.**
- **Həmin mətn üçün başlıq seçin.**
- **Mətnin giriş hissəsini yazın.**
- **Mətnin hissələri arasında (oxuduğunuz mətnlər) keçid cümlələri işlədin.**
- **Mətnin sonluq hissəsini yazın.**

## Təqdimat

**2 a** **Aşağıdakı eponimlər haqqında araşdırma aparın:**
- **Məlumatları uyğun yarımbaşlıqlar altında qruplaşdırıb yaddaş xəritəsi hazırlayın.**
- **Sinfə təqdim edərkən qeydlərinizi genişləndirərək bu haqda ətraflı danışın.**

**I qrup.** *Alimlərin adlarından yaranmış ölçü vahidləri (amper, vatt və s.)*
**II qrup.** *Tarixi şəxslərin (İskəndər, Viktoriya və s.) şərəfinə adlandırılan yer adları*
**III qrup.** *Yaradıcılarının adını daşıyan brend adları (Audi, Ferrari və s.)*
**IV qrup.** *Coğrafi adlardan yaranan eponimlər (Badamlı, Şollar və s.)*



Layihə

**3 a** **Gəncə şəhərinin tarixini araşdırın. Əldə etdiyiniz məlumatlara əsasən “Gəncə şəhərinin tarixi adları” mövzusunda təqdimat materialı hazırlayın. Aşağıdakı təlimatdan istifadə edin.**

**Təlimat**

- Təqdimatınız informativ-xronoloji məzmunda olmalıdır.
- Təqdimat slaydları üçün qədim və müasir Gəncə ilə bağlı şəkillər toplayın.
- Slaydlarınızı aşağıdakı ardıcıllıqla tərtib edə bilərsiniz:

**1-ci slayd:** Təqdimatın adı və Gəncə şəhərinin şəkli
**2-ci slayd:** Giriş: Gəncə şəhəri və onun tarixi haqqında ümumi məlumat
**3-cü slayd:** “Gəncə” sözünün etimologiyası ilə bağlı ehtimallar
**4-cü slayd:** Gəncə şəhəri orta əsrlərdə
Açar sözlər: ərəb işğalı, Nizami Gəncəvi, Gəncə xanlığı
**5-ci slayd:** Çar Rusiyasının Gəncəni işğal etməsi
Açar sözlər: Cavad xan, Sisianov, Yelizaveta Alekseyevna
**6-cı slayd:** Gəncə Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918–1920)
**7-ci slayd:** Gəncə Sovet hakimiyyəti illərində (Kirovabad)
**8-ci slayd:** Gəncə adının qaytarılması
**9-cu slayd:** Ümumiləşdirmə. Aşağıdakı cədvəli doldurun.

| Dövr | Şəhərin adı | Faktlar |
|---|---|---|
| *V–VI əsrlər* | *Gəncə* | *Gəncə haqqında ilk məlumatlar* |
| *1804–1918* | *Yelizavetpol* | *Çar Rusiyasının Gəncə xanlığını işğal etməsi* |
| *1918–1935* | | |
| *1935–1989* | | |
| *1989* | | |

**10-cu slayd:** Nəticə: Toponimlərimizin müxtəlif dövrlərdə dəyişdirilməsinin (Xankəndi – Stepanakert, Şirvan – Əli Bayramlı və s.) səbəbləri və milli adların qorunmasının vacibliyi.

**11-ci slayd:** Dinləyicilərə təşəkkür. Məsələn:

Diqqətinizə görə təşəkkür edirəm.
Ad, soyad
N saylı məktəbin 7-ci sinif şagirdi

**b** **Bir-birinizin təqdimatını dinləyərkən qeydlər götürün. Təqdimat materialının məzmununa, dizaynına, natiqin danışıq tərzinə və s. münasibət bildirin.**

Layihə

# Sadə və mürəkkəb söz birləşmələri

**4 a** **Uyğunluğu müəyyən edin.**

**1.** kəndə sarı
**2.** lap böyük
**3.** cəlb etmək
**4.** qatara minmək
**5.** bir qədər

**a.** mürəkkəb feil
**b.** söz birləşməsi
**c.** mürəkkəb say
**ç.** qoşmalı isim
**d.** çoxaltma dərəcəli sifət

**Yadda saxla**

Sadə söz birləşmələri iki, mürəkkəb söz birləşmələri üç və daha artıq müstəqil sözdən ibarət olur.

- *avtomobil markası* (sadə)
- *İtaliyanın məşhur avtomobil markası* (mürəkkəb)

Köməkçi nitq hissələri və köməkçi feillər (olmaq, etmək, eləmək, bilmək) söz birləşmələrinin quruluşuna təsir göstərmir. Məsələn: "ən uca zirvə", "izah etməyə çalışmaq" birləşmələri quruluşca sadədir. Çünki "ən" sözü ədat, "etmək" sözü isə köməkçi feildir, yəni leksik mənası olmayan sözlərdir.

**b** **Verilmiş söz birləşmələrinin quruluşca növünü müəyyənləşdirib cədvəlin uyğun sütununa yazın.**

*xoşbəxtlik arzu etmək, otaqları silib-süpürmək, uşaqların şən səsləri, uşaqların hüquqlarını qorumaq, yaxşıca istirahət etmək, səhərə kimi çalışmaq, daha dərindən öyrənmək, yaxından tanış olmaq, çoxlu kitab oxumaq, beş min əsgər, Şuşanın şüşə kimi təmiz havası*

| Sadə söz birləşməsi | Mürəkkəb söz birləşməsi |
|---|---|
| | |

**c** **Cümlələrdəki mürəkkəb söz birləşmələrini seçin, sualını müəyyən edin.**

**1.** Azərbaycanın məşhur milli bayramı olan Novruz ölkəmizdə təntənəli şəkildə qeyd olunur.
**2.** Günəş uca dağların arxasında gizlənəndə kəndə dərin bir sakitlik çökdü.
**3.** Şagirdlərimizin yazıb-yaratmaq həvəsini alqışlayıram.
**4.** Qədim xalq adətinə görə, gənclər yalnız müəyyən şücaət göstərdikdən sonra hər hansı ad sahibi ola bilərdilər.
**5.** Prometey təbiətlə mübarizədə aciz qalan insanlara yazığı gəldiyinə görə göydən od oğurlayaraq adamlara vermiş və ondan istifadə etməyi öyrətmişdi.

Layihə

**1 a Aşağıdakı atalar sözündəki üslubi fiquru müəyyən edin. Sizcə, bu atalar sözü hansı situasiyalarda işlənir? Atalar sözünü mətnin məzmunu ilə əlaqələndirib şərh edin.**

*Hər zərərdə bir xeyir var.*

# Pollianna

Miss Polli Harrinqton çardaqdakı balaca otağı on bir yaşlı bacısı qızı üçün hazırlamağı tapşıranda xidmətçi Nensi çox sevindi:

– Ah, miss, buraya balaca qız gələcək? Nə yaxşı!

– Yaxşı? – deyə miss Polli soyuq bir tərzdə təkrar etdi. – Mən belə deməzdim. Başa düşmürəm, bacım axmaqlıq edib ərə gedibsə və onsuz da həddindən çox adam olan dünyaya daha bir uşaq bəxş edibsə, bunun cəzasını mən niyə çəkməliyəm?! Əlbəttə, onun üçün məndən asılı olan hər şeyi edəcəyəm. Bacım vəfat edəndən sonra bu mənim borcumdur. Mən isə borcumu həmişə yerinə yetirirəm...



Çardaqdakı balaca otağı silib-süpürməkdə olan Nensi pıçıldayırdı: “Borcunu həmişə yerinə yetirir... Beləmi yetirir?! Evdə o qədər boş otaq olduğu halda, zavallı uşağı gör hara salır. Yayda burada istidən nəfəs almaq olmur, qışda isə soyuqdan adamın qanı donur. Sözə bir bax: “onsuz da həddindən çox adam olan dünyaya daha bir uşaq bəxş etmək...” Məncə, dünyada uşaq yox, belə daşqəlbli adamlar həddindən artıq çoxdur!”

**b Miss Polli Harrinqton və xidmətçi Nensi haqqında ilk təəssüratınızı söyləyin.**

***

Miss Polli bacısı qızını qarşılamağa getmədi. Bunu xidmətçisinə tapşırdı. Nensi stansiyada diqqətlə adamlara göz gəzdirirdi. Birdən o, teleqramda təsvir edildiyi kimi, sarışın saçlı, əynində qırmızı damalı çit don, başında həsir şlyapa olan qızla qarşılaşdı. Nensi həyəcanını boğaraq:

– Siz miss Polliannasınız? – demişdi ki, iki balaca qol boynuna sarıldı.

– Oy! Mən necə də xoşbəxtəm! Sizi görməyimə çox şadam! Məni qarşılamağa gəlməyinizə elə sevinirəm ki! Mən yolboyu sizi təsəvvürümdə canlandırmağa çalışırdım, Polli xala!

Qızcığaz xidmətçinin miss Polli olduğunu zənn etmişdi. Yanıldığını biləndə o, əvvəlcə bir qədər tutuldu, sonra isə halını pozmadan şən bir tərzdə dedi:

– Bilirsiniz, mən hətta sevinirəm ki, Polli xala məni qarşılamağa gəlməyib. Axı onda mən artıq onun necə olduğunu bilərdim, indi isə mən hələ onu tanımıram. Üstəlik, indi mənim sizin kimi dostum var.

Layihə

**C** **Sizcə, doğrudanmı Pollianna xalasının onu qarşılamağa gəlmədiyinə şad idi? Bu epizoddan çıxış edərək Polliannanın xarakteri haqqında fikir yürüdün.**

***

Miss Polli bacısı qızını çox soyuq qarşıladı. Sevinclə qucağına atılan Polliannanı azacıq kənarlaşdırdı. Yavaş-yavaş pilləkənlərlə yuxarı, çardağa tərəf qalxdı. Pollianna xalasını təqib edirdi. Miss Polli pilləkənin başındakı kiçik bir qapını açıb dedi:

– Bu da sənin otağın. İndi Nensini göndərərəm, əşyalarını yerləşdirməyə kömək edər.

Xalası gedəndən sonra diqqətlə otağının çılpaq divarlarına, döşəməsinə baxan Pollianna dizi üstə yerə çöküb əlləri ilə üzünü örtdü.



Polliannanın otağına daxil olan Nensi qızcığazı kədərli görüb dedi:

– Ah, mənim zavallı quzum, qəm yemə. Gəl sənin paltarlarını yerbəyer edək.

– Mənim əşyalarım çox azdır, – Pollianna astadan dedi.

– Onda biz işimizi də tezliklə qurtararıq.

Qızın üzünü birdən təbəssüm bürüdü:

– Doğrudan da, yır-yığış etməyə çox vaxt sərf etməli olmayacağıq. Deməli, mən belə az əşyam olduğu üçün sevinə bilərəm.

Bu sözləri eşidən Nensi yerində donub-qaldı. Pollianna isə artıq tamamilə sakitləşmişdi.

– İndi mən görürəm, bu çox gözəl otaqdır. Güzgünün olmaması məni hətta sevindirir. Hər an üzümdəki çillərə baxıb qanımı qaraltmayacağam. Pəncərədən də gör necə mənzərə açılır! Heç bir şəklə də ehtiyac yoxdur. Xalamın mənə bu otağı verməsinə çox sevinirəm!

Nensi təəccüblə dedi:

– Cansıxıcı, kədərli hallarda da sevinməyə səbəb tapa bilirsən. Çox qəribədir!

– Axı burada təəccüblü nə var ki? Oyunun ən maraqlı yeri elə burası deyilmi?

– Hansı oyunun?

– “Məmnun olmaq” oyunu. Bu oyunu mən balaca olanda atam öyrətmişdi. Bir bayram axşamı şəhərimizdəki xeyriyyə cəmiyyəti ailələrə hədiyyələr göndərmişdi. Çox istəyirdim ki, mənim payıma gəlincik düşsün. Amma bizə dava-dərmanla dolu qutu göndərmişdilər. Mən ağlayanda atam dedi ki, əslində, sevinməliyəm. Hə, hə, sevinməliyəm ki, bu dava-dərman mənə lazım deyil. Və bundan sonra mənə “məmnun olmaq” oyununu öyrətdi. Oyunun qaydası belədir ki, ən kədərli anlarda da sevinməli bir məqam tapasan. Atam... – Polliannanın səsi titrədi. – Atam bu oyunu çox xoşlayırdı. İndi atam yoxdur, tək oynamaq isə elə də asan deyil.

*Eleanor Porterin “Pollianna” əsəri əsasında işlənmişdir.*

## Düşün və cavab ver

**ç** **Mətnə və illüstrasiyalara əsasən Polliannanın və miss Polli Harrinqtonun bədii portretini təsvir edin.**

**d** **Sizcə, qarşılaşdığı xoşagəlməz hadisələr doğrudanmı Polliannanın əhvali-ruhiyyəsinə təsir etmirdi? Mətndən uyğun epizodları göstərməklə fikrinizi əsaslandırın.**

**e** **Baş qəhrəmanın xarakterindəki əsas cəhəti müəyyənləşdirin və onu mətnin ideyası ilə əlaqələndirin.**

**ə** **Mətndə əsas fikrin açılmasına xidmət edən epizodları müəyyənləşdirin. Aşağıdakı aforizmi mətnin ideyası ilə əlaqələndirib şərh edin.**
*Bədbinlik əhvali-ruhiyyədir, nikbinlik isə iradə. (Alen Emil Ogüst)*

**2 a** **Qruplarla iş. Polliannanın xarakterinə istinad edərək aşağıdakı epizodları genişləndirərək danışın.**

**I qrup:** ***Pollianna həyatdan küsmüş, deyingən, yataq xəstəsi olan xanım Snouda yaşamaq həvəsi yaradır.***

- *Pollianna hər gün Xanım Snou üçün nahar aparır.*
- *Pollianna və Xanım Snounun dialoqu:*

*– Bütün gecəni yata bilməmişəm.*
*– Bilirsiniz, mən yatmağı heç sevmirəm. Yatmaq əvəzinə gözəl işlər görmək olar. Yatmaq yaşamaq deyil.*



**II qrup:** ***Pollianna özünə qapanmış mister Conun qaradinməz xasiyyətini dəyişdirir.***

- *Pollianna yaxınlıqdakı parkda tez-tez mister Con ilə rastlaşırdı.*
- *Pollianna və mister Conun dialoqu:*

*– De görüm, niyə sən mənimlə danışmaq üçün bu qədər inad edirsən? Nə üçün özünə yaşıdların arasında dost tapıb onlarla söhbət etmirsən?*
*– Ətrafımda mənimlə yaşıd bir nəfər də yoxdur. Düzünə qalsa, heç mən də bunu çox arzulamıram. Böyüklərlə söhbət etməkdən daha çox zövq alıram.*



## Dinləmə 12 13

**b** **Mətndən müvafiq hissələri dinləyin və öz variantınızla müqayisə edin.**

**3a** **Verilmiş nümunələrə əsasən 3-cü cümləni tamamlayın.**

**1.** Hacı Qara kimi xəsisdir.
**2.** Herakl kimi güclüdür.
**3.** Pollianna kimi ...

**Diqqət et**

Bir çox ədəbi və ya mifoloji qəhrəmanların adları hər hansı keyfiyyətin simvoluna çevrilərək dilimizdə rəmzi ad kimi işlədilir. Lakin eponimlərdən fərqli olaraq, bu sözlər lüğət tərkibinə daxil olmur, sadəcə, müəyyən varlıqla bağlı bənzətmə məqamında işlədilir.
Eponimlər isə müstəqil leksik vahid və ya terminoloji ifadənin komponenti kimi lüğətlərdə yer alır. Məsələn: vatt (Ceyms Vatt), Arximed qanunu, Pifaqor teoremi.

**Qlossari**

**Leksik vahid** – müstəqil leksik mənası olan söz və ya sabit söz birləşməsi.

**b** **Aşağıdakı sözün izahını oxuyun və mətnin adı ilə əlaqələndirib şərh edin. “Pollianna sindromu” ifadəsinin eponim olduğunu əsaslandırın.**

**SİNDROM** (yun. *syndrome* – birləşmə, qovuşma) – vaxtilə baş vermiş hadisəyə və ya məşhurlaşmış varlığa bənzər hadisə və varlığı adlandırmaq üçün işlədilən ifadə. “Sindrom” sözü, adətən, oxşadılan hadisənin, varlığın adına artırılır; məs. *Pollianna sindromu* – ifrat nikbinlik.

**c** **Mətni oxuyarkən aşağıdakı məqamlara diqqət yetirin:**
- Mətnin giriş hissəsində qaldırılan problemlə bağlı müəllifin mövqeyi nədən ibarətdir?
- Müəllif mövqeyini əsaslandırmaq üçün hansı arqumentlərdən istifadə edir?

## POLLİANNA SİNDROMU

Bəzi insanlar ətrafda baş verən hadisələrə həddindən artıq nikbinliklə yanaşırlar. ***Psixoloqlar*** bunu **patologiya** hesab edir, belə pasiyentlərinə “Pollianna sindromu” **diaqnozunu** qoyurlar.

“Pollianna sindromu” **konsepsiyası** ilk dəfə 1978-ci ildə psixoloqlar Matlin və Stanq tərəfindən irəli sürülüb. Sindromun adı amerikalı yazıçı Eleanor Porterin əsərinə istinadən yaranmışdır. Əsərin baş qəhrəmanı Pollianna həyata **pozitiv** yanaşır, başına gələnlər üçün səbir edir, hər şeydə şükür etməyə səbəb tapır. O bu xüsusiyyəti ilə həm özünün, həm də ətrafındakıların həyatına müsbət təsir edir. Təsadüfi deyil ki, ədəbiyyatçılar Polliannanı ən nikbin ədəbi **personaj** adlandırmışlar.

Layihə

İlk baxışda, **neqativ** emosiyaları büruzə verməmək, daim pozitiv əhvali-ruhiyyədə olmaq müsbət keyfiyyət sayıla bilər. Bu davranış, yəqin ki, ətrafdakılarda xoş təəssürat yaradır. Bəs neqativ duyğuları daim içində saxlamağın insan üçün ***psixoloji*** fəsadları ola bilərmi? İfrat nikbinlik, yəni Pollianna sindromu sağlamlıq üçün hansısa təhlükə yarada bilərmi?

***Psixologiya*** elmi sübut edir ki, acı həqiqəti gizlətməklə daim pozitivlik nümayiş etdirən insan qısa müddət ərzində özünü yaxşı hiss etsə də, sağlamlıq baxımından ciddi problemlərlə üzləşə bilər.

| Pollianna sindromunun xüsusiyyətləri | Pollianna sindromunun fəsadları |
|---|---|
| Reallığı obyektiv şəkildə dəyərləndirmir: həyatdakı problemləri inkar edir və ya kiçildir. | Problemlərin fərqində olmadığı üçün onları həll etməyə çalışmır. |
| Mənfi emosiyaları qəbul etməkdən çəkinir və ya onları gizlədir. | Emosiyaların cilovlanması daxili narahatlıq, stress, depressiya yaradır. |

Deməli, insan kədərli olarkən bunu gizlətməyə çalışmamalıdır. Sevinc, xoşbəxtlik kimi kədər, qorxu və digər mənfi hisslər də insana xas olan duyğulardır. İnsan xoşbəxt olmaq istəyirsə, hadisələrə real yanaşmağı öyrənməlidir.

**Söz boğçası**
• pozitiv • neqativ • diaqnoz
• psixologiya • patologiya
• konsepsiya • personaj

## Söz ehtiyatı

**ç** **“Söz boğçası”nda verilmiş hansı sözlər antonimdir?**

**d** **Verilmiş izahlara uyğun “Söz boğçası”ndan sözlər seçin.**

**1.** İdeyalar, baxışlar və fikirlər sistemi
**2.** Sistemli müayinə əsasında xəstəliyin müəyyən edilməsi
**3.** Orqanizmdə xəstəliklərin yaranması ilə bağlı qanunauyğunluğu öyrənən elm
**4.** İnsanın psixi fəaliyyətinin proses və qanunauyğunluqlarından bəhs edən elm
**5.** Bədii əsərlərdə hadisələrin iştirakçısı; surət, obraz

**e** **Mətndə işlənmiş “psixoloq”, “psixoloji” və “psixologiya” sözlərindən çıxış edərək bu sözlərdə işlənmiş morfemlərin semantik mənasını müəyyənləşdirin.**

| | |
|---|---|
| **1.** -loq | **a.** müəyyən elm sahəsinə aid olan |
| **2.** -loji | **b.** müəyyən elm sahəsi |
| **3.** -logiya | **c.** müəyyən elm sahəsi ilə məşğul olan şəxs |

• **Bu morfemlərin iştirak etdiyi başqa sözlər deyin.**

Layihə

## Düşün və cavab ver

**ə** **Mətnin strukturuna uyğun olaraq ardıcıllığı müəyyən edin. Struktur elementlərini mətnin hissələri ilə əlaqələndirərək ardıcıllığı əsaslandırın.**

- Mövzu ilə bağlı problem açıqlanır.
- Müəllif fikrini əsaslandırmaq üçün arqumentlər gətirir.
- Mövzu ilə bağlı ətraflı məlumat verilir.
- Müəllif mövqeyi qətiləşdirilir və oxucuya tövsiyələr verilir.
- Müəllif elmi nəticələrə əsaslanaraq problemlə bağlı fikir bildirir.

**f** **Cədvəldəki məlumatlardan istifadə edərək "Pollianna" və "Pollianna sindromu" mətnlərini dil-üslub cəhətdən müqayisə edin. Mətnlərdən nümunələr göstərməklə fikrinizi əsaslandırın.**

| *Pollianna* | *Pollianna sindromu* |
|---|---|
| • məcazi mənalı sözlərin çoxluğu<br>• hadisələrin təxəyyülə uyğun təsviri<br>• emosional nitq | • terminlərdən geniş istifadə<br>• fikirlərin məntiqi ardıcıllığı<br>• verbal-qrafik informasiya |

## Dinləmə 14

**4 a** **Qeyd götürməklə "Herostrat sindromu" mətnini dinləyin.**
**• Aşağıdakı nümunəyə uyğun cədvəl tərtib edin və qeydlərinizi cədvəlin müvafiq xanalarında yazın.**

| *İfadədəki eponim* | *Adın ilkin daşıyıcısı* | *Dövr, məkan* | *Hadisə* |
|---|---|---|---|
| | | | |

## Yazı

**b** **"Etimoloji araşdırmaların faydaları" mövzusunda aşağıdakı struktura uyğun arqumentativ esse yazın.**

**Mətnin strukturu**

***Giriş:***
- Mövzu: Etimologiya haqqında ümumi məlumat
- Problem: Sözlərin mənşəyini araşdırmağın nə faydası var?
- Mövqe: ...

***Əsas hissə:***
Mövqenin əsaslandırılması (2-3 arqument)

***Nəticə:***
- Dil bilgilərinin və ümumi dünyagörüşünün genişlənməsində etimoloji biliklərin rolu
- Etimoloji araşdırmaları necə aparmalı? Hansı mənbələrə istinad etməli?

Layihə

# Feili birləşmələr cümlə üzvü kimi

**5 a Hansı cümlənin mübtədası feili birləşmə ilə ifadə olunub?**

**a.** Mənə ingiliscə yazıb-oxumağı Əkbər müəllim öyrədib.
**b.** Bəzi məsələləri aydınlaşdırmaq üçün sabah görüşməliyik.
**c.** Mənsur atı dirəyə bağlayıb taxta pilləkənlərlə yuxarı çıxdı.
**d.** Bu izahatdan sonra məsələni həll etmək o qədər də çətin olmadı.
**e.** Suyun altında qalmış insan məskənləri üzə çıxdı.

**Yadda saxla** Tərkiblər

Feili birləşmələr həm də tərkib adlanır. Tərkiblər əsas tərəfin adı ilə adlanır və üç növə ayrılır:
məsdər tərkibi – ***Ağır idman daşlarını qaldırmaq*** çətin idi.
feili sifət tərkibi – ***Loğmanın köməyinə pənah gətirən*** insanlar naümid qayıtmadılar.
feili bağlama tərkibi – ***Günəş dağların arxasında gizlənəndə*** hər tərəfə sükut çökdü.

**b Cümlələrdəki tərkibləri seçin, uyğunluğu müəyyən edin.**

**1.** Olimpiadada qalib gələn şagirdlərdən müsahibə aldılar.
**2.** Arzuları həyata keçirmək üçün çalışmaq lazımdır.
**3.** Dostlar bu qərarı verəndə hamı onları alqışladı.

**a.** məsdər tərkibi
**b.** feili sifət tərkibi
**c.** feili bağlama tərkibi

**Yadda saxla** Tərkiblərin cümlədə rolu

**Tərkiblər müxtəlif cümlə üzvü vəzifəsində çıxış edir:**
Məsdər tərkibi – mübtəda, tamamlıq, ismi xəbər və zərflik
Öz işində peşəkar olmaq (nə?) hamı üçün vacibdir. *(mübtəda)*
Feili sifət tərkibi – təyin (isimləşəndə – mübtəda, tamamlıq, ismi xəbər)
Pis günü görməyən (hansı?) insan yaxşı günün qədrini bilməz. *(təyin)*
Feili bağlama tərkibi – zaman, tərzi-hərəkət, səbəb, kəmiyyət zərflikləri
Dövlət himni səslənəndə (nə vaxt?) tədbirdəkilər ayağa qaxdı. *(zərflik)*

**c Cümlələrdəki tərkibləri seçin, hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.**

**1.** Gündəlik dərslərə hazırlaşanlar çətinlik çəkmirlər.
**2.** Məqsədimiz olimpiadada birinci yeri tutmaqdır.
**3.** Mən uşaqkən ulduzları seyr etməyi sevərdim.
**4.** Boz dağların arxasından axan Kür susuz səhraları dolaşır.
**5.** Bülbül sanki qəfəsə salındığını anlayıb susmuşdu.

**ç Nöqtələrin yerinə uyğun sözlər artıraraq tərkiblər yaradın. Həmin tərkibləri cümlədə müvafiq cümlə üzvü vəzifəsində işlədin.**

*................. çatar-çatmaz,* *................. qalxmaq,* *................. dalğalanan*

Layihə

# Ümumiləşdirici təkrar

**1** **Hansı cümlələrdə əsas tərəfi məsdərlə ifadə olunan ismi birləşmə iştirak edir?**

1. Mühasirədən çıxmaq böyük qəhrəmanlıq idi.
2. Havaların kəskin soyuması orqanizmə mənfi təsir edir.
3. Yolun çökməsi nəqliyyatın hərəkətini məhdudlaşdırmışdı.
4. Adlı-sanlı xəttatlara hər beytin üzünü köçürmək üçün bir qızıl onluq verirdilər.
5. Xanəndənin yanıqlı səslə "Segah" oxumağı məclisdəkiləri kövrəltmişdi.
6. Radioda "Qubanın ağ alması" xalq mahnısı səsləndirildi.

**2** **Cümlələrdə fərqləndirilmiş sözlərdəki *-ma*[2] şəkilçisinin funksiyasını müəyyən edib cədvəl üzrə qruplaşdırın.**

1. Soyuq havalarda ***toxunma*** jaket ***geyinməsini*** məsləhət gördüm.
2. Ölkəmizdə heyvanların ***qorunması*** üçün ciddi tədbirlər görülüb.
3. Böyüyün sözünə ***baxmayan*** peşman olar.
4. Neft şirkətinin əməkdar ***qazma*** ustaları ilə görüş ***keçirməsi*** planlaşdırılır.
5. Cahildən qorx, dəlidən ***qorxma.***

| leksik şəkilçi | məsdər şəkilçisinin ixtisar forması | feilin inkar şəkilçisi |
|---|---|---|
| | | |

**3** **Müvafiq sözlər əlavə etməklə sadə söz birləşmələrindən mürəkkəb söz birləşmələri yaradın.**

- tələsə-tələsə getmək
- qürbətdə yaşayan
- dağların gözəlliyi
- neft istehsal etmək
- gənclərin çoxu
- ölkənin simvolu
- işdən qayıdanda
- bülbülün oxumağı
- dövlət bayrağı

**4** **Cümlələrdəki mürəkkəb söz birləşmələrini seçin, sualını müəyyən edin.**

1. Bayaqdan kənarda sakitcə dayanan uşaq birdən irəli atıldı.
2. Həsən bəy Zərdabi "Əkinçi" adlı milli qəzetin çap olunmasına nail oldu.
3. Sizin uğur qazanmağınızı eşitmək bizim üçün xoşdur.
4. Milli paltar geyinmiş qızlar və oğlanlar meydandakı tonqalın ətrafında yallı oynadılar.
5. Anası qiymətli əşyaları saxlamaq üçün ona bir mücrü vermişdi.

**5** **Cümlələrdəki tərkibləri seçin, hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.**

1. Açıq pəncərənin qarşısından keçəndə həzin musiqi səsi eşitdim.
2. Kitabxanaya yeni gətirdiyimiz kitabları şagirdlərə göstərin.
3. Hər kəs xalqına sədaqətlə xidmət etməyə çalışmalıdır.
4. Təbiətin nadir sərvətlərini mühafizə etmək çox vacibdir.

Layihə

bölmə 7

# Məktublar

1-ci fəsil

**1 a** **Sizcə, mobil telefon vasitəsilə dostlarınıza və yaxınlarınıza ötürdüyünüz yazılı və ya səsli məlumatları məktub adlandırmaq olarmı?**

**• Müasir dövrdə elektron-kommunikasiya vasitələri ilə ötürülən xəbərlər qırx-əlli il əvvəl yazılan məktublardan nə ilə fərqlənir?**

**b** **Aşağıdakı məktubları oxuyun. Onların məzmun və struktur xüsusiyyətlərinə diqqət yetirin.**

*Salam, ana.*

*Necəsən? Mən gələndə bir az soyuqlamışdın, indi yaxşısanmı? Anacan, bilirəm, hamının qayğısına qalmaq sənin adətindir. Amma özünü də fikirləş, arada dincəl, yeməyinə fikir ver. Atam, Kamran, Laman necədirlər? Mən cəbhəyə yollananda Kamran söz vermişdi ki, dərslərini yaxşı oxuyacaq, sənə də ev işlərində kömək edəcək. Yəqin ki, sözünün üstündə durur. Dəcəl Lamanın şirin danışığı, məzəli hərəkətləri üçün lap burnumun ucu göynəyir.*

*Anacan, məndən nigaran qalma. Hər şey qaydasındadır. Atamı da fikir eləməyə qoyma. Axı ürəyi xəstədir. Dərmanlarını vaxtında içirmi?*

*Sənə zəng etmədiyim üçün incimə. Burada mobil telefondan istifadəyə icazə verilmir. Buna görə də imkan tapdıqca məktub yazacağam.*

*Ana, sən də mənə məktub yaz. Ailəmiz haqqında hər bir xəbəri səbirsizliklə gözləyirəm. Kamrana de, tənbəllik eləməsin, o da məktub yazsın.*

*Məndən hamıya: qohumlara, qonşulara salam söylə. Səni bərk-bərk öpüb bağrıma basıram.*

*Oğlun Murad.*
*12 oktyabr 2020-ci il.*

*P.S. Ana, dünən qonşumuz Sevil xalanın oğlu Ramini gördüm. O da bizim hərbi hissədə qulluq edir. Sənə çoxlu salamı var.*

**Qlossari**

**P.S. (Postskriptum)** – yazılıb imzalanmış məktubun sonuna əlavə olunan zəruri qeyd. Postskriptum məktubda P.S. işarəsi ilə qeyd olunur.

**c** **Məktuba əsasən Murad və onun öz ailə üzvlərinə münasibəti haqqında fikirlərinizi söyləyin.**

**ç** **Sizcə, nə üçün əsgərlərə mobil telefondan istifadəyə icazə verilmir?**

Layihə

**Diqqət et**

Müraciət edilən ünvandan asılı olaraq, məktublar şəxsi və rəsmi-işgüzar xarakterli olur. Onlar məzmununa, strukturuna və dil-üslub xüsusiyyətlərinə görə fərqlənir.

**Şəxsi məktublar**, adətən, qohum və dostlara ünvanlanır. Bu məktublar hal-əhval tutmaq, təəssüratlarını bölüşmək və ya baş vermiş hadisə haqqında məlumat vermək məqsədilə yazılır. Şəxsi məktubların strukturu və üslubu daha sərbəst olur. Burada danışıq üslubuna xas söz və ifadələrdən, məcazlardan istifadə edilə bilər.

Rəsmi qurumlara və məsul şəxslərə ünvanlanan məktublar isə **rəsmi-işgüzar məktublardır**. Bu məktublar təklif, şikayət, izahat, xəbərdarlıq və s. məzmunlu ola bilər. İşgüzar məktubların standart strukturu olur. Məktub yazılarkən ünvan, yəni kimə və haraya yazılacağı dəqiq müəyyən olunmalıdır.

BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

26 sentyabr 2025-ci il

Bakı şəhəri Nizami rayonu *N* saylı məktəbin
direktoru cənab Yalçın Əlizadəyə

Hörmətli Yalçın bəy,

Məktəbinizin məzunu Cavadlı Gülnar Arif qızı qəbul imtahanlarından yüksək bal (675) toplayaraq kimya mühəndisliyi ixtisası üzrə Bakı Ali Neft Məktəbinin tələbəsi adını qazanmışdır.

Gülnar Cavadlının bu uğuru Sizin və müəllimlərinizin fədakar əməyinin nəticəsidir. Ölkəmizin gələcək inkişafı üçün zəngin elmi biliklərə və milli-mənəvi dəyərlərə malik nümunəvi gənclər yetişdirdiyinizə görə Siz başda olmaqla, rəhbərlik etdiyiniz məktəbin müəllim kollektivinə öz dərin təşəkkürümü bildirirəm. Eyni zamanda bizim təbrikimizi və minnətdarlıq hisslərimizi fədakar müəllimlərinizə çatdırmağınızı xahiş edirəm.

***Hörmətlə,***
***Rektor*** ***Elmar Qasımov***

**d** **Oxuduğunuz işgüzar məktub hansı məqsədlə yazılmışdır?**

**e** **Tanış olduğunuz şəxsi və işgüzar məktubları məzmun, struktur və dil-üslub baxımından müqayisə edin.**

Layihə

**2a** **Tabloda nə təsvir olunub? Sizcə, rəssam bu əsərində hansı mövzuya müraciət edib?**



*Vasili Perov. "Üçlük"*
*("Su daşıyan uşaqlar")*

## Vanka

Doqquz yaşlı Vanka Jukovu üç ay əvvəl çəkməçi Alyaxinə şagirdliyə vermişdilər.

Milad gecəsi idi. Ağalar və usta köməkçiləri pasxa ibadəti üçün kilsəyə getmişdilər. Vanka şkafdan mürəkkəbqabı və ucu paslanmış qələm götürdü. Sonra əzik bir kağız parçası tapıb skamyanın üstünə qoydu. Bir neçə dəfə qorxa-qorxa qapıya və pəncərələrə baxdı. Nəhayət, çömbəlib qələmi mürəkkəbə batırdı və yazmağa başladı.



"Əziz babam Konstantin Makarıç. Sənin Milad bayramını təbrik edirəm. Allah sənin kölgəni mənim üstümdən əskik eləməsin. Özün bilirsən, mənim nə atam var, nə anam. Bircə sənə **pənah gətirə** bilərəm".

*Bunu yazıb Vanka xəyala daldı.* Varlı malikanədə gecə gözətçisi işləyən babası Konstantin gözləri önünə gəldi. Altmış beş yaşlı Konstantin Makarıç balacaboy, arıq, ancaq çox zirək, eyni zamanda gülərüz, zarafatcıl kişi idi. İndi, yəqin, o, darvazanın yanında dayanıb, gözlərini qıyaraq kənd kilsəsinin işıq saçan qırmızı pəncərələrinə baxır. Hava çox gözəldir. Qaranlıq olsa da, bütün kəndi – evlərin ağ damlarını, borulardan burularaq çıxan tüstünü, **qırovun** gümüşü rəngə boyadığı ağacları, qar komalarını görmək mümkündür. Səma başdan-başa **sayrışan** ulduzlarla doludur, Süd Yolu isə elə aydın görünür ki, sanki onu bayramqabağı yuyub qarla sürtüblər...

*Vanka dərindən ah çəkdi, yenidən qələmi mürəkkəbə batırıb yazmağa davam etdi:*

"Dünən məni əməlli-başlı kötəklədilər.

**Qlossari**

**Pasxa** – İsanın çarmıxa çəkilməsindən üç gün sonra dirilməsi münasibətilə qeyd edilən xristian bayramıdır.

**Süd Yolu** – Günəş sisteminin də daxil olduğu qalaktika.

Layihə

Ağanın körpəsini beşikdə yırğalayanda, necə olubsa, yuxuya getmişəm. Bunu biləndə ağa saçımdan tutub məni həyətə sürüdü, qayışla o ki var döydü. Keçən həftə də xanım tapşırmışdı ki, siyənək balığını təmizləyim. Sonra balığı əlimdən alıb ağız-burnuma **təpdi** ki, bəs niyə siyənəyi quyruğundan təmizləməyə başladın. Usta köməkçiləri məni ələ salırlar, meyxanaya araq almağa göndərirlər, məcbur eləyirlər ki, mətbəxdən xiyar oğurlayım. Ağam da biləndə əlinə keçəni başıma çırpır. Düz-əməlli yemək də vermirlər. Səhər qabağıma bir parça çörək atırlar, nahara sıyıq, axşam yenə çörək. Çayı, şorbanı isə özləri **tıxırlar.** Gecələr soyuq dəhlizdə yatıram. Amma onların körpələri ağlayanda yuxu da mənə **haram** olur, bütün gecəni beşik yırğalayıram. Əziz babam, səni and verirəm Allaha, məni kəndə, evimizə apar, yoxsa mənə burada həyat yoxdur. Ayaqlarının altında ölüm, apar məni. Ömür boyu duaçın olaram. Bax indi aparmasan, sonra meyitimin dalınca gələcəksən...”

*Vanka doluxsundu, çirkli əlləri ilə gözlərini sildi və dözməyib hıçqırdı.*

“Kənddə sən nə desən, eləyərəm. Yox, əgər nəyi isə səhv eləsəm, ayağının altına salıb istədiyin qədər çırparsan məni. Elə fikirləşmə ki, mənə bir iş tapılmaz. Yox, lazım gəlsə, ağaların çəkməsini təmizləyərəm, ya çobana kömək eləməyə gedərəm. Əziz babam, vallah, bura mənim üçün cəhənnəmdir. İstəyirdim, piyada kəndə qaçım, di gəl, çəkməm yoxdur, şaxtadan qorxuram. Böyüyəndə sənin qulluğunda duraram, qoymaram kimsə səni incitsin. Sən öləndə isə ruhuna dualar oxuyaram.

Əziz baba, ağaların evində Milad yolkası qurulanda mənə də hədiyyə götürüb saxlayarsan. Xanım Olqa İqnatyevnadan xahiş eləyərsən, deyərsən ki, Vanka üçündür”.

*Vanka kənddə keçirdiyi xoşbəxt günləri həsrətlə xatırladı.* Milad yaxınlaşanda ağalar yolka qurmaq üçün babanı meşəyə küknar dalınca göndərirdilər. Baba Vankanı da özü ilə aparırdı. Necə şən günlər idi! Yolda soyuqdan büzüşən nəvəsinə baxıb mehribanlıqla gülümsəyirdi... Qırov basmış cavan küknarlar hərəkətsiz halda dayanıb gözləyirdilər: görəsən, onlardan hansının axırı çatıb?..

Baba kəsdiyi küknarı ağanın evinə gətirirdi. Orada hamı Milad yolkası qurmaq üçün işə girişirdi. Ən çox xanım Olqa İqnatyevna canfəşanlıq edirdi. Vanka onun xətrini çox istəyirdi. Xanım tez-tez ona şirni verir, bikarçılıqdan yazıb-oxumağı, yüzə qədər saymağı, hətta rəqs etməyi öyrədirdi. Vankanın anası Pelageya malikanədə xadimə işləyən vaxtlar hər şey yaxşı idi. Sonra Pelageya vəfat etdi və yetim Vankanı nökərlərin mətbəxinə, oradan isə Moskvaya, çəkməçi Alyaxinin yanına göndərdilər...

“Əziz babam, – Vanka məktubuna davam etdi, – səni İsa Məsihə and verirəm, gəl məni burdan apar. Bədbəxt yetiməm, mənə yazığın gəlsin. Daha nə qədər döyülmək olar, kötək yeməkdən, ac qalmaqdan canım sıxılır, oturub-durub ağlayıram. İt həyatı yaşayıram... Tez gəl, əziz babam. Nəvən İvan Jukov”.

**Söz boğçası**

• sayrışmaq • təpmək • haram • tıxmaq
• doluxsunmaq • pənah gətirmək • qırov

Layihə

Vanka kağızı dörd qatlayıb az əvvəl bir qəpiyə aldığı zərfə qoydu. Qələmi mürəkkəbə batırıb zərfin üstündə ünvanı yazdı:

“Kəndə. Babama”.

Sonra başını qaşıdı, nə isə düşünüb əlavə etdi: “Konstantin Makarıça”.

Vanka çox şad idi ki, məktub yazmağa heç kim ona mane olmadı. Tez-tələsik papağını geyib küçəyə çıxdı. Ona demişdilər ki, məktubu poçt qutusuna atmaq lazımdır. Oradan məktubları götürüb ünvanlara çatdırırlar. Vanka özünü poçt qutusuna çatdırdı və qiymətli məktubunu qutunun yarığından içəri saldı.



Bir saat sonra Vanka şirin xəyallarla dərin yuxuya getmişdi. Yuxuda sobanın yanında oturaraq onun məktubunu oxuyan babasını görürdü...

## Söz ehtiyatı

**b** **Hekayədə hadisələr 3-cü şəxsin və Vankanın dilindən nəql olunur. Onların nitqləri arasındakı fərqi izah edin.**

**• “Söz boğçası”ndakı söz və ifadələrin kimə – 3-cü şəxsə, yoxsa Vankaya aid olduğunu müəyyənləşdirin.**

**• Bu söz və ifadələrə, eləcə də mətnə əsasən onların nitqini müqayisə edin.**

## Nə anladın?

**c** **Mətnin ilk cümləsindən və Vankanın yazdığı məktubun ilk abzasından onun haqqında hansı məlumatları almaq mümkündür?**

**ç** **Vankanın həyatının ən xoş anları nə ilə əlaqədardır? O həmin günləri necə xatırlayır?**

## Düşün və cavab ver

**d** **Hekayənin əvvəlində hansı məqamlar aşağıdakı qənaətə gəlməyə imkan verir?**

*Vanka ağasından xəbərsiz məktub yazdığı üçün qorxur.*

**e** **1-ci abzasda verilmiş cümlələri bir daha oxuyun. Bu bədii detal Vankanın yaşadığı ailə haqqında hansı qənaətə gəlməyə imkan verir?**

Vanka şkafdan mürəkkəbqabı və ucu paslanmış qələm götürdü.
Sonra əzik bir kağız parçası tapıb skamyanın üstünə qoydu.

**ə** **Sizcə, Olqa İqnatyevnanı müsbət obraz hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**

**f** **Vankanın yazdığı məktub babasına çatacaqmı? Cavabınızı əsaslandırın.**

Layihə

**g** **Müvafiq epizodlara əsaslanaraq Vankanın keçirdiyi psixoloji-emosional hallarla bağlı cədvəli tamamlayın.**

| *Psixoloji-emosional hallar* | *Əlaqədar olduğu epizod* |
|---|---|
| *... Vanka xəyala daldı.* | |
| *Vanka dərindən ah çəkdi ...* | |
| *Vanka doluxsundu ... hıçqırdı.* | |
| *Vanka kənddə keçirdiyi xoşbəxt günləri həsrətlə xatırladı.* | |

**3 a** **Sizcə, Vanka nə üçün babasına məktubu məhz Milad gecəsində yazır?**

**b** **“Vanka” hekayəsi haqqında aşağıdakı rəyi oxuyub təxmininizlə müqayisə edin.**

### Arzuların çin olduğu gecə və xəyalların puç olduğu həyat

Anton Çexovun “Vanka” hekayəsi 1886-cı ildə “Peterburq” qəzetinin yeni il nömrəsində Milad hekayələri arasında çap olunmuşdu. Milad hekayələri XIV–XV əsrlərdə yaranmış, XIX əsrdə çox populyar olmuş ədəbi janrdır. Bu hekayələrin mövzusu Milad bayramı ilə əlaqədar olur və hadisələr də Milad bayramı ərəfəsində baş verir. Ənənəvi Milad hekayələri, adətən, işıqlı və fərəhli finalla bitir. Hekayə qəhrəmanları müəyyən problemlə üzləşir, mənəvi böhran keçirirlər. Bu böhrandan çıxmağa yalnız möcüzə kömək edə bilər. Və möcüzə baş verir. Özü də çox zaman ilahi qüvvələrin işə qarışmasının və ya xoşbəxt təsadüfün sayəsində. Bəzən Milad hekayəsinin strukturuna fantastika elementi də daxil edilir.

“Vanka” hekayəsinin süjet xətti çox maraqlı bir detalla başlayır – Milad gecəsi Vanka yatmır, babasına məktub yazır. Niyə məhz bu gecə? Çünki bu, sehrli gecədir, arzuların gerçəkləşdiyi gecədir... Vanka da məktubu böyük ümidlə yazır. Babasının məktubu oxuyub onu kəndə aparacağına inanır. Lakin oxucu başa düşür ki, məktub kəndə çatmayacaq, baba Vankanın faciəsindən xəbər tutmayacaq və gəlib nəvəsini xilas etməyəcək. Beləliklə, “Vanka” hekayəsində möcüzə baş vermir, əsər, bir növ, “antimilad” xarakteri daşıyır. Əvəzində hekayədə bütün dövrlərin ən vacib məsələlərindən biri qaldırılır. Anton Pavloviç Çexov insanları uşaqların sevgi və qayğı əhatəsində yaşamaq haqqını qorumağa çağırır. Oxuculara “hər bir uşağın arzuları təkcə Milad gecəsi deyil, həmişə çin olmalıdır” kimi humanist ideyanı aşılamağa çalışır.

Layihə

**c** **Hekayənin məzmunundan çıxış edərək rəyin başlığını şərh edin. Bu başlıqda hansı bədii ifadə vasitəsindən istifadə edilmişdir?**

**ç** **Milad hekayələrində, adətən, nədən bəhs olunur?**

**d** **Rəydə "Vanka" hekayəsinin "antimilad" xarakter daşıması fikri səsləndirilir. Bu fikri izah edin və əsaslandırın.**

**e** **"Vanka" hekayəsini elə davam etdirin ki, Milad hekayəsinin tələblərinə cavab versin.**

## Yazı

**4 a** **Əsərə uşaq əməyinin istismarı aspektindən yanaşaraq rəy yazın. A.P.Çexovla bağlı bioqrafik məlumatdan və təlimatdan istifadə edin.**

**Qlossari**

**Aspekt** – bir şeyə müəyyən bucaq altından baxış; nöqteyi-nəzər.

**Bioqrafik məlumat**

*Çexovu uşaq əməyinin istismar edilməsi mövzusu həmişə narahat etmişdir. Çexovun öz uşaqlıq illəri də ağır keçib. Kiçik yaşlarından atasının ərzaq dükanında çalışmalı olub. Gələcək yazıçı qardaşları ilə birgə hər gün gecəyarısına qədər dükanda işləyib, uşaqların nəinki əylənmək, heç dincəlmək üçün vaxtları olmayıb. Üstəlik ataları ən kiçik səhvə görə onları qəddarcasına döyüb. Təsadüfi deyil ki, böyük qardaşına göndərdiyi məktubların birində Çexov "Mənim uşaqlığım olmayıb" yazmışdı.*

**Təlimat**

**Ümumi məlumat:** əsərin müəllifi, yazılma tarixi
**Əsərin mövzusu:** müəllifin toxunduğu problem
**Əsərin məzmunu:** süjet xətti ilə bağlı ümumi məlumat
**Əsərin ideyası:** müəllifin oxucuya çatdırmaq istədiyi fikir
**Əsərin baş qəhrəmanı:** ideyanın açılmasında baş qəhrəmanın rolu
**Köməkçi obrazlar:** digər obrazların baş qəhrəmanın həyatındakı yeri
**Əsərin strukturu:** müəllif nitqi ilə məktub mətninin növbələşməsi
**Əsərin dil-üslub xüsusiyyətləri:** obrazın nitqində məişət üslubu
**Nəticə:** pessimist sonluq
**İmza**
**Tarix**

**Qlossari**

**Məişət üslubu** – insanların məişətdəki danışıq tərzi. Yazıda bu üslubdan dialoji nitqdə geniş istifadə edilir.

Layihə

## Feili xəbər və ismi xəbər

**5 a Aşağıdakı cümlələrdə mübtəda və xəbəri seçin. Hansı cümlədə xəbər mübtədaya aid hərəkəti, hansında hökmü bildirir?**

*1. Anton Çexovun "Vanka" hekayəsi 1886-cı ildə yazılmışdır.*
*2. "Vanka" hekayəsinin müəllifi məşhur rus yazıçısı Çexovdur.*

**Yadda saxla**

Xəbər cümlədə mübtədaya aid hərəkət və ya hökmü bildirir.
İfadə vasitələrinə görə xəbər iki növə ayrılır: ***feili xəbər və ismi xəbər.***
**Feili xəbər** hərəkət bildirir, feilin təsriflənən formaları (şəkilləri) ilə, eləcə də frazeoloji birləşmələrlə ifadə olunur. Məsələn:
• *Səhərdən qar yağır.* • *Ətrafdakı mənzərə göz oxşayırdı.*
**İsmi xəbər** hökm bildirir, xəbərlik şəkilçisi qəbul etmiş sözlər (isim, sifət, say, əvəzlik, zərf, məsdər, feili sifət) və söz birləşmələri ilə ifadə olunur.
• *O mənim qardaşımdır.* • *Oxuduğum kitab çox maraqlıdır.*
• *Musiqi notlarının sayı yeddidir.* • *Əqrəbin adəti sancmaqdır.*

**b Cümlələrdə feili xəbərin ifadə vasitəsi ilə bağlı uyğunluğu müəyyən edin.**

**a.** feilin xəbər şəkli **b.** feilin əmr şəkli **c.** feilin arzu şəkli
**ç.** feilin lazım şəkli **d.** feilin vacib şəkli

**1.** Sabah dostumun ad gününə gedəsiyəm. **a b c ç d**
**2.** Fidan oxuduğu kitaba rəy yazdı. **a b c ç d**
**3.** Sabahkı tədbirə hamı gəlməlidir. **a b c ç d**
**4.** Kaş ki o da işinə məsuliyyətlə yanaşa. **a b c ç d**
**5.** Bu məsələyə siz də münasibət bildirin. **a b c ç d**

**Yadda saxla**

İsmi xəbərin inkarını bildirmək üçün *deyil* sözündən istifadə edilir:
• *Qarşılaşdığım problem mənim üçün yeni deyil.*
*Yox, var, lazım, gərək, mümkün, bəs* sözləri də suala cavab vermədən müstəqil ismi xəbər kimi işlənə bilir:
• *Bu məsələnin çox asan həll yolu var.* • *Hər bir işə məsuliyyətlə yanaşmaq lazımdır.*

**c Nöqtələrin yerinə *var, yox, lazım, mümkün* sözlərini işlədərək cümlələri ismi xəbərlə bitirin.**

**1.** Yarışda qalib gəlmək üçün bizə bircə xal ... .
**2.** Hər qaranlıq gecənin bir işıqlı səhəri ... .
**3.** Daha sənə sözüm ... .
**4.** Bu məsələni yalnız bir üsulla həll etmək ... .

Layihə

**1a** **Müəllimin şagirdlərin həyatındakı rolu barədə nə deyə bilərsiniz?**

**Tarixi arayış**

***Avraam Linkoln*** *(1809–1865) – Amerika Birləşmiş Ştatlarının 16-cı prezidenti (1861–1865). Linkoln dünyanın ən məşhur şəxsiyyətlərindən biridir. ABŞ-də quldarlığın ləğvini təmin etmiş, bununla da əsl milli qəhrəmana çevrilmişdir. O, indiyə qədər Amerika xalqının ən sevimli prezidentidir.*

## Avraam Linkolnun oğlunun müəlliminə məktubu



**1.** Hörmətli müəllim, bu gün mənim oğlum ilk dəfə məktəbə qədəm qoyur. Onun üçün hər şey yenidir, qeyri-adidir. Hələ bilmir ki, bu həyatda onu **keşməkeşli** yollar gözləyir. Həmin yollarda müharibə də olacaq, kədər də, iztirab da. Mən inanıram ki, siz ona qarşı həssas və mərhəmətli olacaqsınız. Xahiş edirəm, onun əlindən tutun və həyat yolunun **dolanbacları** ilə irəliyə doğru aparın.

**2.** O bilməlidir ki, heç də bütün insanlar səmimi və ədalətli deyillər. Mən başa düşürəm, o bunu biləndə xeyli məyus olacaq. Amma siz ona başa salın ki, hər zalımın qarşısına gec-tez bir qəhrəman çıxacaq, hər eqoist siyasətçini xalqına sadiq bir lider əvvəl-axır *yerində oturdacaq.*

**3.** Oğluma deyin ki, düşmən varsa, dost da tapılacaq. Ona ləyaqətlə uduzmağı da öyrədin, qələbədən həzz almağı da. Amma qoy bilsin ki, ağılsız və lovğa adamlara qalib gəlmək çox asandır, buna görə **qürrələnməyə** dəyməz.

**4.** Bir də, paxıllıq hissinin onun qəlbinə yaxın düşməsinə imkan verməyin. Ləyaqətli həyat yaşamaq üçün insana nəciblik, inam və məhəbbət gərəkdir. Ona anladın ki, qazanılmış bir dollar təsadüfən əldə edilmiş beş dollardan daha üstündür.

**5.** Yeri gələndə ona vaxt verin ki, təbiətin əbədi sirləri haqqında düşünsün; göydə süzən quşları, yaşıl yamaclarda bitən çiçəkləri, onların üzərində uçuşan arıları seyr etsin. Çalışın, oğlumda kitaba maraq yaradasınız. Ona bu kitablardakı müdrikliyi tapmağın yollarını öyrədin.

**6.** Həyatda uğursuzluğa düçar olmaq daha şərəflidir, nəinki fırıldaqçılıqla qələbə qazanmaq. Oğlum mütləq bunu dərk etməlidir. Öz ideallarına inanmağı və sadiq qalmağı öyrədin, qoy heç kimin onu şərəfli yoldan çəkindirməsinə imkan verməsin. Əgər onun öz ideallarına inamı olsa, onda bəşəriyyətə inamı da yenilməz olacaq.

Layihə

**7.** Ona güc verin ki, hamı qalib tərəfə axışanda kor-koranə kütlə arxasınca getməsin, öz ağlına və qəlbinə *bel bağlasın*. O hamını dinləməyi bacarmalıdır, amma eşitdiklərini və gördüklərini həqiqət **prizmasından** dəyərləndirməli və xeyri şərə qurban verməməlidir. Oğluma sonsuz yalan axınında həqiqəti tapmağı öyrədin.

**8.** Bacarsanız, ona qorxu və kədərin üzünə gülməyi öyrədin. Onu da deyin ki, göz yaşlarını gizlətməyə ehtiyac yoxdur. Həyatda hər bir **iflasın** sonunda uğur dayana bilər, eləcə də hər yüksəlişdən sonra onu bir eniş gözləyə bilər.

**9.** Onun bacarıq və istedadını düzgün istiqamətə yönəldin. Ona öz beynini və əzələ gücünü mümkün qədər yüksək qiymətə satmağı öyrədin, amma qoy heç vaxt ürəyi və qəlbi ilə alver eləməsin.

**10.** Onunla yumşaq davranın, amma heç vaxt **ifrat** nəvazişə yol verməyin. Qoy kifayət qədər mərdliyi olsun ki, pisliyə qarşı davam gətirə bilsin.

**11.** Bilirəm ki, bu dediklərimi həyata keçirmək o qədər də asan deyil. Amma yenə də siz bacardığınızı eləyin... Mənim oğlum... Baxın o necə yaxşı uşaqdır!

**Söz boğçası**
- keşməkeşli • dolanbac • ifrat
- qürrələnmək • prizma • iflas

## Söz ehtiyatı

**b** **8-ci abzasda işlənmiş "iflas" sözünün həqiqi mənası ilə tanış olun:**
*Bankın, tacirin və s.-nin borcunu vaxtında ödəyə bilməməsi nəticəsində müflis olması.*
• **Sözün həqiqi mənasından çıxış edərək mətndəki məcazi mənasını müəyyənləşdirin.**

**c** **Aşağıdakı ifadələri izah edin. Hansında məcazi mənalı sözlər işlədilmişdir?**

*1) kənd yolunun dolanbacları*
*2) həyat yolunun dolanbacları*

**ç** ***Prizma* sözü ilə bağlı verilənlərə əsaslanaraq "gördüklərini həqiqət *prizmasından* dəyərləndirmək" ifadəsini izah edin.**

• Ağ işıq şüşədən hazırlanmış üçbucaqlı prizmadan keçərkən fərqli bucaq altında sınır və müxtəlif rənglər şəklində yayılır. Beləliklə, biz ağ işığın prizma tərəfindən göy qurşağının rənglərinə ayrıldığını görürük.
• Məcazi mənada *prizma* sözü hər hansı problemə, hadisəyə fərqli yanaşma, baxış nöqtəsi anlamında işlənir.



*İşığın prizmadan keçməsi*

**d** **Mətndə işlənmiş "yerində oturtmaq" (2-ci abzas), və "bel bağlamaq" (7-ci abzas) ifadələrini izah edin.**

Layihə

## Düşün və cavab ver

**e** **Linkoln oğlunda hansı mənəvi dəyərləri görmək istəyirdi?**
**• Mətnin hər bir abzasına uyğun açar sözləri müəyyən edin.**

**ə** **Oxuduğunuz mətnin başlığındakı ikimənalılığa diqqət yetirin. Sizcə, bu ifadəni səsləndirərkən hansı sözdən sonra pauza vermək lazımdır ki, məktubun Linkoln tərəfindən yazıldığı nəzərə çatdırılsın?**

**a.** Avraam Linkolnun oğlunun müəlliminə məktubu
**b.** Avraam Linkolnun oğlunun müəlliminə məktubu

**• Söz birləşməsini elə dəyişdirin ki, məna dəqiq ifadə olunsun.**

**2 a** **Qruplarla iş.** **Nümunədən istifadə edərək məktubun müxtəlif abzaslarında ifadə olunan fikirləri öz sözlərinizlə şərh edin.**

Nümunə

**2-ci abzas:** Avraam Linkoln başa düşür ki, oğlu öz həyatında bir çox xəyanət və yalanlarla qarşılaşacaq. Ona görə də istəyir ki, müəllimi onu bu sarsıntılara əvvəlcədən hazırlasın və yer üzündə ədalətin əvvəl-axır qalib gələcəyinə əminlik yaratsın.

**I qrup:** **III-IV abzaslar**
**II qrup:** **V-VI abzaslar**
**III qrup:** **VII-VIII abzaslar**
**IV qrup:** **IX-X abzaslar**

**b** **Aşağıdakı cümlədə ifadə olunan fikri şərh edin. Həmin cümlədəki bədii ifadə vasitələrini müəyyən edin.**

*Ona öz beynini və əzələ gücünü mümkün qədər yüksək qiymətə satmağı öyrədin, amma qoy heç vaxt ürəyi və qəlbi ilə alver eləməsin.*

**c** **Mətndəki daha hansı cümlələri aforizm kimi qəbul etmək olar?**
**• Aforizmdə ifadə olunan fikri şərh edin.**
**• Aforizmdə işlənmiş bədii ifadə vasitələrini müəyyən edin.**

**ç** **Həyatdan nümunələr gətirməklə aşağıdakı aforizmdə verilmiş fikri əsaslandırın.**

*Əgər mənim ağacı yarmağa səkkiz saat vaxtım olsaydı, mən dörd saatımı baltanı itiləməyə sərf edərdim. (Avraam Linkoln)*

Layihə

**3 a** **Albert Eynşteyn kimdir? Onun haqqında nə bilirsiniz?**
**Fizika fənnində Eynşteynlə bağlı aldığınız bilgilər haqqında məlumat verin.**

## Dinləmə 15




**b** **"Eynşteynin Atatürkə tarixi məktubu" mətnini qeyd götürməklə dinləyib suallara cavab verin.**

1. A.Eynşteyn Atatürklə bağlı fikirlərini kimə söyləmişdi?
2. Eynşteyn Atatürkə məktubu nə vaxt və nə üçün yazmışdı?
3. Türkiyənin ovaxtkı təhsil naziri Eynşteynin təklifinə nə üçün mənfi cavab vermişdi?
4. Eynşteyn Atatürkün Türkiyəyə gəlib işləmək təklifini nə üçün qəbul edə bilməmişdi?
5. Mətndəki hadisələr Atatürkün dövlət xadimi kimi hansı keyfiyyətlərindən danışmağa imkan verir?

**c** **Aşağıdakı məktubları oxuyun və tapşırıqları yerinə yetirin.**

### MƏKTƏBLİ QIZIN EYNŞTEYNƏ MƏKTUBU

Hörmətli cənab Eynşteyn, məktəbdə dərs zamanı bizdə belə bir sual yarandı: alimlər dua edirlərmi? Edirlərsə, nə haqda edirlər? Bu sualımızdan digər sual da yarandı: biz eyni zamanda həm elmə, həm də dinə inana bilərikmi? Hazırda digər alimlərə və elm sahəsində görkəmli şəxslərə məktub yazırıq, onların bizim məktubumuza cavab verəcəklərinə ümid edirik. Sualımızı cavablandırsanız, bu bizim üçün böyük şərəf olar.

Hazırda altıncı sinifdə - missis Ellisin sinfində oxuyuram.

Hörmətlə, Fillis

19 yanvar 1936-cı il




**Qlossari**

**Bazar günü məktəbi** – xristian məbədlərində uşaqların və böyüklərin ibtidai təhsil almaları üçün təşkil edilən məktəb. Dərslər, adətən, istirahət günü (bazar) keçirildiyi üçün belə adlandırılmışdır.

**ç** **Fillisin məktubunu bir sual cümləsi ilə ifadə edin.**

Layihə

**Bir neçə gündən sonra Eynşteyn məktuba cavab yazaraq Fillisə göndərir:**

*Hörmətli Fillis, sualına bacardığım qədər sadə dildə cavab verməyə çalışacağam. Mənim cavabım: Alimlər hesab edirlər ki, bütün hadisələr və hətta insanların fəaliyyəti təbiətin qanunları sayəsində baş verir. Bu səbəbdən hansısa alim hadisələrin **gedişatına** duaların təsir edəcəyini düşünmür. Buna baxmayaraq, etiraf etməliyik ki, fövqəltəbii güclər haqqında biliklərimiz bəsitdir. Buna görə də vahid **ruhla**[1] bağlı inanclarımız **imana** əsaslanır. Elmin müasir inkişafına baxmayaraq, bu inanclar bütün dünyada geniş yayılıb. Bundan savayı, elmin dərinliklərinə **varan** hər bir şəxs fövqəltəbii, insan **ruhundan**[2] dəfələrlə güclü ruhun bəşəriyyətin qanunlarını idarə etdiyinə əmin olur. Beləliklə, elm ilə məşğul olmaq insanda uydurma dini inanclardan fərqlənən xüsusi növ dini hissin yaranmasına gətirib çıxarır.*

*Hörmətlə, sizin A.Eynşteyn*
*23 yanvar 1936-cı il*



**Söz boğçası**
- gedişat • iman
- varmaq • ruh

## Söz ehtiyatı

**d** ***Dua** və **iman** sözlərini izah edin.*

| Sözlər | İzah üçün açar sözlər | Hiperonim |
|---|---|---|
| ***dua*** | *Allah, müqəddəslər, arzu, təşəkkür* | *müraciət* |
| ***iman*** | *Allah, peyğəmbər* | *etiqad, inam* |

**e** **Aşağıdakı izahlarla mətndə nömrələnmiş “ruh” sözləri arasında uyğunluğu müəyyən edin.**

**a.** İnsanın daxili halı, mənəvi qüvvəsi, həvəs, duyğu. *Əsgərlərin döyüş ruhu.*
**b.** Dini və mifoloji təsəvvürə görə, kainatda hər şeyin əsasını təşkil edən fövqəltəbii varlıq. *Müqəddəs ruhun varlığına inam.*

Ruh [1] **a** **b**
Ruh [2] **a** **b**

**Qlossari**
**Fövqəltəbii** – təbiət qanunları ilə izah oluna bilməyən, qeyri-adi.

## Düşün və cavab ver

**ə** **Eynşteynin fikirlərini səbəb-nəticə əlaqəli üç cümlə ilə ifadə edin.**

**f** **Sizcə, Eynşteyn öz məktubuna P.S. əlavə etsəydi, nə yazardı?**

**4 a** **Qruplarla iş. Verilmiş təbiət hadisələrini elmi cəhətdən izah etməklə A.Eynşteynin məktubunda altından xətt çəkilmiş cümləni genişləndirin.**

**I qrup:** Yağışın yağması
**II qrup:** Yuxarı atılan əşyanın yerə düşməsi
**III qrup:** Göy qurşağının yaranması
**IV qrup:** İldırımın çaxması və göy gurultusu

Layihə

# Mübtəda və xitabın fərqləndirilməsi

**5 a** **Aşağıdakı cümlələrin hansında “dostum” sözü:**
**1) daha yüksək intonasiya ilə deyilir?**
**2) heç bir suala cavab vermir?**

- Dostum həmişə mənə kömək edir.
- Dostum, bu gün də səndən kömək gözləyirəm.

**Yadda saxla**

Cümlədə müraciət bildirən sözlərə və söz birləşmələrinə **xitab** deyilir.
***Vətən oğlu,*** *keşiyində durduğun bu torpaq sənə babalarından əmanətdir.*
Xitab ismin adlıq halında olur və bu cəhətdən mübtədaya oxşayır. Lakin nəzərə almaq lazımdır ki, xitab:
**1)** cümlə üzvü olmur;
**2)** qrammatik cəhətdən digər sözlərlə əlaqələnmir;
**3)** yazıda durğu işarəsi (vergül, nida) ilə ayrılır.
Xitab yüksək intonasiya ilə deyildikdə ondan sonra nida işarəsi qoyulur.
***Vidadi! Vidadi!*** *Gözlərin aydın! Vaqif qonaq gəlir... (S.Vurğun)*

**b** **Xitabları müəyyənləşdirin, buraxılmış durğu işarələrini bərpa edin.**

**1.** Çatlayır Xanbacı qəmdən ürəyim. *(M.Ə.Sabir)*
**2.** Qeyrətimiz, namusumuz var bəy dözərik. *(F.Kərimzadə)*
**3.** Di indi əhvalatı nağıl elə Novruzəli! *(C.Məmmədquluzadə)*
**4.** Əziyyət çəkməyin Züleyxa xala sizin çayınız qəndsiz də şirin olar. *(İ.Şıxlı)*
**5.** Qızım sənə deyirəm gəlinim sən eşit. *(Atalar sözü)*

**Yadda saxla**

Xitab, adətən, insana aid olur. Lakin bədii dildə cansız varlıqlara və mücərrəd anlayışlara aid xitablar da işlənir:
*Pıçıldaşın, pıçıldaşın,* ***ləpələr!*** *Bəlkə, mənə bir sözünüz var sizin? (İ.Səfərli)*
*Səndən doymaq olarmı?!* ***Həyat,*** *sən nə şirinsən! (B.Vahabzadə)*
Bu cür xitablara **ritorik müraciət,** yaxud **bədii xitab** deyilir.

**c** **Bayatıda durğu işarələrinin yerini müəyyən edin. Hansı misrada “duman” sözü xitab kimi işlənmişdir?**

Dağlardan endi duman
Yerlə süründü duman
Yolu-izi kəsibsən
Gör neçə gündü duman

Layihə

**1 a** **Dünyaca məşhur aktyor və rejissor Çarli Çaplinin filmlərindən kadrlara baxın. Bu şəkillər əsasında səssiz kino kralının yaratdığı obrazın xarici görkəmi və xarakteri haqqında gəldiyiniz qənaətləri bölüşün.**



## Dinləmə 16

**b** **Qeydlər götürməklə “Səssiz kinonun kralı” mətnini dinləyin. Şəkillər əsasında gəldiyiniz fikirləri dinlədiyiniz mətndəki məlumatlarla müqayisə edin.**

**c** **Dinləmə mətnindən götürdüyünüz qeydləri yaddaş xəritəsindəki başlıqlar üzrə qruplaşdırın və nəql edin.**

Yaşadığı illər

Uşaqlıq illəri və ailəsi

İlk səhnə fəaliyyəti

Kino sahəsində ilk addımları

İlk səsli filmi

Xatirəsinin əbədiləşdirilməsi



**ç** **Çaplinin yaratdığı “balaca adam” obrazına tamaşaçıların münasibəti necə idi? Fikirlərinizi əsaslandırın.**

**d** **Nə üçün “Diktator” filmində Çaplinin incə yumoru kəskin satira ilə əvəz olundu?**

Layihə

**2a Çarli Çaplin haqqında öyrəndiklərinə əsaslanaraq onun qızına məktubunda nə yaza biləcəyini təxmin et.**

***Qısa arayış***

*Çarli Çaplinin 12 uşağı olmuşdur. Onlardan bəziləri atalarının yolu ilə gedərək aktyor olmaq istəmişlər. Lakin yalnız biri – qızı Ceraldina bu sahədə uğurlar qazanmışdır. Səhnədə rəqqasə və balerina kimi fəaliyyətə başlayan Ceraldina sonradan bir çox filmlərə çəkilmiş, beynəlxalq mükafatlar qazanmışdır.*



## Çarli Çaplinin qızı Ceraldinaya məktubu

Əziz qızım!

1 ...Sən indi məndən necə də uzaqlardasan! Sənin portretin stolun üstündə və burada – ürəyimin yanındadır. Sən isə indi orada, nağıllar aləmi olan Parisdə, Yelisey çöllərindəki möhtəşəm teatrın səhnəsində rəqs edirsən.

2 ...Gözəlləşməyində və rəqs etməyində ol! **Ulduz olub işıq saç!** Ancaq tamaşaçıların heyranlığı və alqışları səni məst etsə, sənə bağışlanan çiçəklərin ətri başını gicəlləndirsə, onda bir sakit bucaq tapıb otur və mənim bu məktubumu oxu, həm də öz ürəyinin səsinə qulaq as.

3 Bilirsənmi, sən balaca olanda gecələr sənin çarpayının yanında oturub nə qədər nağıllar danışmışam? O zaman mən sənin xəyallarını görürdüm, Ceraldina, sənin bu gününü görürdüm. Mən səhnədə rəqs edən qızı, göylərdə süzən pərini görürdüm.

Heç tamaşaçılarının bu sözlərini eşitmisənmi: "O qızı görürsünüzmü? Qoca təlxəyin qızıdır. Yadınıza gəlir də, onu "Çarli" deyə çağırardılar?" Bəli, mən – Çarliyəm! Mən – qoca təlxəyəm! Mən **nimdaş** şalvarda rəqs edirdim, sən isə şahzadələrin ipək paltarında rəqs etməkdəsən. Bu rəqslər və göy gurultusu kimi səslənən alqışlar tezliklə səni göylərə ucaldacaq. Uç! Uç oralara! Ancaq sonra oradan yerə də en! Sən gərək insanların həyatını da görəsən, soyuqdan və aclıqdan tir-tir əsən küçə rəqqaslarının necə oynadıqlarına da baxasan. Mən də eynilə onlar kimi idim, Ceraldina...

...O uzaq gecələrdə sənə çox nağıllar danışmışam, lakin öz nağılımdan söz açmamışam. Ancaq o da çox maraqlıdır. Bu, Londonun yoxsul məhəllələrində oxuyub rəqs edən və sonra da **ianə** yığan ac bir **təlxək** haqqında nağıldır. Mən o illərdə aclığın və isti yuvanın nə demək olduğunu anladım. Səyyar təlxəyin alçaldılmaqdan duyduğu ağrıları yaşadım. Onun köksündə məğrurluq okeanı çağlayırdı, ancaq üstünə atılan qəpiklər bu qüruru yaralayırdı... Mən 40 ildən artıq müddətdə Yer üzündəki insanları güldürmüşəm. Ancaq onların güldüyündən daha çox özüm ağlamışam.

Layihə

Ceraldina, sənin yaşadığın dünya yalnız rəqslər və musiqidən ibarət deyil! Gecəyarısı nəhəng zaldan çıxıb gedəndə özünün varlı pərəstişkarlarını unuda bilərsən. Ancaq səni evə aparan taksi sürücüsündən onun ailəsi barədə soruşmağı unutma. Əgər onun körpə uşağı üçün bələk almağa pulu yoxdursa, onda onun cibinə pul qoy.

Tez-tez vaxt tapıb metro və ya avtobusla get, piyada gəzib insanlara göz yetir! Dul qadınlara və yetim uşaqlara bax! Heç olmasa, gündə bircə dəfə özünə de: “Mən də onlardan biriyəm!” Bəli, sən də onlardan birisən, qızım!

Unutma: Çarli ailəsində elə bir kobud insan olmayıb ki, getdiyi faytonun sürücüsünü söysün, yaxud bir yoxsulu ələ salıb gülsün.

4 Bu məktubla sənə bank sənədi göndərirəm ki, ürəyin istədiyi kimi pul xərcləyə biləsən. Ancaq nə vaxt iki frank pul xərcləsən, bil ki, pulqabındakı üçüncü frank sənin deyil. O sənin tanımadığın, ancaq bu pula ehtiyacı olan birisinə məxsusdur. Sən o adamı çox asanlıqla tapa bilərsən. Yoxsullar hər yerdədir... Səninlə pul haqqında danışıram, çünki onun **şeytani** gücünə yaxşı bələdəm...

...Ürəyini heç vaxt qızıla və qiymətli daşlara satma. Bil ki, ən böyük brilyant günəşdir. Xoşbəxtlikdən o hamı üçün parıldayır.

Bilirəm ki, atalarla övladların fikirləri daim toqquşur. İstəyirəm, elə bir möcüzə baş versin ki, sən mənim dediklərimi, həqiqətən də, tam anlaya biləsən. Mənimlə, düşüncələrimlə döyüş, əziz qızım! Mən itaətkar uşaqları sevmirəm...

Çarli artıq qocalıb, Ceraldina. Mən mələk olmamışam, ancaq həmişə insan olmağa can atmışam. Sən də buna çalış.

Öpürəm səni, Ceraldina.

*Atan Çarli.*

*Dekabr, 1965-ci il.*

**Söz boğçası**

• nimdaş • ianə • şeytani • təlxək

** Yelisey çölləri – Parisin mərkəzi küçəsi.*

## Söz ehtiyatı

**b** **İkinci abzasdakı fərqləndirilmiş “Ulduz olub işıq saç!” cümləsində “ulduz” sözü hansı mənada işlənmişdir?**

**1.** Gecələr göydə parıldayaraq nöqtə kimi görünən göy cismi

**2.** Hər hansı sahədə məşhur, tanınmış şəxs

• ***İşıq saçmaq* ifadəsində hansı bədii təsvir vasitəsindən istifadə edilmişdir?**

**a.** məcaz

**b.** antiteza

**c.** metafor

**d.** təşbeh

**e.** təkrir

Layihə

## Düşün və cavab ver

**c** **Məktubun mətni Çaplinin həyatı və xarakteri ilə bağlı hansı nəticələrə gəlməyə imkan verir?**

**ç** **Çarli Çaplin Ceraldinaya məktubunda hansı tövsiyələri verir? Uyğun cümlələri seçin və mətnə istinad etməklə əsaslandırın.**

**1.** Başqalarına qarşı təkəbbürlü olma.
**2.** Əliaçıq, mərhəmətli ol, kasıblara əl tut.
**3.** Zəhmətkeş ol, sənətin sirlərini daha dərindən öyrən.
**4.** Həmişə öz mövqeyin, prinsiplərin olsun, hətta atanla da mübahisə etməkdən çəkinmə.
**5.** Pulunu qənaətlə xərclə, israfçılıq etmə.
**6.** Öz valideynlərinə, nəslinə layiq insan ol.
**7.** Mənəvi dəyərləri puldan, var-dövlətdən üstün tut.

**d** **Çaplin məktubda ömrü boyu insanları güldürdüyü halda özünün ağladığını yazır. Sizcə, bu təzadın səbəbi nədir?**

**Qlossari**

**Təzad** – bir fikri, ya hissi daha qabarıq və təsirli göstərmək üçün bir-birinə zidd olan həyat lövhələrinin yanaşı verilməsi.

**e** **Dünyaca məşhur aktyor, zəngin adam olan Çaplin nə üçün heç vaxt küçə rəqqaslarını, kasıb aktyor və müğənniləri unutmurdu?**

**ə** **Aşağıdakı cümlələr məktubun hansı abzaslarına əlavə edilə bilər?**

| | | |
|---|---|---|
| 1 | a | Mən istəyirəm ki, sən kasıblığın nə olduğunu heç vaxt bilməyəsən. |
| 2 | b | Uzaqda olduğunu bilirəm, amma yenə də mənə elə gəlir ki, sənin addımlarını eşidirəm, parlayan gözlərini görürəm. |
| 3 | c | Anan da sənin üçün çox darıxıb, Ceraldina, ona qarşı diqqətli ol, məktub yazmağı unutma. |
| 4 | d | Və əgər bir gün özünü sənə baxan tamaşaçılardan yüksəkdə hiss etsən, dərhal səhnəni tərk et. |
| P.S. | e | Bilirsən, neçə gecə sənin çarpayının yanında oturub yatmış gözəl, qorxunc əjdaha haqqında nağıllar danışmışam. |

**f** **Mətndən çıxış edərək cədvəli tamamlayın.**

| Ən təsirli məqamlar | Əsaslandırma |
|---|---|
| | |

**g** **Dinlədiyiniz “Səssiz kinonun kralı” mətni Çarli Çaplinin məktubunu daha dərindən anlamağa necə kömək etdi?**

Layihə

# Həmcins cümlə üzvləri

**3 a Aşağıdakı cümlələrdə eyni suala cavab verən və sadalama intonasiyası ilə əlaqələnən cümlə üzvlərini müəyyən edin.**

- Yolun hər iki tərəfində ağaclar, kollar əkilmişdi.
- Nənəm toyuqları, cücələri hinə saldı.

**Yadda saxla** **Həmcins üzvlü cümlələr**

Cümlənin həmcins üzvləri:
– eyni cümlə üzvü ilə bağlı olur;
– eyni suala cavab verir;
– qrammatik cəhətdən bərabərhüquqlu olur;
– bir-biri ilə sadalama intonasiyası və ya bağlayıcılar vasitəsilə bağlanır.
Hər bir cümlə üzvü həmcins ola bilir. Həmcins üzvlər arasında vergül qoyulur.
- ***Uşaqlar da, cavanlar da, yaşlılar da*** *baharın gəlişinə eyni dərəcədə sevinirdilər.*
- *Həyətdə uşaqlar* ***oynayır, gülür və əylənirlər.***
- *Yaşıl otların arasından* ***qırmızı, sarı, ağ*** *güllər boylanır.*

**b Həmcins cümlə üzvlərini müəyyənləşdirin.**

**1.** Saralır get-gedə çöl, çəmən, çayır,
Könül hər saatı ömürdən sayır. *(B.Vahabzadə)*
**2.** Şiddətli külək ağacları, kolları əyirdi.
**3.** Palçığa batmış maşın nə irəli, nə geri gedə bilirdi.
**4.** Yaşıl, sarı yarpaqlar bir-birinə qarışmışdı.
**5.** Budağa qonan bülbül həvəslə oxuyur, cəh-cəh vurur.

**Yadda saxla** **Həmcins üzvlərdə ixtisarlar**

Həmcins üzvlərdə bəzi təkrar olunan qrammatik şəkilçi və bir sıra qoşmalar sonuncuda saxlanılmaqla ixtisar edilə bilər. Məsələn:
*Uşaq* ***kitab, dəftər və qələmlərini*** *çantasına yığdı.*
*Sən də* ***qardaşın, bacın kimi*** *yaxşı oxumalısan.*

**c Cümlələrdə ixtisar edilmiş şəkilçi və qoşmaları müəyyənləşdirin.**

**1.** Qızlar çəməndəki gülləri dərir, çələng hörürlər.
**2.** Şəhidlərimiz Vətən, xalq üçün candan keçiblər.
**3.** Elm cahil və nadanlara qonaq getməz. *(Atalar sözü)*
**4.** Rayonun ən uzaq kəndlərinə, yaylaq yerlərinə qədər yol çəkilib.

Layihə

# Ümumiləşdirici təkrar

**1** **Hansı cümlədə feili xəbər frazeoloji birləşmə ilə ifadə olunub?**

**a.** Atanın aldığı hədiyyəni görən uşaq sevindiyindən atılıb-düşdü.
**b.** Ac toyuq yuxusunda darı görər. *(Atalar sözü)*
**c.** Uşaq bu məsələnin üzərində xeyli baş sındırdı.
**d.** İşin düyünə düşdüyünü görənlər çıxıb getdilər.
**e.** Müharibə veteranları ilə görüş çox gözəl təşkil edilmişdi.

**2** **İsmi xəbərlərin ifadə vasitələri ilə bağlı uyğunluğu müəyyən edin.**

**1.** isim **2.** sifət **3.** say **4.** əvəzlik **5.** zərf

**a.** Bu rəfdəki kitablar mənimdir.
**b.** Azərbaycan musiqisinin tacı muğamdır.
**c.** O, həmişə birincidir.
**ç.** Xoşbəxt günlərimiz irəlidədir.
**d.** Rəfiqəmin qardaşı çox nadincdir.

**3** **Hansı cümlədə "dağlar" sözü xitab kimi işlənmişdir? (Vergül işarəsi buraxılmışdır)**

**a.** Dağların başı çox zaman qarlı olur.
**b.** Kəndimizin dörd yanı dağlardır.
**c.** Bu dağlar həmişə dumanlı olur.
**d.** Sizdən kimlər keçib dağlar?
**e.** Dağlara baxmağı çox sevirəm.

**4** **Şeirin misralarında hansı cümlə üzvlərinin həmcins olduğunu müəyyənləşdirin.**

Bahar nə xoş gəlir, ruha dad verir,
Xəyala, duyğuya qol-qanad verir.
Var olsun şeirimiz, şairlərimiz!
Hər gülə, çiçəyə təzə ad verir. *(S.Vurğun)*

**5** **Cümlələrin məzmunundan çıxış edərək həmcins üzvlər arasında uyğun bağlayıcılar işlədin.**

*həm, həm də; nə, nə də; ya, ya da; gah, gah da*

**1.** Qanacaqlı adam ... qanar, ... qandırar.
**2.** Artıq aş ... qarın ağrıdar, ... baş.
**3.** Dairənin ... əvvəli olar, ... axırı.
**4.** Qəti fikir bildirmir; ... nala vurur, ... mıxa.
**5.** ... yoğurdum, ... yapdım, hazırca kökə tapdım.

Layihə

# bölmə 8 Təbiətsevərlər

1-ci fəsil

**1a** İstirahət düşərgələrində olmusunuzmu? Suallara cavab verməklə bu barədə danışın.



**1** Sizcə, düşərgəyə getmək üçün ən münasib yer haradır?



**2** Düşərgədə hansı fəaliyyətlər maraqlı ola bilər?



**3** Əgər düşərgəyə getmək imkanınız olsaydı, hansı mövsümü seçərdiniz: yay, payız, qış, yoxsa yaz? Seçiminizi əsaslandırın.

**4** Sizcə, düşərgə təcrübəsi hansı bacarıqları inkişaf etdirir?

layihə

**b** **Aşağıdakı məktublaşmanı oxuyun. Suallara cavab verin.**

Bu gün

Salam, Gülay! Necəsən? Ümid edirəm, yaxşısan. Yay tətilini necə planlaşdırırsan? Bəlkə, düşərgəyə yazılaq? Məktəblilər üçün düşərgə təşkil edən bir şirkət tanıyıram. 13:02

Salam, Aylin. Çox sağ ol, yaxşıyam. Hansı şirkət? Hardan tanıyırsan? Gedənlər olub? 13:04

“Macəra” turizm şirkəti. Hə, İradə müəllimin şəxsi bloqunda bu barədə oxumuşam. Qızı ilə oğlunu Qaxda təşkil olunan çadır düşərgəsinə göndərib. Çox razı qalıb. Deyir, düşərgə həyatı yaşamağı bütün uşaqlara tövsiyə edirəm. 13:08

Lap yaxşı. Mən də getmək istəyərəm. Araşdırmısan? Gərək rəsmi saytına baxaq. 13:10



**macera.az**
https://macera.az/az/productcategory/dus%c9%99rg%c9%99l%99

Hə, artıq saytdan maraqlanmışam. Atam şirkətlə də əlaqə saxlayıb. Getməyi planlaşdırıram. Linkə daxil ol, sən də araşdır.
https://macera.az/az/product-category/dus%c9%99rg%c9%99l%99 13:13

Gülay, mən həmişə təbiət qoynunda çadır qurub qalmağı xəyal etmişəm, lap nağıllardakı kimi. Əminəm, sən də nə vaxtsa bunu arzulamısan. Gəl birlikdə gedək! Səndən cavab gözləyəcəyəm. 13:16

Oldu, çox sağ ol. Mən də araşdırım, sənə zəng edəcəyəm. 13:18

Mesaj

Layihə

## Nə anladın?

**c** **Aylin gedəcəyi düşərgə barədə ilk məlumatı kimdən alıb? O, düşərgəyə getmək qərarını verməzdən öncə hansı addımları atıb?**

## Düşün və cavab ver

**ç** **Sizcə, rəfiqəsindən təklif alan Gülayda hansı suallar yarandı? O həmin sualların cavabını necə öyrənə bilər?**

**2a** **Aylinin mesajında adı çəkilən veb-səhifəni nəzərdən keçirin, həmin sualların cavabını veb-səhifədə tapmağa çalışın.**

www.macera.az/az/services/haqqimizda

Haqqımızda | Xidmətlərimiz | Son xəbərlər | Rəylər | Qalereya | Bloq | Əlaqə



## Təbiətin qoynunda unudulmaz anlar yaşa!

*"Macəra" şirkəti hər zaman sizin xidmətinizdədir.*

"Macəra" şirkəti təbiət qoynunda çadır düşərgələri, ekoloji maarifləndirmə, əyləncəli oyunlar, yarışlar və s. təşkil edir. Ölkəmizin gözəl guşələrindən birində adrenalin dolu unudulmaz bir və ya bir neçə gün yaşamaq fürsətini sizə təqdim edirik. Bir ilkə imza atın. Siz də yararlanın. Əminik ki, sizə təqdim etdiyimiz əyləncəli gəzintidən və düşərgələrdən məmnun qalacaqsınız!



| İllik təcrübə | Məmnun müştəri | Xidmət sahəsi |
|---|---|---|
| 6 il | 460+ | 10 |

Geniş xidmət sahələri | Peşəkar komanda | Səyahət sığortası | Ən yaxşı qiymət zəmanəti

## Düşərgələrimiz

Düşərgələrimiz yay aylarında çadırlarda, digər fəsillərdə isə kənd evlərində təşkil olunur. Məktəblilər üçün düşərgələr 4-5 günlük (məktəb tətillərində) olur. İnkişafetdirici təlimlər, təbiət yürüşləri, komanda oyunları, bilik yarışları, tonqal ətrafı fəaliyyətlər və ekskursiyalar yer alır. Valideynlərin iştirakına icazə yoxdur, ona görə ki uşaqların sərbəst şəkildə fərdi məsuliyyət, özünüidarə vərdişləri qazanmalarına çalışırıq. Düşərgədə 3–11-ci sinif şagirdləri iştirak edə bilərlər. Bütün təşkilatçılıq işlərini öz üzərimizə götürürük. Sizə, sadəcə, əylənmək qalır. Bizə qoşulun, unudulmaz anlar yaşayın.

**"Macəra" şirkəti**

**Xidmətlər**

Təbiət yürüşləri
Zirvə yürüşləri
Böyüklər üçün düşərgə
Şəhər turları
Park oyunları
Velosiped turu
Muzeylərə ekskursiya

**Əlaqə**

Bakı şəh., Bülbül prospekti 36c
+994 01 123 45 67
info@macera.az

Layihə

**b** **Sizcə, veb-səhifədə təqdim olunan məlumatlar hansı məqsədlə yazılıb?**

**a.** oxucunu şirkətin fəaliyyətinin üstün olduğuna inandırmaq

**b.** düşərgələrin uşaqların inkişafındakı mühüm rolunu anlatmaq

**Diqqət et**

Mətnləri oxuyarkən obyektiv və subyektiv informasiyanı fərqləndirməliyik. **Obyektiv informasiya** faktlardan və əsaslandırılmış fikirlərdən ibarət olur. Belə mətnlərin məqsədi oxucuya reallıq haqqında həqiqəti çatdırmaqdır. **Subyektiv** informasiya isə müəllifin şəxsi fikirlərini, maraqlarını əks etdirir. Belə mətnlərdə müəllif oxucunu müəyyən bir mövqeyi dəstəkləməyə təşviq edir və çox zaman emosional ifadələrdən, çağırışlardan istifadə edir.

**c** **Aşağıdakı məlumatla "Macəra" şirkətinin veb-səhifəsindəki informasiyanı müqayisə edin. Hansını obyektiv informasiya hesab etmək olar? Fikrinizi mətnlərdəki ifadələrdən sitat gətirməklə əsaslandırın.**

www.sizinhekim.az/psixoloqmesleheti_20?tab=info

Ana səhifə Xidmət Əlaqə axtarış

## Psixoloq məsləhəti



Düşərgələr, adətən, təbiət qoynunda təşkil olunur, bu isə uşaqların təbii mühitdə vaxt keçirməsinə, yeni dostlar qazanmasına kömək edir. Düşərgə uşaqlara evdən uzaqda, valideynlərinin nəzarətindən kənarda özlərinə güvənməyi öyrədir. Uşaqlar müxtəlif tədbirlərdə (idman, incəsənət, təbiət gəzintiləri və s.) iştirak edirlər. Bu onların maraq dairəsini genişləndirir, sosial bacarıqlarını inkişaf etdirir.

Bütün bunlarla yanaşı, bəzən düşərgə vaxtı problemlər də yarana bilər. Bu problemlər uşaqların fərdi xüsusiyyətləri və ya təşkilatçılıq səviyyəsi ilə bağlı olur. Bəzi uşaqlar üçün valideynlərdən və evdən uzaqlaşmaq, yeni mühitə uyğunlaşmaq çətin ola bilər. Həmçinin idman və ya açıq hava fəaliyyətləri (üzgüçülük, dağa dırmanma, gəzintilər və s.) uşaqlar üçün təhlükə yarada bilər. Təşkilatçılığın zəif olması və ya uşaqların düzgün idarə olunmaması da mənfi nəticələrə gətirib çıxara bilər. Bu problemlərin qarşısını almaq üçün planlaşdırılan düşərgəni yaxşı araşdırmaq lazımdır. Uşağın hazır olub-olmaması, təşkilatçılığın keyfiyyəti və düşərgədə təhlükəsizlik tədbirləri diqqətlə nəzərdən keçirilməlidir.

**ç** **Təsəvvür edin ki, təbiət qoynunda bir həftə yaşamalısınız. Hansı çətinliklərlə üzləşə biləcəyinizi müzakirə edin.**

**1.** qida və su kimi əsas təchizatların çatışmazlığı

**2.** sağlamlıq və təhlükəsizlik

**3.** hava şəraitinin çətinlikləri

**4.** psixoloji çətinliklər

Layihə

**3 a** **Skautlar haqqında nə bilirsiniz? Aşağıdakı mətni oxuyun, əldə etdiyiniz yeni məlumatları qeyd edin.**

## Azərbaycan Skautlar Assosiasiyası




**Azərbaycan skautlarının ənənəvi yay düşərgəsi bu il də uğurla başa çatdı.**

Lənkərandakı Hirkan Milli Parkında “Təbiətin keşiyində” adlı skaut düşərgəsi təşkil edilib. Düşərgədə 150 skaut iştirak edib. Düşərgə çərçivəsində tullantılardan əl işləri hazırlanıb, iştirakçılara minimal elektronika istifadəsi, içməli suyun israfına qarşı tədbirlər, ekoloji aksiyalar və meşə mühafizəsi mövzusunda təlimlər keçirilib. Altı gün davam edən düşərgə zamanı iştirakçılar həm öyrənib, həm də əyləniblər. Düşərgə atçılıq, oxatma, sığınacaq qurma, təbiətdə yürüşlər, komanda oyunları, təqdimatlar, idman yarışları ilə yadda qalıb.

**b** **Oxuduğunuz mətn hansı məqsədlə yazılıb? Mətnin reportaj janrında yazıldığını əsaslandırın.**

**Xatırla**

**Reportaj** – hər hansı hadisə, tədbir haqqında yazılı və ya şifahi məlumat.

## Dinləmə 17

**c** **“Dünya skaut hərəkatı təşkilatı” adlı mətni dinləyin. Qeydlər götürərək yaddaş xəritəsi hazırlayın.**

**Dünya Skaut Hərəkatı Təşkilatı**

- *Qurucusu*
- *Yaranma yeri və tarixi*
- *Mərkəzi*
- *Məqsədi*
- *Devizi*
- *Fəaliyyəti*
- *Üzvləri*
- *Yaş qrupları*
- *Fərqləndirici nişanları*
- *Azərbaycan Skautlar Assosiasiyası*

**4 a Azərbaycan Skautlar Assosiasiyasının nizamnaməsində təsbit olunmuş skaut kodeksini oxuyun. Həyatdan nümunələr gətirməklə onların vacibliyini əsaslandırın.**

**Skaut kodeksi hər bir skautun həyat prinsiplərini əks etdirir:**



**1.** *Skaut* adı yüksək şərəf və hörmət mənası daşıyır, buna görə də skaut öz hərəkətləri ilə bu etimadı doğrultmalıdır.
**2.** Skaut sədaqətlidir, verdiyi sözə əməl edir, öhdəliklərini yerinə yetirir.
**3.** Skautun borcu faydalı olmaq və başqalarına kömək etməkdir.
**4.** Skautlar bir-biri ilə qardaşdır.
**5.** Skaut nəzakətlidir.
**6.** Skaut heyvanların və bütün təbiətin dostudur.
**7.** Skaut öz valideynlərinin, patrul rəisinin və skaut ustadının əmrinə tabe olur.
**8.** Skaut şəndir və heç vaxt ruhdan düşmür.
**9.** Skaut təvazökar və qənaətcildir.
**10.** Skaut fikirlərində, səylərində və hərəkətlərində pakdır.

**b Skaut kodeksində diqqətinizi daha çox hansı davranış qaydası çəkdi? Sizcə, kodeksin hansı prinsiplərinə əməl etmək daha çətin ola bilər?**

**Qlossari**

**Kodeks** – hər hansı fəaliyyət sahəsinin tənzimlənməsi üçün etik norma və prinsiplərin məcmusu.

**c Skautlar üzvlüyə qəbul olunanda and içirlər. Sizcə, bu andın mətnində nə deyilir? Kitabı tərsinə tutun və andı oxuyun, öz versiyanızla müqayisə edin.**

***Skaut andı***

*Öz şərəfimə and içirəm, məndən asılı olan hər bir şeyi edəcəyəm ki, Allah və Azərbaycan qarşısında öz borcumu yerinə yetirim, hər vaxt başqalarına kömək edim və skaut qanunlarına tabe olum.*

## Yazı

**ç Azərbaycan Skautlar Assosiasiyasına məktub yazaraq skaut hərəkatına qoşulmaq istədiyinizi bildirin.**

| | |
|---|---|
| ***Giriş:*** | Özünüzü təqdim edin. Məktəbinizi və neçə yaşınız olduğunu yazın. Məktubun məqsədini qısa şəkildə izah edin. |
| ***Əsas hissə:*** | Niyə skaut hərəkatına qoşulmaq istədiyinizi izah edin. Skaut hərəkatından gözləntilərinizi qeyd edin. |
| ***Sonluq:*** | Məktubunuza cavab gözlədiyinizi bildirin. |

Layihə

# Köməkçi nitq hissələri (təkrar)

**5 a** **Cümlələrdə hansı köməkçi nitq hissələri işlədilib? Həmin sözlərin cümlədə funksiyasını müəyyən edin.**

**1.** Şübhəsiz, skaut kodeksi gəncləri daha məsuliyyətli olmağa çağırır.
**2.** Axşam o qədər əyləndik ki, vaxtın necə keçdiyini heç hiss etmədik.
**3.** Düşərgədə həm çadır qurmağı, həm də tonqal qalamağı öyrəndim.
**4.** Bəli, səninlə razıyam, meşə sahəsi təmiz və səliqəli saxlanmalıdır!
**5.** Vay, bu nadir ağacdır, onu kəsmək olmaz axı!
**6.** Bu mənim həyatımda ən əlamətdar hadisə idi.

| Söz | Köməkçi nitq hissəsi | Cümlədə funksiyası |
|---|---|---|
| | | |

**b** **Cümlələrdəki "ki"-nin yerinə görə bitişik, yoxsa ayrı yazılmasını müəyyənləşdirin. Uyğun yerlərdə vergüldən istifadə edin.**

**1.** Dostuna bildir(ki) mən ona çox güvənirəm.
**2.** Bu işi(ki) Eldar görüb, əminəm(ki) heç bir səhv yoxdur.
**3.** Şeiri elə gözəl səsləndirdi(ki) hamı ayağa qalxıb onu alqışladı.
**4.** Avropa mədəniyyəti ilə bizim(ki) çox fərqlidir.
**5.** Bir ev(ki) qonaq-qaralıdır, o evin ruzisi bol olar.
**6.** Sənin(ki) qar qədər təmizliyin var,
Bağışlamaq olar soyuqluğunu. *(M.Yaqub)*
**7.** Dünən(ki) hadisəni heç vaxt unutmayacağam.

**c** **Fərqləndirilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.**

**1. a.** Gərək açıq-aşkar ***deyəsən***, bir də belə səhv etməsin.
**b.** ***Deyəsən,*** bu məsələdə onunla razılaşan olmayacaq.
**2. a.** Həqiqəti öyrənmək üçün ***qoy*** araşdırsın.
**b.** Bu sənədi stolun üstünə ***qoy*** və dərhal qayıt.
**3. a.** Sən ***də*** gəlsən, səyahətimiz daha maraqlı olar.
**b.** Mən elə onu deyəcəkdim ***də!***

**ç** **Nöqtələrin yerinə uyğun gələn köməkçi nitq hissəsini əlavə edin. Onun funksiyasını izah edin.**

*həm də, bəli, əgər, düzü, ki, lap, heç*

**1.** ... hava yaxşı olsa, həftəsonu piknikə gedəcəyik.
**2.** Biz həm təbiət yürüşünə çıxdıq, ... komanda oyunları oynadıq.
**3.** Çox sevinirəm, ... vaxtında gəlib çıxdınız!
**4.** ..., dostlar həmişə bir-birinə kömək etməlidirlər.
**5.** ...., gözləməzdim ... sizdən bunu.
**6.** Sən bu barədə heç kəsə demədin ...?

Layihə

**1a** **İnsanların diqqətini ekoloji problemlərə çəkmək, təbiətin mühafizəsinə yönəltmək üçün hansı tədbirləri həyata keçirmək olar? Təbiətsevərlərin keçirdiyi aksiyalar barədə nə bilirsiniz?**

**Qlossari**

**Aksiya** – müəyyən məqsədə çatmaq üçün gerçəkləşdirilən ictimai fəaliyyət; ictimaiyyətin diqqətini cəlb etmək üçün keçirilən kütləvi tədbir.

# İki il ağacda yaşayan qadın: Culiya Hillin fədakarlığı



1997-ci il dekabrın 10-da Kaliforniyada qədim sekvoya ağaclarından ibarət meşələrdən birində Culiya Hill adlı gənc qadın təbiəti qorumaq üçün inanılmaz bir mübarizəyə başladı. O, meşələrin kəsilməsinə etirazını bildirmək üçün 1000 yaşlı nəhəng sekvoya ağacının zirvəsinə çıxdı və iki il oradan enmədi.

Hər şey "Pasifik Lamber" (Pacific Lumber) taxta emalı şirkətinin qədim qırmızı ağacları kəsmək planı ilə başladı. Bu ağaclar min illər boyu Kaliforniyanın rəmzi olmuşdu. Lakin meşələrin kəsilməsi ilə həm təbiət, həm də bu **ekosistem** təhlükə altına düşürdü. Culiya Hill üçün bu, qəbuledilməz idi. O, qeyri-adi addımı ilə meşələrin məhv edilməsinə diqqət çəkmək istəyirdi.

Onun aksiyası 738 gün davam etdi. Vaxtın bu qədər uzanmasına səbəb "Pasifik Lamber" şirkətinin hökumətdən icazə alıb fəaliyyətə başlaması idi. Hüquqi baxımdan bu razılığın ləğvi və ya yenidən müzakirə edilməsi xeyli vaxt tələb edirdi. Şirkətlər iqtisadi maraqlara görə Culiya və digər aksiya iştirakçıları ilə razılaşmaq istəmirdilər.

İki il boyunca yerə enməyən Culiya Hillin mübarizəsi, nəhayət, öz bəhrəsini verdi. "Pasifik Lamber" şirkəti ilə **ekoloji** təşkilatlar arasında razılıq əldə edildi və həmin ərazidəki ağaclar qorundu. Culiya Hillin bu cəsarətli, **radikal** addımı qlobal ekoloji hərəkatın simvollarından birinə çevrildi və minlərlə **ekoloqun** dəstəyini qazandı.

**Söz boğçası**

- radikal • ekoloq
- ekosistem • ekoloji

Layihə

## Nə anladın?

**b** **Mətnin məzmunu ilə bağlı sualları cavablandırın.**

**1.** Culiya Hillin aksiyasının məqsədi nədən ibarət idi?
**2.** Aksiyanı həyata keçirmək üçün o hansı metodu seçmişdi?
**3.** Culiya Hillin aksiyası nə qədər davam etdi və nə ilə nəticələndi?
**4.** Münaqişənin uzun müddət davam etməsinə səbəb nə idi?

## Söz ehtiyatı

**c** **Biologiya fənnindən əldə etdiyiniz bilgilər əsasında *ekosistem* sözünü izah edin.**

**ç** ***Ekologiya, ekoloji və ekoloq* sözlərini leksik və qrammatik cəhətdən müqayisə edin.**

## Düşün və cavab ver

**d** **Culiya Hillin ekosistemlə bağlı narahatlığı nədən ibarət idi? Sizcə, Culiya Hillin seçdiyi mübarizə metodu nə dərəcədə təsirli idi? Öz fikrinizi əsaslandırın.**

**e** **Mətni oxuyarkən sizdə hansı suallar yarandı? Aksiya ilə bağlı Culiya Hilldən hansı məlumatları almaq istəyərsiniz? Aşağıda verilmiş hansı suallar vasitəsilə daha çox informasiya əldə etmək olar? Seçiminizi əsaslandırın.**

**1.** Aksiyanızın bu qədər böyük təsir yaradacağını əvvəlcədən düşünürdünüzmü?
**2.** Ağacda yaşamaq qərarını verməkdən heç peşman oldunuzmu?
**3.** İki il boyunca ağacda yaşamaq sağlamlığınıza necə təsir etdi?
**4.** Aksiyanızdan sonra həyatınızda hansı dəyişikliklər baş verdi?
**5.** Təbiəti qorumağa dair verdiyiniz mesaj dünyada kifayət qədər yayıldımı?
**6.** İki ildən sonra yenidən normal həyata uyğunlaşa bildinizmi?
**7.** İnsanlara təbiəti qorumaq üçün hansı addımlar atmağı məsləhət görərdiniz?
**8.** Ağacda yaşadığınız müddətdə təbiət və heyvanlar haqqında yeni nələr öyrəndiniz?
**9.** Təbiəti qorumaq uğrunda mübarizənizdə kifayət qədər dəstək alırdınızmı?
**10.** Bu gün hansı problem sizi yeni bir aksiyaya başlamağa vadar edə bilər?

**ə** **Qapalı sualları redaktə edərək açıq suallara çevirin.**

**Nümunə**

***Qapalı:*** *Təbiəti qorumaq uğrunda mübarizənizdə kifayət qədər dəstək alırdınızmı?*
***Açıq:*** *O dövrdə sizi ən çox dəstəkləyən insanlar kimlər idi və necə yardım edirdilər?*

Layihə

**2a** **Culiya Hillin gənclərə ünvanladığı məktubu oxuyun, suallarınıza cavab tapın.**

## Təbiəti qoruduğunuz üçün təşəkkür edirəm!

Gənclərdən tez-tez oxşar suallar eşidirəm, həmin suallara cavab vermək üçün bu məktubu yazıram. Tam adım Culiya Hilldir. "Batterflay" (batterfly – kəpənək) adı ilə daha çox tanınıram. 1974-cü ildə doğulmuşam.




738 gün ağac başında qurulmuş, ölçüsü 6 fut × 8 fut olan köşkdə yaşadım. Dam və divarları su keçirməyən materialdan hazırlanmışdı. Onu deyim ki, ağacda yaşamaq bəzən əyləncəli idi, bəzən isə qorxulu və çətin.

Dostlarım bu ağaca "Luna" adı veriblər. Bu söz ispan dilində "ay" deməkdir. Luna təxminən 200 fut boyundadır və yaşı 1000 ildən çoxdur. Mən Lunaya 10 dekabr 1997-ci ildə çıxdım. Orada hər cür heyvan gördüm. Siz dünyadakı heyvanların yarısından çoxunun məhz qırmızı ağac meşələrində yaşadığını bilirsinizmi?

Lunada olarkən dostlarımdan böyük dəstək görürdüm. Onlar mənə yemək, ləvazimat gətirirdilər. İpə bir çanta bağlamışdım, onu yerə endirirdim, əşyaları çantaya qoyurdular və mən onu yuxarıya çəkirdim. Meyvə, tərəvəz, qoz-fındıq, lobya yeyirdim. Yağış suyunu yığaraq istifadə edirdim. Yataq çantasında yatırdım.



"Pasifik Lamber" şirkəti müxtəlif təzyiqlərlə məni ağacdan uzaqlaşdırmağa çalışırdı. Gecələr böyük işıqlar yandırır, avadanlıqları yüksək səslə işlədərək yatmağa qoymurdular. Hətta bir gün məni qorxutmaq üçün Lunanı kəsməyə də cəhd etdilər. Yaxşı ki Luna tez sağaldı. Sekvoya ağaclarının kökləri bir-birinə bağlıdır. Lunanın ətrafında yaşayan ağac ailəsi onu qidalandıraraq sağalmasına kömək etdi.



Mənim üçün iki il dedikləri ayrılıqda 738 gün idi: gündə iyirmi dörd saat; saatda altmış dəqiqə; dəqiqədə altmış saniyə. Hər anım mübarizə demək idi. Mən Şimali Kaliforniya tarixində qeydə alınan ən soyuq qışı keçirdim. Dəfələrlə şiddətli fırtınalarla üzləşdim. Ağac o qədər güclü yellənirdi ki, xilas olmaq üçün budaqlara bərk sarılmalı olurdum. Elə anlar var idi ki, öz-özümə deyirdim: "Əgər mən bu anın öhdəsindən gələ bilsəm, növbəti anı da keçə bilərəm".



Aksiyanı yaymaq üçün çoxlu məktublar yazırdım, telefonla müsahibələr verirdim. “Pasifik Lamber” şirkəti ilə Luna və ətrafındakı üç hektar ərazidəki ağacların kəsilməməsinə dair müqavilə bağlandıqdan sonra 1999-cu ilin dekabrında Lunadan endim.

Mənim “Luna mirası” və “Fərq yarat” adlı kitablarım var. Xatirələrimi bölüşmüşəm. Oxusanız, haqqımda daha çox şey öyrənəcəksiniz. İndi mən insanlara təbiəti qorumağın yollarını öyrədirəm. Unutmayın, hər kiçik addım fərq yaradır!

Gəlin birlikdə dünyamızı daha da gözəlləşdirək!

***Sevgilərlə,***
***dostunuz Culiya Batterflay Hill***

## Nə anladın?

**b** **“Fut” sözünün mənasına əsasən Culiya Hillin yaşadığı ağacın hündürlüyünü və köşkün sahəsini təxmin edin. Sizcə, Hill məktubunda məkanı nə üçün detallı təsvir edir?**

*Fut – ingilis ölçü sistemində 30 sm 48 mm-ə bərabər uzunluq vahidi.*

**c** **Culiya Hillin məktubu yazmaqda məqsədi nə idi?**

**1.** “Pasifik Lamber” şirkətinin ona qarşı təzyiqlərindən danışmaq
**2.** kitablarını tanıtmaq və satışını təşkil etmək
**3.** duyğu və xatirələrini bölüşmək

**ç** **Hill məktubunda ağacda qaldığı günlərin nə qədər uzun və çətin olduğunu necə ifadə edir?**

**d** **Aksiya haqqında məqalə ilə Culiya Hillin veb-səhifəsində yayımlanan məktubu müqayisə edin. Aşağıdakı fikirlər hansı mətnə aiddir?**

**1.** Aksiya ilə bağlı ümumi məlumat verir, hadisələr təhlil olunur.
**2.** I şəxsin dilindən yazılmışdır, müəllif sanki oxucu ilə söhbət edir.
**3.** Daha çox aksiyanın nəticələri və ekoloji fəallığın əhəmiyyəti vurğulanır.
**4.** Mətn müəllifinin yaşadığı duyğular və əziyyətlər emosional şəkildə təsvir olunub.
**5.** Çağırış xarakterli ifadələr oxucuların diqqətini çəkir və onlara təsir edir.

**e** **Müzakirə. Culiya Hillin keçirdiyi aksiyaya münasibət necə idi? Belə aksiyalar zamanı ətrafdakıların hadisəyə münasibəti necə olmalıdır? Bu barədə müzakirə aparın.**

**1.** Kütləvi informasiya vasitələrinin münasibəti
**2.** Cəmiyyətin münasibəti
**3.** Dövlət nümayəndələrinin münasibəti
**4.** Ekoloqların münasibəti
**5.** Ağac emalı ilə məşğul olan şirkətlərin münasibəti

Layihə

**3a** **Mətnlərdən əldə etdiyiniz məlumatlara əsasən Culiya Hillin keçirdiyi aksiya haqqında çıxış edin. Çıxış zamanı mətnlərə istinad edərkən cümlələri parafraz edin.**

**Qlossari**

**Parafraz** – hər hansı mətnin başqa sözlərlə ifadə edilməsi, eyni fikrin fərqli şəkildə təqdim olunması.

**Təlimat**

Parafraz zamanı:

**1. I şəxsin dilindən deyilən cümləni III şəxsin dilindən təqdim etmək olar.**

**Nümunə**

| Mənbə | Parafraz |
|---|---|
| *Mən Şimali Kaliforniya tarixində qeydə alınan ən soyuq qışı keçirdim.* | *Culiya Şimali Kaliforniyada qeydə alınan ən sərt qışı orada keçirmişdi.* |

**2. Cümləyə əlavə sözlər artırıla bilər.**

**Nümunə**

| Mənbə | Parafraz |
|---|---|
| *Yağış suyunu yığaraq istifadə edirdim.* | *Ağacdan asdığı qablarla yağış suyunu yığıb istifadə edirmiş.* |

**3. Cümlədəki söz və ifadələr sinonimi ilə əvəz edilə bilər.**

**Nümunə**

| Mənbə | Parafraz |
|---|---|
| *Ağac o qədər güclü yellənirdi ki, xilas olmaq üçün budaqlara bərk sarılmalı olurdum.* | *Ağac o qədər şiddətlə silkələnirmiş ki, Culiya ağacdan yıxılmamaq üçün budaqlardan möhkəm yapışırmış.* |

**4. Cümlənin quruluşu dəyişdirilə bilər.**

**Nümunə**

| Mənbə | Parafraz |
|---|---|
| *"Pasifik Lamber" şirkəti müxtəlif təzyiqlərlə məni ağacdan uzaqlaşdırmağa çalışırdı.* | *"Pasifik Lamber" şirkəti hər cür vasitə ilə Culiyanı ağacdan enməyə məcbur etmək istəyirdi.* |

**b** **Culiya Hillin xatirələrini parafraz edib yazın.**

*Bəzən o qədər zəif olurdum ki, hətta su üçün əlimi uzatmaq belə çox çətin gəlirdi. Enerjim tükənirdi, qidalanmaq da çox məhdud idi. Amma hər dəfə Lunanın köklərinin torpağa necə möhkəm yapışdığını və onun da həyatda qalmaq üçün necə mübarizə apardığını düşünürdüm. Bu düşüncə mənə güc verirdi...*

*Bəzən günlərlə, hətta həftələrlə heç kimlə ünsiyyət qura bilmirdim. O anlarda təbiətin səsi mənim tək dostum olurdu. Quşların nağməsi, küləyin uğultusu və ağacın xışıltısı sanki mənimlə danışırdı. Tənhalıq bəzən qəlbimi sıxırdı, amma anlayırdım ki, mən bu ağacla birgə yaşayır, onunla birlikdə nəfəs alıram.*

Layihə

**c** **Oxuduğunuz mətnlərdə qırmızı ağac meşələri haqqında hansı məlumatları əldə etdiniz?**

**ç** **Sizcə, sekvoya meşələri ağac sənayesi üçün niyə əhəmiyyətlidir? Oxuduğunuz mətnlərdən və məlumat vərəqindən istifadə edərək fikrinizi əsaslandırın.**

### Sekvoya

**Növü:** Sərvkimilər
**Tanınması:** Planetin nəhəng bitkilərindən sayılır.
**Yayılması:** Təbii yetişdiyi yeganə yer Amerikanın Kaliforniya ştatıdır.
**Hündürlüyü:** 100 m-ə yaxın
**Gövdəsinin eni:** 30 metrdən çox
**Yaşı:** 2000 ilə qədər
**Xüsusiyyətləri:**
Ağacın qabığı qalın, qırmızımtıl, dərin şırımlıdır.
Oduncağı çürüməyə davamlıdır.
Budaq və zoğ əmələgətirmə qabiliyyəti yüksəkdir.



**d** Qruplarla iş. **Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmiş nadir ağaclar barədə araşdırma aparın. Onlar haqqında məlumat vərəqi hazırlayıb təqdim edin.**

**Təlimat**

1. Bitkinin adı, ümumi təsviri
2. Bitkinin yaşadığı mühit və xüsusiyyətləri
3. Nəsli kəsilmək təhlükəsinin səbəbləri
4. Bitkini qorumaq üçün hansı tədbirlər görülə bilər?



*Lənkəran akasiyası*



*Şabalıdyarpaq palıd*



*Eldar şamı*



*Dəmirağac*

Layihə

## Əsas nitq hissələri (təkrar)

**4 a Fərqləndirilmiş sözləri tələbə uyğun olaraq müvafiq feil şəklində işlədərək cümləri tamamlayın.**

| | |
|---|---|
| **1.** Fuadı çox **incit... ,** onun günahı yoxdur. | *Əmr şəkli, inkar, II şəxsin cəmində* |
| **2.** Bilin ki, bu məsələyə çox vaxt **itir... .** | *Vacib şəkli, inkar, II şəxsin cəmində* |
| **3.** Məktubu bu gün həmin ünvana **çatdır... .** | *Lazım şəkli, təsdiq, I şəxsin təkində* |
| **4.** Yeni ildə kaş siz də yeni evinizə **köç... .** | *Arzu şəkli, təsdiq, II şəxsin cəmində* |
| **5.** Anası **gəl... ,** körpə yatmayacaq. | *Şərt şəkli, inkar, III şəxsin təkində* |
| **6.** Onları yaxşı tanıyıram, heç vaxt doğru **danış... .** | *Xəbər şəkli, inkar, III şəxsin cəmində* |

**b Vurğusunu dəyişməklə mənası dəyişən sözləri müəyyən edin. Onları hər iki mənada cümlələrdə işlədin. Həmin sözlərin hansı nitq hissəsinə aid olduğunu qeyd edin.**

*dimdik, çəltik, çimdik, soyutma, qovurma, satirik, elektrik, akademik, demokratik, süzmə, çəkin, əkin, burun, oyun, qovun*

**c Kontekstdən çıxış edərək transkripsiyada verilmiş sözlərin morfoloji tərkibini müəyyən edin.**

**Nümunə** Yazılışı: ***asgərlərla*** – söz kökü + cəm şəkilçisi + "ilə" qoşmasının ixtisarı

**1.** Tanınmış şair və qiraətçilər **[əsgərrərnən]** görüşdülər.
**2.** **[Vaqonnan]** düşüb dayanacaqda taksi gözlədim.
**3.** O, şəkər tozunun miqdarını **[stəkannan]** ölçürdü.
**4.** Hər kəs onun **[sözünnən]** təsirlənmişdi.
**5.** Nənə və baba **[gücnən]** yeriyirdilər.

**ç Kontekstə uyğun olaraq sözlərə müvafiq morfemlər əlavə edin. Həmin morfemlərin semantik funksiyasını izah edin.**

**1.** Bu problemi aradan qaldırmaq üçün **təmir** ________ çağırmalısan.
**2.** Yeni açılan ________ **klinikada** çoxsaylı tibbi xidmətlər göstərilir.
**3.** Oyundan öncə **isin** ________ hərəkətləri lazımdır.
**4.** Uçuş biletlərini almaq üçün yaxınlıqdakı ________ **kassaya** getdim.
**5.** ________ **futbol** yarışları qapalı oyun meydançasında keçirilir.

**d Müxtəlif sözlərə qoşulan "-çı⁴" morfeminin semantik funksiyasını izah edin.**

*idmançı, milyonçu, xeyriyyəçi, islahatçı, oyunçu, yalançı, yolçu*

Layihə

**1 a** **Gündəlik istifadə etdiyiniz hansı əşyalar plastik materialdandır? Ətrafınıza baxın və onların adlarını sadalayın. Nə üçün bu əşyalara üstünlük verirsiniz?**

**b** **Plastik əşyalar olmasaydı, gündəlik həyatımız necə dəyişərdi? Həyatımızdan hansı əşyaları çıxarmalı olardıq?**



*Mətbəxdə*



*Tikintidə*



*Tibb sahəsində*

**c** **Nə üçün alış-veriş zamanı polietilen paketlərdən deyil, kağız və ya parça torbalardan istifadə tövsiyə edilir?**

**Qlossari**

**Polietilen** – dünyada ən geniş yayılmış plastik növüdür.

**ç** **Sizcə, plastik material bitki və ya heyvan mənşəli olur, yoxsa laboratoriyalarda kimyəvi maddələrdən hazırlanır?**

## Plastik materialın ixtirası, inkişafı, bu günü



*Buynuzdan hazırlanmış daraq Hindistan, 1801*

Bu gün həyatımızın ayrılmaz hissəsinə çevrilən plastik materialı qədim zamanlarda buynuz, fil sümüyü, tısbağa çanağı və kəhrəba əvəz edirdi. Qızdırıldıqda əyilə bilən heyvan buynuzlarından medalyonlar, qablar və daraqlar hazırlanırdı. Bu əşyalar hər kəs üçün əlçatan deyildi və xeyli bahalı olurdu. Getdikcə belə materiallara tələbatın artması iqtisadi problemlərlə yanaşı, həm də ekoloji problemlərə gətirib çıxardı. Məsələn, XIX əsrin ortalarında fil sümüyündən bilyard şarları və piano düymələrinin hazırlanması fillərin nəsli kəsilmək təhlükəsini artırmışdı. Eyni problem tısbağa çanağından hazırlanan daraqların istehsalında da müşahidə olunurdu. Alimlər yeni həll üsulları axtarırdılar.



*1862-ci ildə parkesindən hazırlanmış balıqçılıq aləti*

Plastik materialı 1862-ci ildə ingilis kimyaçı Aleksandr Parkes icad etdi və “Parkesin” adı ilə patentləşdirdi. Bu, təbii maddələrdən – pambıq liflərindən əldə edilmiş sellüloz əsaslı plastik material idi. Heyvan mənşəli materiallara nisbətən ucuz və əlçatan olması bu materiala böyük maraq yaratdı. Bununla da plastik sənayesinin başlanğıcı qoyuldu.

1907-ci ildə Leo Bakelit təbii maddələrə əsaslanmayan, laboratoriyada hazırlanan ilk sintetik plastik materialı – bakeliti ixtira etdi. İstiyə, nəmə və eroziyaya davamlı olması, həmçinin istənilən formaya salına bilməsi onu kütləvi istehsal üçün əlverişli edirdi.



*İngiltərədə təxminən 1934-cü ildə bakelitdən hazırlanmış telefon*

Plastik materialın inkişafı tarixində növbəti mərhələ polietilenin kəşfidir. Onu 1933-cü ildə Böyük Britaniyada iki alim – Erik Favset və Reginald Gibson təcrübə apararkən təsadüfən kəşf etmişdilər. Onlar etilen qazını yüksək temperatur və təzyiq altında başqa maddələrlə birləşdirməyə çalışırdılar. Təcrübə zamanı oksigenin təsadüfən qarışığa daxil olması nəticəsində gözlədikləri maddə əvəzinə ağ, mumlu, elastik bərk maddə əmələ gəlmişdi. Bu, dünyanı dəyişdirən polietilen idi. Digər plastik materiallardan fərqli olaraq, polietilenin istehsalı daha sadə və ucuzdur. Yüngüllüyü və elastikliyinə görə polietilen müxtəlif sahələrdə (qablaşdırma, borular, elektrik naqilləri, məişət əşyaları, geyimlər və s.) istifadə edilə bilir. Onun kəşfi plastik sənayesində növbəti inqilab hesab edilir.

Göründüyü kimi, indi həyatımızı asanlaşdıran plastik materiallar vaxtilə ciddi ekoloji və iqtisadi problemlərin həllində mühüm rol oynamışdı.

**d** **Verilmiş cümlələrdə “plastik” sözünün leksik mənalarını izah edin. Onun çoxmənalı söz olduğunu əsaslandırın.**

**1.** Plastik incəsənət heykəltaraşlıq, rəssamlıq, mozaika və s. kimi sənət növlərini əhatə edir.
**2.** Plastik material qızdırıldıqda asanlıqla müəyyən forma alır, sonra həmin formanı saxlayır.
**3.** Plastik əməliyyatlar, adətən, zədələnmiş toxumaları bərpa etmək üçün həyata keçirilir.

**e** **Qədim zamanlarda plastikdən öncə hansı materiallardan istifadə edilirdi? Plastikin ixtirasını zəruri edən amillər hansılar idi?**

**ə** **Mətnə əsasən yaddaş vərəqi hazırlayın.**

| *Plastik materialın növü* | *İxtiraçı* | *İxtira olunduğu tarix* | *Tərkibi* | *Xüsusiyyətləri* |
|---|---|---|---|---|
| | | | | |

**f** **Mətnin planını tərtib edin. Onun xronoloji mətn olduğunu əsaslandırın.**

Layihə

**2 a** **Şüşə su butulkalarını birdəfəlik plastik su butulkaları ilə müqayisə edin. Onların müsbət və mənfi xüsusiyyətlərini sadalayın.**

**Həyatımızı asanlaşdıran plastik qablar**

Plastik materiallar gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib. Yüngüllüyü, davamlılığı və münasib qiyməti onun məişət və istehsalatda geniş tətbiqinə səbəb olur.




Plastik materialların tərkibindəki kimyəvi maddələrə görə onların istifadə qaydaları dəyişir. Məsələn, bəzi plastik qabları günəşdən və istilikdən uzaq tutmaq lazımdır, çünki bu təsirdən yaranan kimyəvi reaksiyalar sağlamlığa zərərli ola bilər. İstiliyə həssas plastik material növləri təkrar emal üçün də yararlı deyil, çünki bu prosesdə yaranan zəhərli qazlar havanı çirkləndirir.

Plastik əşyaların üzərində dünyada qəbul olunmuş kodlar göstərilir. Məsələn, "1" kodu ilə işarələnmiş plastiklər birdəfəlik istifadə üçün nəzərdə tutulub və təkrar emal oluna bilər. Lakin belə plastiklər ikinci dəfə istifadə edildikdə içindəki suya zərərli maddələr qarışa bilər. Günəş altında saxlanıldıqda isə suyun tərkibi dəyişir, bu isə zəhərlənməyə səbəb ola bilər.

Plastik materialların təhlükəsizlik kodlarına diqqət yetirməklə həm sağlamlığımızı, həm də ətraf mühiti qoruya bilərik.

**b** **Su butulkasının üzərindəki ideoqram hansı informasiyanı ifadə edir? Mətnə əsasən fikrinizi əsaslandırın.**

**c** **Mətni yazmaqda müəllifin əsas məqsədi nədir?**

**a.** plastik materialların istehsal prosesini izah etmək
**b.** plastik məmulatlardan düzgün istifadəyə diqqət çəkmək
**c.** plastik su butulkalarının istifadəsini təşviq etmək

**ç** **Mətndən əldə etdiyiniz məlumatların və qrafik informasiyanın köməyi ilə birdəfəlik su butulkalarından istifadə qaydaları barədə təqdimat edin.**




Layihə

**d** **Plastik əşyalar istehsal edən bir şirkətin veb-səhifəsindən götürülmüş mətni oxuyun, sualları cavablandırın.**




**Plastik qablar: təhlükəsiz və rahat vasitə**

Biz başa düşürük ki, ailənizin sağlamlığı və rahatlığı hər şeydən önəmlidir. Bu bizim üçün də ən böyük prioritetdir. Sizi düşünərək təhlükəsiz və keyfiyyətli plastik qablar istehsal edirik. Məqsədimiz həyatınızı daha rahat və qayğısız etməkdir. Həmçinin uzun müddət istifadə edilə bilən, təkrar emal üçün uyğun olan məhsullarla təbiətin mühafizəsini də düşünürük.

**Daha az tullantı – daha sağlam gələcək!**

Məhsullarımız Ümumdünya Səhiyyə Təşkilatı və Avropa Qida Təhlükəsizliyi Qurumu kimi mötəbər təşkilatların tövsiyələrinə uyğun olaraq hazırlanır. Beynəlxalq standartlara əsaslanaraq istehsal etdiyimiz plastik qablar sağlamlıq üçün tam təhlükəsizdir. Uzun müddət istifadə edilə bilər. Tərkibində sağlamlıq üçün zərərli kimyəvi maddələr yoxdur.

İnanırıq ki, bizim məhsullarımız həyatınıza rahatlıq qatacaq!

Elə indi sifariş edin, ilk alış-verişinizdə 20% endirim əldə edin!

**e** **Mətnin ilk abzasında işlənmiş *prioritet* sözünün mənşəyi ilə bağlı verilənlərə əsasən sözün izahını müəyyənləşdirin.**

**prioritet** *(lat. prior)* – birinci, böyük

**ə** **Oxuduğunuz mətn hansı məqsədlə yazılıb? Mətndəki informasiyanı obyektiv hesab etmək olarmı? Fikrinizi əsaslandırın.**

**f** **Şirkət alıcılara ünvanlanmış bu mətndə onları istehsal etdiyi plastik qabların üstünlüyünə inandıra bilirmi? Fikrinizi əsaslandırın.**

**Qlossari**

**Reklam** – məhsul, xidmət və ya ideyanı tanıtmaq, müştərinin diqqətini cəlb etmək üçün yazılan mətndir. Belə mətnlər məhsulun və ya xidmətin yalnız üstünlüklərini təqdim edir.

**g** **Aşağıdakı məlumata əsasən reklam mətnindəki informasiyanın doğru olub-olmadığını aydınlaşdırın.**

5

Üzərində “5” kodu olan plastik material ağ və ya yarımşəffaf rəngdə olur. Ərzaq məhsullarının qablaşdırılması üçün istifadə olunur. Termik stabilliyinə görə qiymətləndirilir. İsidilən zaman ərimir. Sağlamlıq üçün, demək olar ki, təhlükəsizdir. Təkrar emal üçün uyğundur.

Layihə

**3a** **Hansı növ tullantılar təbiətdə yüz illər keçsə də, çürümür? Bu barədə bildiklərinizi danışın.**

## Ekoloqlardan həyəcan təbili: təbiət bizdən kömək istəyir!



Plastik tullantılar təbiətdə parçalanmadığı üçün ətraf mühitin çirklənməsinə səbəb olur. Bu isə dünya ictimaiyyətində böyük narahatlıq doğurur.

Birləşmiş Millətlər Təşkilatı və ekoloji təşkilatların hesabatlarına görə, dünya miqyasında hər il təxminən 4 trilyon plastik paket istifadə olunur. Bu paketlərin əksəriyyəti birdəfəlik istifadə üçün nəzərdə tutulub və qısa müddət sonra tullantıya çevrilir. Ümumilikdə, dünya üzrə plastik tullantıların yalnız 9%-i təkrar emal edilir. Əks halda ya torpağa basdırılır, ya yandırılır, ya da okeanlara atılır. Plastikin yandırılması zamanı yayılan zəhərli qazlar insan sağlamlığına ciddi ziyan vurur. Torpağa basdırılan birdəfəlik plastik qablar isə yüzilliklər boyunca çürüyüb yox olmur. Mikroplastiklərə çevrilib torpağın məhsuldarlığını azaldır, qida vasitəsilə orqanizmimizə daxil olur. Mikroplastiklər su hövzələrinin çirklənməsinə də səbəb olur. Okeanlarda toplanan plastik tullantılar böyük “zibil adaları” yaradır. Hazırda dünyada beş belə ada mövcuddur.




Plastik tullantıların okeanlarda toplanması canlı aləm üçün ciddi problemlər yaradır. Dəniz canlıları mikroplastikləri yem kimi qəbul edir və kütləvi şəkildə məhv olur. Hesablamalara görə, 280 növ canlı artıq bu tullantıların qurbanı olub. Əgər indidən tədbir görülməzsə, gələcəkdə okeanlarda balıqlardan çox plastik tullantılar olacaq.

Tullantıların idarə olunmaması bir sıra sosial-iqtisadi problemlərə yol açır. Məsələn, okeanda tullantıların yığılması və suyun mikroplastiklərdən təmizlənməsi böyük maliyyə vəsaiti tələb etdiyi üçün işlər ləng gedir. “Okean təmizliyi” (The Ocean Cleanup) təşkilatının Sakit okeanda tullantı toplayan sistemləri bu sahədə atılmış önəmli addımlardandır.

Plastik tullantılarla mübarizə üçün həm dövlətlərin, həm də fərdlərin birgə səyi vacibdir. Dövlətlər birdəfəlik plastik qabların istifadəsini məhdudlaşdıran qanunlar qəbul etməli, təkrar emalı dəstəkləyən proqramlar həyata keçirməlidir. Alış-verişdə parça və ya kağız torbalara üstünlük vermək, birdəfəlik qabları şüşə və ya metal alternativlərlə əvəz etmək bu mübarizədə hər birimizin ata biləcəyi addımlardır.

**Unutmayaq, Yer üzünün bizə yox, bizim ona ehtiyacımız var!**

Layihə

**b** **Coğrafi biliklərinizdən istifadə etməklə aşağıdakı sualı cavablandırın.**
***Nə üçün plastik tullantılara daha çox okeanlarda rast gəlinir?***

**c** **Müəllifin mətni yazmaqda əsas məqsədi nədir? Mətndən nümunələr gətirməklə onun çağırış xarakterli mətn olmasını əsaslandırın.**

**ç** **Əldə etdiyiniz məlumatları aşağıdakı sxem əsasında qruplaşdırın.**




**d** **Bu fəsildə oxuduğunuz mətnləri mövzusuna və müəllifin məqsədinə görə müqayisə edin.**

**4a** **Debat. Bu fəsildə əldə etdiyiniz məlumatlardan istifadə edərək debat keçirin.**

***Təsdiqedici tərəf:*** *Plastik qabların istehsalını qadağan etmək lazımdır.*
***İnkaredici tərəf:*** *Plastik qabların istehsalını qadağan etmək olmaz.*

**Təlimat**

**Debatdan əvvəl:**
1. Qrup daxilində müzakirə edərək mövqeyinizə uyğun arqumentlər müəyyənləşdirin.

**Debat zamanı:**
2. Öz mövqeyinizi təqdim edin. Arqumentlərinizi faktlarla izah edib əsaslandırın. (Hər qrupa 5 dəqiqə)
3. Qarşı tərəfin arqumentlərinə cavab verin və onları əks-arqumentlərlə təkzib etməyə çalışın. (Hər qrupa 3 dəqiqə)
4. Yekunda öz mövqeyinizi ümumiləşdirərək əsas nəticəni təqdim edin. (Hər qrupa 2 dəqiqə)

**Debatdan sonra:**
Debatda iştirakınızı aşağıdakı meyarlar üzrə qiymətləndirin.
1. Arqumentlərin düzgün seçimi və faktlarla əsaslandırılması (5 bal)
2. Əks-arqumentlərin məntiqli və inandırıcı olması (5 bal)
3. Faktlardan istifadə (5 bal)
4. Natiqlik bacarığı (5 bal)
5. Komanda əməkdaşlığı (5 bal)
6. Reqlamentə əməl olunması (5 bal)

Layihə

# Ümumiləşdirici təkrar

**1 Xitabları seçin, buraxılmış durğu işarələrini müəyyənləşdirin.**

**1.** Ah oğlum of mənim qəhrəman oğlum!
Bu qədər qəm yemə, qurbanın olum! *(S.Vurğun)*

**2.** Durun ay uşaqlar yolçu yolda gərək.

**3.** Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə durnalar! *(M.P.Vaqif)*

**4.** Sülhə gəlin ey insanlar
Yoxsa dünya məhv olar. *(N.Gəncəli)*

**5.** Səndən doymaq olarmı, həyat sən nə şirinsən! *(B.Vahabzadə)*

**2 Hansı cümlədə ismi birləşmənin əsas tərəfi məsdərlə ifadə olunub?**

**a.** Semiramidanın asma bağları dünyanın yeddi möcüzəsindən biridir.
**b.** Nənəmin bişirdiyi nar qovurması ilə plovun qazmağı çox dadlı olur.
**c.** Vaxtını boş yerə itirmək özü-özündən oğurluq etmək deməkdir.
**d.** Bu xəstəliyə laqeyd yanaşılması ciddi fəsadlara yol açar.
**e.** Məhsulun vaxtında yığılmaması hamımızı narahat edirdi.

**3 Hansı cümlədə həmcins üzvlər yoxdur? Fikrinizi əsaslandırın.**

**a.** Qartal ovçunun başının üstündə dövrə vurur, sanki ona təşəkkür edirdi.
**b.** Aynurun anasını evimizdə görəndə təəccübləndim, gözümə inanmadım.
**c.** Onu bu yerlərə gətirib çıxaran vətən həsrəti, yurd sevgisidir.
**d.** Atalar demişkən, igid ölər, adı qalar, müxənnətin nəyi qalar?!
**e.** Nazik buz layları dənizdə üzür, qayalara dəyərək parçalanırdı.

**4 Cümlələrdəki feili tərkibləri seçin, hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.**

**1.** Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim? *(M.Müşfiq)*

**2.** Kəndə doğru yol alan maşınımız asfalt yola çıxanda sürətini artırdı.
**3.** Gözləmədiyi vəziyyətlə qarşılaşan gənc özünü itirmişdi.
**4.** Gərgin iş həftəsindən sonra istirahət etmək hamımızın haqqıdır.
**5.** Ən böyük həqiqəti, azadlığı, məhəbbəti, nifrəti söyləməyə qadir olan dilim var. *(R.Rza)*

**5 Sualları uyğun tərkiblərlə əvəz edib cümlələri genişləndirin. Tərkiblərin növünü müəyyən edin.**

**1.** Mən *(nə vaxt?)* küçüyün axsadığını gördüm.
**2.** *(Necə?)* adam heç vaxt çətinlikdən qorxmaz.
**3.** Pişik balası ocağın yanında *(necə?)* yatmışdı.
**4.** *(Nəyi?)* normal hal hesab etmək olmaz.
**5.** Biz *(hansı?)* meyvələri yük maşınlarına yığdıq.

**a.** *yumaq kimi büzüşərək*
**b.** *satılmaq üçün nəzərdə tutulmuş*
**c.** *hər kiçik nöqsana görə deyinməyi*
**ç.** *günorta dərsdən qayıdanda*
**d.** *həmişə özünə güvənən*

Ləylnə

**6** **Orfoqrafik səhvləri müəyyən edin, qaydalara əsasən fikrinizi əsaslandırın.**

**1.** Dünən aldığım kitabda çox maraqlı idi.
**2.** Xanım, məndə bilmirəm, bu məsələ necə həll olunacaq.
**3.** Əlbəttə, yorulmuşam, heç taqətimdə qalmayıb.
**4.** Bu film maraqlıdır, əminəmki Səbinədə baxsa, çox bəyənəcək.
**5.** Kitabxana da o qədər yaxşı mənbə var ki, bir az araşdır sana!
**6.** Sizki bu məsələdən xəbərdarsınız, niyə bizədə deməmisiniz?

**7** **Cümlələrdə punktuasiya səhvlərini tapın. Öyrəndiyiniz qaydalara əsasən uyğunluğu müəyyənləşdirib izah edin.**

- **Modal sözlərin vergüllə ayrılması**
- **Nidalarda durğu işarələri**
- **Xitabın vergüllə ayrılması**

**1.** Düzü sən özün də bəzən ədalətli davranmırsan axı?
**2.** Oh sən, doğrudan da əla bacarırsan! Təbrik edirəm səni.
**3.** Fikrimcə bu lap böyük uğurdur, yəqin ki davamlı olacaq!
**4.** Boy sən bunu necə bacardın? İnanılmazdır!
**5.** Vay sənə demişdim axı, ehtiyatlı ol!
**6.** Ey cavan oğlan bir dəqiqə dayan görək!

**8** **Cümlələrdə yönlük halda işlənmiş hansı isimlər səhv yazılmışdır?**

**1.** Qarğıya da öz balası gözəldir.
**2.** Dəmir qapının da taxta qapıya işi düşər.
**3.** Necə deyərlər, daş qayıya rast gəlib.
**4.** Arpıya qatsan at yeməz, sümüyə qatsan it yeməz.
**5.** Əməliyyatdan sonra sarğıya ehtiyac yoxdur.

**9** **Dördündən biri ayrı yazılan mürəkkəb sözdür:**

| | | | |
|---|---|---|---|
| **1. a.** günbəgün | **b.** günaşırı | **c.** günorta | **d.** bugün |
| **2. a.** buaykı | **b.** busaat | **c.** builki | **d.** bugünkü |
| **3. a.** birmənalı | **b.** birqədər | **c.** birtərəfli | **d.** birsaatlıq |
| **4. a.** sanki | **b.** hərkəs | **c.** hərdənbir | **d.** birotaqlı |
| **5. a.** onbir | **b.** birdəfəlik | **c.** birbaşa | **d.** birigün |

**10** **Hansı cümlələrdə mürəkkəb adlar orfoqrafik normaya uyğun yazılmışdır?**

**1.** Hər il Silahlı Qüvvələr Günündə hərbi parad keçirilir.
**2.** 28 May Respublika Günü münasibətilə şəhər bəzədilmişdi.
**3.** Bu il Novruz Bayramı daha təntənəli şəkildə keçirildi.
**4.** Dövlət bayrağı günü münasibətilə tədbir təşkil olunmuşdu.

Layihə

# İZAHLI SÖZLÜK

İxtisarlar: *is. – isim; sif. – sifət; z. – zərf; f. – feil; fr. – frazeoloji birləşmə; məc. – məcazi məna*

**ada-dövlət** *is.* – sahəsi hər hansı adanın ərazisini əhatə edən dövlət, məsələn: Yaponiya, Madaqaskar, İndoneziya və s.

**cəhalət** *is.* – elm və mərifətin olmadığı hal, avamlıq, nadanlıq, cahillik, mədəni gerilik.

**diaqnoz** *is.* – sistemli müayinə əsasında xəstəliyin müəyyən edilməsi.

**dolanbac** *sif.* – çox dolaşıq, əyri-üyrü; düz olmayan.

**doluxsunmaq** *f.* – bir şeydən mütəəssir olaraq gözlərinə yaş dolmaq; ağlamsınmaq, ağlamağı gəlmək.

**ekoloji** *sif.* – ekologiyaya aid, ekologiyaya məxsus.

**ekoloq** *is.* – ekologiya üzrə mütəxəssis.

**ekosistem** *is.* – bir-biri ilə və ətraf mühitlə sıx qarşılıqlı əlaqədə olan canlı orqanizmlərin yaratdıqları davamlı özünütənzimləmə sistemi.

**fenomen** *is.* – müstəsna hadisə, qeyri-adi fakt; nadir şəxsiyyət.

**fitri** *sif.* – təbiətində, yaradılışında olan; anadangəlmə.

**gedişat** *is.* – proses, işlərin gedişi.

**haram** *sif.* – zəhmətlə, dürüstlüklə, düz yolla qazanılmayan, əyri yollarla əldə edilən; halalın əksi.

**himayədar** *is.* – himayə edən, hamilik edən, qeydinə qalan; arxa, kömək.

**ianə** *is.* – ehtiyacı olan adam(lar) və ya ictimai dəyəri olan iş üçün toplanılan pul; maddi yardım, kömək.

**icarədar** *is.* – birinin mülkünü və s.-ni icarəyə götürən adam.

**iflas** *is.* – *məc.* hər hansı bir ictimai fəaliyyətdə, yaxud şəxsi həyatda tam uğursuzluq, müvəffəqiyyətsizlik.

**ifrat** *sif.* – çox, həddən ziyadə, son dərəcə.

**ikrah** *is.* – iyrənmə, diksinmə, nifrət.

**iman** *is.* – islamiyyətdə dinə, Allahın birliyinə, peyğəmbərlərə dərin inam; etiqad.

**imtiyaz** *is.* – müstəsna hüquq; üstünlük, güzəşt.

**keşməkeşli** *sif.* – çətin, ağır (həyat, tale haqqında).

**konsepsiya** *is.* – ideyalar, baxışlar və fikirlər sistemi, hər hansı məsələnin həllində tətbiq olunan ümumi yanaşma.

**qırov** *is.* – payızın axırlarında soyuqlar düşəndə gecələr yerə, yarpaqlar və s. üzərinə kiçik kristallar şəklində qonan qar kütləsi, şehin donmuş zərrələri.

**qübbə** *is.* – yarımkürə şəklində dam; günbəz.

**qürrələnmək** *f.* – əsassız və boş bir şeyə görə qürurlanmaq, lovğalanmaq.

Layihə

**məzəmmət etmək** *f.* – tənbeh etmək, danlamaq, qınamaq.
**müflislik** *is.* – var-yoxu, pulu, malı əlindən çıxma, iflasa uğrama.
**müstəqim** *sif.* – düz, birbaşa, bilavasitə. Müstəqim məna – həqiqi məna, ilkin məna.
**mütərəqqi** *sif.* – siyasi, ictimai və iqtisadi cəhətdən qabaqcıl, ictimai inkişafa kömək edən; qabaqcıl.
**müvəkkil** *is.* – müəyyən bir işi görmək üçün vəkaləti, səlahiyyəti olan adam.
**neqativ** *sif.* – arzuolunmaz, mənfi, əksəriyyətin qəbul etmədiyi.
**nimdaş** *sif.* – bir qədər geyilmiş, işlənmiş, nisbətən köhnəlmiş, təzə olmayan.
**patologiya** *is.* – insan və heyvan orqanizmində normadan yayınma, fiziki və psixoloji inkişaf prosesində pozğunluq.
**penni** *is.* – Böyük Britaniya və bir sıra Avropa ölkələrində istifadə olunan xırda pul.
**personaj** *is.* – bədii əsərdə iştirak edən şəxs; surət, tip.
**pənah gətirmək** *fr.* – xilas və ümid yeri hesab etdiyi şəxsə, məkana sığınmaq, kömək, imdad istəmək.
**pozitiv** *sif.* – müsbət emosiya yaradan, xoşagələn.
**psixologiya** *is.* – insanın psixikasından, psixi fəaliyyətinin proses və qanunauyğunluqlarından bəhs edən elm.
**radikal** *sif.* – köklü, əsaslı, qəti.
**reformator** *is.* – köhnəni dəyişdirən, yenidən quran; islahatçı.
**sayrışmaq** *f.* – titrək, zəif işıq saçmaq, parlamaq.
**şaqraq** *sif.* – şən, nəşəli, sevincgətirən, fərəhgətirən, ürəkaçan.
**şeytani** *sif.* – şeytana xas olan, şeytana layiq olan; şeytancasına, ibliscəsinə.
**təbir** *is.* – söz, kəlmə, ifadə. Təbirincə – … dediyi kimi, … sözü ilə desək.
**təlxək** *is.* – keçmişdə meydanlarda, küçələrdə və s. yerlərdə gülməli nömrələr göstərən, adamları güldürən, əyləndirən, zarafatcıl adam; oyunbaz.
**təpmək** *f.* – bir şeyi zorla başqa bir şeyin içərisində yerləşdirmək; güclə soxmaq, salmaq, doldurmaq.
**tıxmaq** *f.* – acgözlüklə yemək.
**titan** *is.* – qədim yunan mifologiyasında Olimp ilahlarına qarşı döyüşən nəhəng məxluq.
**varmaq** *f.* – getmək, yetişmək, gəlib çatmaq.

Ləyinə

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün*
***Azərbaycan dili (tədris dili) fənni üzrə***
***dərslik (II hissə)***

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov** |
| | **Ülkər Nurullayeva** |
| | **Dilrübə Cəfərova** |
| | **Aysel Xanalıyeva** |
| Redaktor | **Nəriman Abdulov** |
| Rəyçi | **Cəbrail Həşimov** |
| Texniki redaktor | **Rəşad Nəbiyev** |
| Dizayner | **Səbinə Vəzirova** |
| Rəssam | **Elçin Cabarov** |
| Korrektor | **Fidan Məmmədova** |
| Mətnləri səsləndirən | **Elnarə Qurbanzadə** |


**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi 12. Səhifə sayı 96.
Kağız formatı 57×90 1/8. Kəsimdən sonra ölçüsü: 22,0×27,5.
Şriftin adı və ölçüsü: Calibri, 14 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tirajı  Bakı – 2025.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"CN Poliqraf" MMC (Bakı ş., A.M.Şərifzadə küç., 29/31).

Layihə

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!



Layihə